Xalqın qəzeti!

# Xalq qəzeti

№ 161 (30855) 5 avqust 2025-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Siyasi varisliyə gedən yolun başlanğıcı



*İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm.*

*Heydər ƏLİYEV,*
*ümummilli lider*

səhifə ⇨ 5

## Dəniz sərhədlərimizin etibarlı sipəri



**Hazırda özünün yüksəliş dövrünü yaşayan Azərbaycan Hərbi Dəniz Qüvvələrinin şəxsi heyəti həm Birinci Qarabağ müharibəsi dövründə, həm də Vətən müharibəsinin gedişində Azərbaycanın ərazi bütövlüyü uğrunda fədakarlıqla vuruşub. Xüsusilə 44 günlük Vətən müharibəsinin gedişində Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlı bölmələrinin göstərdiyi qəhrəmanlıq hərb tariximizin şərəfli səhifələrindən birini təşkil edir. Bunları hərbi dənizçilərimizin peşə bayramı günündə xatırlatmağımız təsadüfi deyil.**

*(ardı 5-ci səhifədə)*

## Mirasımıza təcavüz – Ermənistan, silinmiş tarix və sülh

### *İrəvan anlamalıdır ki, mədəniyyət birləşdirici dəyərdir, bölücü yox!*



**Zaman-zaman Azərbaycana qarşı erməni mədəni mirasının məhvi ilə bağlı ünvanlanmış əsassız ittihamlar bu gün də müxtəlif təzahür formaları ilə gündəmdədir. Bu, Ermənistan və havadarlarının anti-Azərbaycan ritorikasında mühüm yer tutur. İndiki məqamda belə bir ritorikaya üz tutulmasının hansı xoşagəlməz nəticələr doğura biləcəyini sonda diqqətə çatdıracağıq. Hələlik isə...**

ardı səhifə ⇨ 3

## İrəvan separatçıların üzünə qapıları birdəfəlik bağlayıb

### *Ermənistanı qanlı fəlakətə sürükləmiş siyasi meyit Koçaryanı "diriltmək" cəhdləri mənasızdır*



**Kreml Ermənistanın siyasi orqanizmində çoxdan "rudimentə" (bədənin funksionallığını itirmiş orqanı – red.) dönmüş Koçaryan fiqurunu "heçdən zühur etdirmək" xəyalına düşüb. İrəvan ermənisinin yaddaşında on il özü, on il də qulbeçəsi Sarkisyanla birlikdə 20 il (1998–2018) Ermənistana rəhbərlik edən bu klanla bağlı yalnız mənfi təəssürat və nifrət qalıb.**

*(ardı 4-cü səhifədə)*

## Aşotyanın "Minsk qrupu" xülyası

### *Serj Sarkisyanın silahdaşı keçmişin üz qaralığından əl çəkə bilmir*

**Ermənistan ictimai-siyasi çevrələrində ATƏT-in Minsk qrupuna dair illüziyalardan tam qurtuluş hələ də baş verməyib. Bu formatın 2020-ci ildə ömrünü başa vurmasına baxmayaraq, bəzi erməni siyasətçilər onun yenidən "dirildilməsi" fikrindən əl çəkmirlər. Onlar hesab edirlər ki, Minsk qrupu vasitəsilə danışıqlar prosesini əvvəlki relslərə qaytarmaq mümkündür. Bu yanaşma, əslində, regional reallıqlardan və geopolitik dəyişikliklərdən xəbərsiz düşüncə tərzinin məhsuludur.**

Hayastan daxilində bəzi qüvvələr Minsk qrupunun "xortlamasında" maraqlı olmaqla, həm sülh gündəliyinə, həm də Cənubi Qafqazda yaranan yeni balanslara kölgə salmağa çalışırlar. Belələrindən biri də Ermənistan Respublika Partiyasının sədr müavini, özünü siyasi məhbus adlandıran Armen Aşotyandır. Onun Rusiya xarici işlər naziri Sergey Lavrovun Helsinki Yekun Aktının imzalanmasının və ATƏT-in yaradılmasının 50 illiyinə həsr olunmuş məqaləsinə dair yazdığı fikirlər bundan xəbər verir.

Qeyd edək ki, Rusiyanın baş diplomatının haqqında bəhs edilən "Helsinki aktının yarım əsri: gözləntilər, reallıq, perspektivlər" sərlövhəli məqaləsi avqustun 1-də "Rossiyskaya qazeta"da dərc olunub. S.Lavrov məqalədə ATƏT-in Minsk qrupunun keçmiş münaqişə tərəfləri arasında dialoqa şərait yarada bilmədiyini etiraf edib: "ATƏT Dağlıq Qarabağda da uğursuzluğa düçar oldu. Minsk qrupu münaqişə tərəfləri arasında dialoqa şərait yarada bilmədi və onun Qərb iştirakçıları Rusiya ilə əməkdaşlıqdan imtina etdikdən sonra bu, tamamilə mənasını itirdi".

*(ardı 4-cü səhifədə)*

## Asiya İnkişaf Bankı davamlı inkişaf tərəfdaşımızdır

### *Qurum ölkəmizin "yaşıl" layihələrini fəal dəstəkləyir*




**Asiya İnkişaf Bankı (AİB) Mərkəzi və Qərbi Asiyada layihələrə hazırlığın artırılması çərçivəsində yeni regional texniki yardım üçün 1 milyon ABŞ dolları ayırmağı planlaşdırır. AİB-in məlumatına əsasən, bu fəaliyyət regionun 9 ölkəsini – Azərbaycan, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Pakistan, Tacikistan, Türkmənistan və Özbəkistanı əhatə edir və maliyyələşdirilən layihələrin satınalma, hazırlanma və həyata keçirilməsi sahəsində institusional potensialın artırılmasını reallaşdırır.**

ardı səhifə ⇨ 7

## UNICEF Azərbaycandan gedir




səhifə ⇨ 6

## Azərbaycan təbabətinin əfsanəsi



səhifə ⇨ 10

## "Yurdun yurdçusu, oğlum!"



səhifə ⇨ 11

## Dünya neft bazarında yeni dövr çağırışı




səhifə ⇨ 11

## “Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilən, fəaliyyət sahələrinə uyğun olaraq Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə qrant verə bilən qurumların siyahısının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli 654 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Qrant haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 75-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1** “Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilən, fəaliyyət sahələrinə uyğun olaraq Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə qrant verə bilən qurumların siyahısının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli 654 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1126 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adına və 1-ci hissəyə “şəxslərinə” sözündən sonra “, habelə bələdiyyələrə” sözləri əlavə edilsin;

1.2. həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilən, fəaliyyət sahələrinə uyğun olaraq Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə qrant verə bilən qurumların siyahısı”nın adına “şəxslərinə” sözündən sonra “, habelə bələdiyyələrə” sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 4 avqust 2025-ci il**

# Sahibə Qafarova Türkmənistanda




**Avqustun 4-də Türkmənistanın Avaza şəhərində BMT-nin Dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr üzrə üçüncü Konfransı çərçivəsində Parlamentlərarası Forum öz işinə başlayıb. Tədbirdə ölkəmizi Milli Məclisin sədri Sahibə Qafarova təmsil edib.**

Sahibə Qafarova Forumun “Vyanadan Avazaya: Həll olunmamış çağırışlar, öyrənilmiş dərslər və irəliyə doğru yol” mövzusunda keçirilən birinci sessiyasına sədrlik edib.

Milli Məclisin sədri bildirib ki, bu forumun məqsədi dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələrdə, tranzit ölkələrdə və inkişaf tərəfdaşlarında siyasət və proqramların formalaşdırılması və icrasında, həmçinin bu ölkələr üçün qəbul edilmiş Fəaliyyət proqramları üzrə öhdəliklərin və prioritetlərin yerinə yetirilməsində parlamentlərin oynaya biləcəyi rolu qəbul etməkdir.

S.Qafarova çıxışında milli sərhədləri aşan və parlamentlərin fəaliyyətini beynəlxalq səviyyəyə qaldıran parlamentlərarası əməkdaşlığın əhəmiyyətini vurğulayaraq, ideyaların müzakirəsi və təcrübə mübadiləsinin parlamentlərin fəaliyyətinə yeni perspektivlər qatacağına inamını ifadə edib. Qeyd olunub ki, belə forumlar parlamentlərin səylərinin birləşdirilməsinə və fəaliyyətlərin əlaqələndirilməsinə kömək edə bilər.

Parlamentin sədri müzakirələr zamanı Azərbaycanın bu istiqamətdəki təcrübələrini də diqqətə çatdırıb. O, dənizə çıxışı olmayan ölkə kimi Azərbaycanın həyata keçirdiyi təşəbbüslərin coğrafi məhdudiyyətləri imkanlara çevirdiyini vurğulayaraq bildirib ki, son illər ərzində ölkəmiz nəqliyyat infrastrukturuna, o cümlədən Ələt Beynəlxalq Dəniz Ticarət Limanına, yeni avtomobil və dəmir yollarının inşasına milyardlarla dollar sərmayə yatırıb. S.Qafarova, həmçinin hazırda həyata keçirilən digər mühüm təşəbbüs - Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında yaşıl enerjinin inkişafı və ötürülməsi üzrə əməkdaşlıq haqqında da məlumat verib.

Müzakirələr digər çıxışlarla davam edib.

*

**Dünən Milli Məclisin sədri Sahibə Qafarova Türkmənistana işgüzar səfəri çərçivəsində Türkmənistan Məclisinin sədri Dünyagözəl Qulmanova ilə görüşüb.**



Görüşdə D.Qulmanova diqqətə çatdırıb ki, konfransda müzakirə olunan məsələlər mühüm əhəmiyyətə malikdir və xalqlarımızın maraqlarına xidmət edir. O, Azərbaycanın və Türkmənistanın qanunverici orqanları arasındakı əməkdaşlığı yüksək qiymətləndirərək ölkələrimiz arasındakı münasibətlərin mövcud səviyyəsindən razılığını bildirib.

Sahibə Qafarova dost və qardaş ölkələrimiz arasında əlaqələrin inkişafından danışaraq, yüksəksəviyyəli qarşılıqlı səfərlərin münasibətlərin inkişafında böyük rol oynadığını qeyd edib.

Azərbaycan-Türkmənistan münasibətlərinin inkişafında hər iki ölkənin parlamentlərinin əhəmiyyətini vurğulayan Sahibə Qafarova bu sahədə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının fəaliyyətini təqdir edib.

*

**Milli Məclisin sədri Sahibə Qafarova həmin gün Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva ilə də görüşüb.**

Görüşdə dost və qardaş ölkələrimiz arasında münasibətlərin dinamik inkişafından məmnunluq ifadə olunaraq, əlaqələrimizin dərinləşməsində ölkə başçılarının müstəsna rolu xüsusi vurğulanıb.

Söhbət zamanı ölkələrimiz arasında yüksəksəviyyəli münasibətlərin ruhuna uyğun olaraq, parlamentlərimiz arasında da əməkdaşlığın dinamik inkişaf tempinə malik olduğu bildirilib. Qeyd olunub ki, sıx təmaslar, müxtəlif beynəlxalq tədbirlər çərçivəsində keçirilən mütəmadi görüşlər və qarşılıqlı səfərlər qanunverici orqanlarımızın əməkdaşlığına mühüm və müsbət təsir göstərir. Sahibə Qafarova özünün Özbəkistana çoxsaylı səfərlərini, o cümlədən cari ilin iyulunda Birinci Özbəkistan-Azərbaycan parlamentlərarası Forumunda iştirakını məmnunluqla xatırlayıb.

***XQ***

# Elçin İlyas oğlu Əfəndiyev

**Azərbaycanın mədəni ictimaiyyətinə ağır itki üz vermişdir. Müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq yazıçısı, tanınmış dramaturq, tənqidçi və ədəbiyyatşünas, ictimai-siyasi xadim, filologiya elmləri doktoru, professor Elçin İlyas oğlu Əfəndiyev 2025-ci il avqustun 3-də ömrünün 83-cü ilində vəfat etmişdir.**



Elçin Əfəndiyev 1943-cü il mayın 13-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1960–1965-ci illərdə Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsində ali təhsil almış, 1965–1969-cu illərdə Azərbaycan Elmlər Akademiyasının Nizami adına Dil və Ədəbiyyat İnstitutunun aspiranturasında oxumuşdur.

Əmək fəaliyyətinə Azərbaycan Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda elmi əməkdaş kimi başlayan Elçin Əfəndiyev 1969–1975-ci illərdə orada işləmişdir. O, 1975–1987-ci illərdə Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinin katibi, 1987–1993-cü illərdə isə Xaricdə yaşayan həmvətənlərlə Mədəni Əlaqələr Cəmiyyəti – “Vətən” Cəmiyyəti rəyasət heyətinin sədri olmuşdur. Elçin Əfəndiyev 1993–2018-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin müavini vəzifəsində çalışmışdır.

Müasir Azərbaycan ədəbiyyatının parlaq simalarından olan yazıçı Elçin Əfəndiyev bütün fəaliyyəti ərzində 60-cı illər nəslinin ənənələrinə sadiqlik nümayiş etdirmiş və milli bədii fikrin zənginləşməsində mühüm rol oynamışdır. O, hələ ədəbi yaradıcılığa başladığı ilk vaxtlardan mənəvi axtarışlarla dolu əsərlərinin poetik gücü ilə geniş oxucu kütləsinin dərin rəğbətini qazanmışdır. Realist psixoloji təhlilin dərinliyi və bədii-estetik ifadə vasitələrinin rəngarəngliyi ilə seçilən bu əsərlər Azərbaycan nəsrinin qiymətli nümunələridir.

Ədəbiyyatımızın yeni mərhələsinin formalaşmasının fəal iştirakçısı olan sənətkar uzaq və yaxın tarixi keçmişimizlə bağlı roman, povest, hekayə və pyeslərində xalqımızın mənəvi-əxlaqi dəyərlərinin təbliğini diqqət mərkəzində saxlamışdır. Elçinin ssenariləri əsasında çəkilən filmlər uğurlu ekran həyatı yaşayaraq Azərbaycan kinematoqrafiyasının qızıl fonduna daxil olmuşdur.

Elçin Əfəndiyev tənqidçi-ədəbiyyatşünas kimi klassik irsə və müasir ədəbi prosesə dair aktual mövzularda dəyərli elmi-nəzəri yazıları, portret-oçerkləri ilə ədəbi mühitin inkişafına sanballı töhfələr vermişdir.

Yazıçının əsərləri bir çox xarici dillərə tərcümə olunmuş, müxtəlif teatr səhnələrində tamaşaya qoyularaq müəllifinə şöhrət qazandırmışdır. Onun mötəbər beynəlxalq konfranslarda çıxışları elmi və ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır.

Elçin Əfəndiyev ölkəmizin ictimai-siyasi və mədəni həyatında daim yaxından iştirak etmişdir. Xaricdə yaşayan soydaşlarımızın tarixi Vətənlə əlaqələrinin dərinləşməsində xidmətləri onun azərbaycançılıq məfkurəsinə sədaqətinin bariz ifadəsidir. Elçin Əfəndiyev uzun illər Azərbaycan Respublikası Baş nazirinin müavini vəzifəsində təqdirəlayiq fəaliyyət göstərmişdir.

Elçin Əfəndiyevin xidmətləri həmişə yüksək qiymətləndirilmişdir. O, Azərbaycan Respublikasının ali dövlət mükafatları – “İstiqlal” (2003), “Şərəf” (2013), “Şöhrət” (2018) ordenləri və “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” (2023) ilə təltif edilmişdir.

Görkəmli yazıçı və alim, tanınmış ictimai-siyasi xadim, səmimi və təvazökar insan Elçin İlyas oğlu Əfəndiyevin əziz xatirəsi onu tanıyanların qəlbində hər zaman yaşayacaqdır.

Allah rəhmət eləsin!

**İlham ƏLİYEV,**
**Mehriban ƏLİYEVA,**
**Əli ƏSƏDOV,**
**Sahibə QAFAROVA,**
**Samir NURİYEV,**
**Eldar ƏZİZOV,**
**Fərəh ƏLİYEVA,**
**Adil KƏRİMLİ,**
**Polad BÜLBÜLOĞLU,**
**İsa HƏBİBBƏYLİ,**
**Anar RZAYEV,**
**Nəriman HƏSƏNZADƏ,**
**Kamal ABDULLAYEV,**
**Çingiz ABDULLAYEV,**
**Hacı İSMAYILOV**

## Əli Əsədov Türkmənistana işgüzar səfər edib




**Avqustun 4-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Türkmənistana işgüzar səfər edib.**

Nazirlər Kabinetindən bildiriblər ki, Türkmənbaşı şəhərinin beynəlxalq aeroportunda Ə.Əsədovu Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Hocamırat Gəldimıradov və digər rəsmi şəxslər qarsalayıblar.

***XQ***

# Həbsdə olan iranlılarla bağlı iddialar əsassızdır

**İran İslam Respublikasının Xarici İşlər Nazirliyinin mətbuat katibi İsmayıl Bəqainin, guya, Azərbaycanda İran əsilli məhbuslarla pis rəftar edilməsi ilə bağlı iddialarının heç bir əsası yoxdur.**

Bunu Azərbaycan XİN-in mətbuat katibi Ayxan Hacızadə sözügedən iddialara dair şərhində bildirib. Onun sözlərinə görə, “Konsulluq əlaqələri haqqında” 1963-cü il tarixli Vyana Konvensiyasının müddəalarına uyğun olaraq, ölkəmizdə saxlanılan və həbs edilən bütün İran İslam Respublikası vətəndaşları haqqında məlumatlar İran tərəfinə rəsmi qaydada təqdim edilib.

Azərbaycanın Ədliyyə Nazirliyinin penitensiar müəssisələrində saxlanılan, İranın vətəndaşı olan məhkum və həbs edilmiş şəxslərin hüquqları, qanuni mənafeləri və şəxsi təhlükəsizlikləri qorunur, onlar zəruri maddi-məişət şəraiti ilə təmin olunurlar.

Qüvvədə olan qanunvericiliyin tələblərinə uyğun olaraq, məhkum və həbs edilmiş şəxslər telefonla danışmaq, bağlama almaq və ailə üzvləri ilə görüşmək hüquqlarından istifadə edirlər. Bəzi penitensiar müəssisələrdə İran vətəndaşı olan məhbuslara ailə üzvləri ilə videogörüntü əsasında görüşlərin keçirilməsi imkanı yaradılıb.

Həbsdə saxlanılan əcnəbilər, o cümlədən İran vətəndaşları mütəmadi olaraq tibb-sanitariya bölməsində müayinələrdən keçirlər. Bununla yanaşı, İranın Azərbaycandakı səfirliyinin əməkdaşları tərəfindən öz vətəndaşları üçün gətirilmiş dərman preparatları tibb xidmətinin əməkdaşları tərəfindən normativ aktların tələblərinə uyğun qaydada qəbul edilib və məhkumlara çatdırılıb.

Yalnız 2025-ci ildə İran səfirliyinin əməkdaşları ilə penitensiar müəssisələrdə cəza çəkən 37 nəfər İran vətəndaşı arasında konsul görüşünün keçirilməsi üçün şərait yaradılıb. Son olaraq belə görüş iki İran vətəndaşı ilə iyulun 31-də baş tutub.

Ayxan Hacızadə fikrincə, Azərbaycan tərəfinin, həmçinin bir sıra İran vətəndaşları ilə bağlı humanistlik nümayiş etdirdiyi İran tərəfinə yaxşı məlumdur. Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında Azərbaycan Prezidentinin 2025-ci il 26 may tarixli Sərəncamı ilə 5 nəfər İran vətəndaşı əfv edilib.

Xarici İşlər Nazirliyinin mətbuat katibi əlavə edib ki, bu tədbirlərə baxmayaraq, İranda saxlanılan və həbs edilən əksər vətəndaşlarımız barədə məlumatlar Azərbaycanın bu ölkədəki diplomatik missiyalarına təqdim olunmur, vətəndaşlarımıza əksər hallarda İrandakı diplomatik missiyalarımızla və ailə üzvləri ilə görüşməyə, telefon əlaqəsi qurmağa, 1998-ci il fevralın 21-də Bakı şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında azadlıqdan məhrum edilmiş məhkumların cəza çəkmək üçün verilməsi haqqında Müqavilə”nin müddəalarına uyğun olaraq cəzasının qalan hissəsini Azərbaycanda çəkmək üçün müraciətin təqdim edilməsinə icazə verilmir. Eyni zamanda, sorğu olunmasına baxmayaraq Azərbaycan vətəndaşlarının işləri ilə bağlı İranda keçirilən məhkəmə iclasları, həmin iclaslar zamanı qəbul edilən qərarlar barədə Azərbaycan tərəfinə məlumat verilmir.

“Ölkəmiz hər zaman bu kimi məsələlərin siyasiləşdirilmədən, ikitərəfli müstəvidə, diplomatik kanallarla müzakirəsinin tərəfdarı olub. Digər məsələlərlə yanaşı bu istiqamətdə danışıqlar 2025-ci il aprelin 15-də Tehran şəhərində Azərbaycanın Xarici İşlər Nazirliyi və İranın Xarici İşlər Nazirliyi arasında növbəti konsulluq məsləhətləşmələri zamanı aparılıb”, – deyə Ayxan Hacızadə vurğulayıb.

***XQ***

# Mirasımıza təcavüz – Ermənistan, silinmiş tarix və sülh

(əvvəli 1-ci səhifədə)



Əvvəla, Prezident İlham Əliyevin 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında bir qrup ziyalı ilə keçirdiyi görüşdə vurğuladığı bəzi məqamlara diqqət çəkək. Dövlətimizin başçısı həmin görüşdə hazırda Ermənistan Respublikası adlanan dövlətin tarixi Azərbaycan torpaqlarında qərarlaşdığını, mövcud reallığın sənədlərdə və xəritələrdə əksini tapdığını, dünya ictimaiyyətinin bütün bunları bilməli olduğunu diqqətə çatdırmışdı. “İndi göstərin görək İrəvanın tarixi mərkəzi haradır?”, - kimi ritorik sual səsləndirən ölkəmizin lideri suala özü cavab vermiş və maraqlı məqama toxunmuşdu: “Bu tarixi mərkəz Azərbaycan xalqının tarixi irsi idi, hansı ki, onlar dağıdıblar. Şəhərsalma adı altında bütün tarixi binalarımız, o cümlədən İrəvan qalası, Sərdar sarayı dağıdılıb”.

Prezident İlham Əliyev oxşar fikri 2025-ci il yanvarın 10-da yerli televziya kanallarına müsahibəsində də səsləndirmişdi. 1918-ci ildə Azərbaycan Demokratik Respublikası yaranandan bir gün sonra, yəni mayın 29-da İrəvanın ermənilərə verilməsindən təəssüfünü ifadə edən dövlətimizin başçısı demişdi: “İrəvan qədim Azərbaycan şəhəridir, Azərbaycan xalqı əsrlər boyu orada yaşayıb və İrəvanın bu gün silinməkdə olan tarixi görkəmi Azərbaycan memarlıq abidəsinin çoxəsirlik mövcudluğunu təsdiqləyir. Və İrəvan o şəhərlərdəndir ki, sanki orda “köhnə şəhər” yoxdur. Sadəcə ona görə ki, ora Azərbaycan şəhəri olub və o da sökülüb-dağılıb”.

Məlum olduğu kimi, 1918-1920-ci illərdə o zamankı Ermənistan Respublikası da Azərbaycana qarşı işğalçılıq siyasəti həyata keçirmişdi. Həmin illərdə azərbaycanlılara qarşı qırğınların törədilməsi fikrimizin sübutudur. O dönəmdə Ermənistanda 135 min soydaşımız soyqırımına məruz qalmış, onların yaşadıqları 198 kənd dağıdılmışdı. Erməni daşnak hökumətinin məqsədi Zəngəzuru azərbaycanlılardan tamamilə təmizləmək idi. Daha sonra Qarabağı və Naxçıvanı ələ keçirmək nəzərdə tutulurdu ki, daşnak parlamenti 28 may 1919-cu il tarixli “Birləşmiş Ermənistanın” yaradılması haqqında qərar versin. Beləliklə, Paris Sülh Konfransı fakt qarşısında qalacaq və sözügedən “Birləşmiş Ermənistan” dünya birliyinin üzvü qismində qəbul ediləcəkdi.

Deməli, haylar İrəvanın onlara paytaxt verilməsi ilə kifayətlənməmişdilər. Sonrakı dövrlərdə xalqımızın yaşadığı acı və məhrumiyyətlər də bunu göstərdi. Erməni varlığının bədnam əməllərin nişanəsi olan vandalizm aktları, habelə tarixi saxtalaşdırmaq kursu isə özünü azərbaycanlılara məxsus ayrı-ayrı yer adlarının dəyişdirilməsində, yaxud özününkiləşdirilməsi yönümündəki “fəaliyyətdə”, beynəlxalq humanitar hüququn pozulmasında göstərdi. Söhbət 1949-cu ilin Cenevrə Konvensiyalarına, UNESCO-nun 1954 və 1970-ci il konvensiyalarına aşkar həqarətdən gedir.

Lakin ermənilər öz əməllərini, bir növ, ört-basdır ediblər. Bu baxımdan Ermənistanın türk-müsəlman abidələrinin saxtalaşdırılması xüsusundakı qəribə metoduna diqqət çəkək. Məsələn, abidələrimiz, bir qayda olaraq, “fars”, “türkmən” və “monqol” abidələri qismində təqdim olunub. Əlbəttə ki, söhbət məhvə məruz qalmayan mədəni irs nümunələrimizdən gedir. Belələrinin sayı isə çox azdır. Məsələn, Göy Məscidi götürək. İndiyədək mövcudluğunu qoruyan bu məbədin İrana məxsusluğu vurğulanır. Ermənistanda Göy Məscidə şiə məscidi və sair adlar qoyanlar tapılır. Halbuki, belə bir iddia cəfəngiyyatdan başqa bir şey deyil və məsələnin üzərinə qayıdacağıq.

Amma Ermənistanda azərbaycanlılara məxsus maddi-mədəniyyət nümunələrinin izlərini silmək və ya həmin nümunələri digər xalqların adına çıxmaq cəhdlərinin heç bir faydası yoxdur. Çünki əlahəzrət tarix var. Elə isə nisbətən əvvələ nəzər salaq və bildirək ki, 1827-ci ildə İrəvan və Naxçıvan xanlıqları Rusiya tərəfindən işğal olunmuş və “Erməni vilayəti” yaradılmışdı. O vilayət ki, tərkibinə daxil edilmiş 1111 kənddən yalnız 62-də ermənilər yaşamışdı. Özü də həmin ermənilərin bölgədə məskunlaşmaları hay mövcudluğuna tarixi aspektdən yanaşmağa imkan vermir. Çünki yalnız 14-ü erməni mənşəli ada malik 62 kənddəki ermənilər 1828-ci ilədək köçürülənlər olmuşdular.

1920-ci ildə Ermənistanda sovet hakimiyyətinin qurulmasından sonra türk mənşəli toponimlərin erməniləşdirilməsi daha geniş vüsət almağa başlamışdı. Təkcə 1935-ci ilədək 200-ə yaxın yaşayış məntəqəsinin (oykonimlərin) adı dəyişdirilmişdir. 1935-ci ildən sonra isə proses tamamilə yeni məcraya qədəm qoymuşdu.

Belə nəticəyə gəlmək olar ki, Ermənistan SSR Ali Sovetinin Rəyasət Heyətinin qərarlarının çıxarılmasında azərbaycanlı və türk mənşəli adların dəyişdirilməsinə xüsusi yer verilmişdi. 1935-ci ildən sonra 1938, 1939, 1940-cı illər bu baxımdan fərqlənmişdi. Haylar, sanki, Böyük Vətən Müharibəsinin bitməsini gözləyirlərmiş. Onlar 1946, 1947, 1948, 1949, 1950, 1957, 1962, 1968, 1969, 1977, 1978, 1980-ci illərdə, belə demək mümkünsə, addəyişmə əməliyyatları həyata keçirmişdilər.

1948-1953-cü illər deportasiyasından sonra isə soydaşlarımızın tarixən ömür sürdükləri yaşayış məntəqələri ləğv edilmişdi. Həmin illərdə onlardan 60-dan çoxunun adı erməniləşdirilmişdir. Ümumən, 1920-1988-ci illərdə 517 türkmənşəli yaşayış məskəninin adı dəyişdirilmişdir. 1918-1988-ci illərdə Ermənistan ərazisindəki 254 azərbaycanlı yaşayış məntəqəsi siyahıdan silinmişdir. Onların bəzilərinin əhalisi soyqırımına məruz qoyulmuş, bəzilərininki isə deportasiya ilə üzləşmişdi.

Ötən əsrin 90-cı illərinin statistikası da ortaya dəhşətli mənzərə qoyur. Həmin illərdə Ermənistan Respublikası Ali Soveti Rəyasət Heyətinin fərmanları ilə ümumilikdə 106 yaşayış məntəqəsinin adı dəyişdirilmişdir. Bilavasitə Ermənistan parlamentinin 4 iyul 2006-cı il tarixli qərarı ilə əvvəllər azərbaycanlılara məxsus olmuş 31 yaşayış məntəqəsinə erməni adı verilmişdir. 2024-cü ilədək 717 türk mənşəli inzibati ərazi vahidinin adı dəyişdirilmişdir.

Bəli, erməni avantürizmini şərtləndirən ən mü¬hüm xüsusiyyətlərdən biri bu sayaq vandalizm aktları olub. Avantürizmin qədim Azərbaycan torpaqlarında türk, azərbaycanlı izini silməyi hədəf seçdiyi məlumdur. Silinən isə təkcə əhalisi pərən-pərən salınmış, adları dəyişdirilmiş yaşayış məntəqələrimiz olmayıb. Dini məbədlərimiz də etnik millətçilik siyasətinin qurbanına çevrilib. Ermənilərə dövlət yaratmaq üçün veril-miş qədim şəhərimiz olan İrəvan dini məbədləri ən çox hücuma məruz qalmış diyarımızdır. Məsələn, şəhərdəki Şah Abbas məs¬cidini götürək. Ona Abbas Mirzə məscidi, Sərdar məscidi və ya Xan məscidi də deyilibmiş. 1606-cı ildə inşa edilmiş bu məbəd ta¬mamilə dağıdılıb. Dərələyəzdəki Əxi Təvəkkül zaviyəsi, Ərgəz məscidi də eyni aqibəti yaşayıb.

Bundan başqa, İrəvan şəhərinin Dəmirbulaq məhəlləsindəki XVII-XVIII əsrlərə aid Dəmirbulaq məscidi və ya Hacı İmamverdi məscidi də vandalizmin ağır təsirlərinə məruz qalıb. Habelə, İrəvan şəhərinin tarixi hissəsi olan Şəhər bölməsində mövcud olmuş 1766-cı ilə aid Novruzəli bəy məscidi də tamamilə dağıdılmış mədəni irs nü-munələrimizdəndir. 1725-ci ildə Rəcəb paşa tərəfindən İrəvan qalasında inşa edilmiş Rəcəb paşa məscidini, So¬vet Ermənistanı dövründə hissə-hissə sökülərək yerində yaşayış evlərinin tikildiyi Sərdar məscidini də bu sıraya daxil etmək mümkündür.

1827-ci ilədək məscid kimi fəaliyyət göstərən İrəvan¬dakı Şükürbəyli məscidi isə hazırda rus pravoslav kilsəsidir. Şəhərin Təpəbaşı məhəlləsindəki Təpəbaşı məscidinin həyətinin ətrafında gecəqondular inşa edilib. 1766-cı ilə aid və haqqında söz açdığımız məş¬hur Göy Məscid isə hazırda fars məsci¬di kimi təqdim olunmaqdadır. Halbuki, abidə azərbaycanlı-türk Qacarlar sülaləsinin mirasıdır, Azərbaycan memarlığı üslubunda tikilib. O da məlumdur ki, məscid İrəvan xanı Hüseynəli xan tərəfindən inşa edilib. Son araşdırmalarda hətta onun məhz həmin məbəddə dəfn olunduğu barədə məlumatlara da rast gəlinir. Üstəlik, məscidin həyətindəki 1790-cı ilə aid daş kitabə də xanın ailəsindən olan qadınlardan birinə aiddir.

Əlqərəz, tarixə, mədəni irs nü¬munələrinə vandal münasibət ermə¬nilərin peşəsidir. Ermənistanda¬kı sovet döründə olan hakimiyyət kimi, müstəqillik illərindəki iqtidar komandaları da eyni “kursu” davam etdirib. Ancaq işğal altındakı torpaqlarımızın hər daşını, hər qayasını viranə qoymuş bu hakimiyyət, eləcə də hazırkı hay iqtidarı və onun havadarları müxtəlif platformalarda ölkəmizin erməni mədəni irs nümunələrinə qarşı hörmətsizliyinə dair cəfəngiyyat yayırlar.

Onu da bildirək ki, Azərbaycanın məqsədi bəşəridir. Ölkəmiz özünün keçmişinə, soy kökünə sahiblənmək əzmindədir. Bu əzmin ən böyük təbliğatçısı Prezident İlham Əliyevdir. Dövlətimizin başçısı xalqımızın Qərbi Azərbaycan irsinə sahiblənməsinin də müstəsna əhəmiyyətini vurğulayır. Ona görə vurğulayır ki, başımıza gələn bütün bəlalar zəif davranmağımızdan, qeyri-prinsipiallığımızdan, laqeydlik və unutqanlığımızdan qaynaqlanıb. Səhvləri isə təkrarlaya bilmərik. Əslində, Prezident İlham Əliyevin aşağıdakı fikirləri də səhvləri təkrarlamamaq üçün son dərəcə ciddi ideoloji direktivdir: “Azərbaycan xalqı da bilir ki, 1978-ci ildə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisindəki kəndlərin birində ermənilərin bu bölgəyə gəlməsinin 150 illiyini əks etdirən abidə ucaldılıb. 1978-ci ildən 150 ili çıxın, deməli, 1828-ci ildə gəliblər. Müharibə başlayan kimi o abidəni dağıdıblar, amma onun qalıqları qalıb və indi istənilən adam gedib baxa bilər. Onun şəkillərini də göstərmək lazımdır. Onlar gəlmədilər, Şərqi Anadoludan və İrandan bizim torpaqlarımıza köçürülüblər. Bu proses XIX əsrin əvvəllərindən başlanmışdır və sonralar daha geniş vüsət almışdır”.

Sonda bildirək ki, mədəniyyət nümunələri və tarixi abidələr insanları birləşdirən dəyərlərdir. Bu dəyərlər xalqlar arasında anlayışa xidmət etməlidir, siyasi mübarizə predmetinə çevrilməməlidir. Halbuki, Ermənistanın belə mütərəqqi baxışdan həmişə uzaq olduğunu vurğuladıq, misallar çəkdik. O misallar ki, saylarını xeyli genişləndirə bilərik. Əvvəldə haqqında söz açacağımızı anons etdiyimiz məqama gəlincə, hazırda Cənubi Qafqazda barış mühitinin qərarlaşmasının vacibliyindən danışan Ermənistan rəhbərliyi bildirdiklərimizdən nəticə çıxarmalı, mədəni irsi siyasi alətə çevirmək yolundan dönməli, köhnə klişeləri tarixin arxivinə yollamalıdır. Yollamalı və əvvəlki yolundan dönməlidir ki, ölkənin sülhlə bağlı mövqeyinin, hərəkət və davranışlarının səmimiliyi şübhə doğurmasın.

***Ə.RÜSTƏMOV***
***XQ***

**Xuntaçıların məhkəməsi**

# Ermənistan hərbçilərinin insanlığa zidd əməlləri





**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası avqustun 4-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında İnqilab Məmmədov 44 günlük Vətən müharibəsi zamanı yaşadığı Mingəçevir şəhərində mülki şəxs kimi zərər çəkdiyini bildirib. İ.Məmmədov 2020-ci il oktyabrın 4-də raket düşməsi nəticəsində ikimərtəbəli evinin dağıldığını, özünün və üç azyaşlı övladının dağıntılar altında qalaraq xəsarətlər aldıqlarını söyləyib. Elçin Bağırov da ifadəsində həmin gün Mingəçevirdə evinin yaxınlığına “Smerç” raketinin düşməsi nəticəsində maddi və mənəvi zərər çəkdiyini deyib. O

Elməddin Əlişanov ifadəsində vurğulayıb ki, işğaldan azad edilmiş Qubadlı rayonunda 2021-ci il fevralın 26-da mina partlaması nəticəsində xəsarətlər alıb, nəticədə bir gözünü itirib. Samir Sultanov söyləyib ki, 1994-cü ildə Füzuli rayonunda yaralanıb və əsir götürülüb. Balaqardaş Məlikməmmədov qeyd edib ki, 2021-ci il fevralın 4-də mina partlaması nəticəsində xəsarət alıb. Hadisə zamanı daha bir hərbçi yaralanıb, digər hərbçi isə şəhid olub.

Nəzərəli Kərimov 2016-cı il mart ayında Tərtər rayonunun Qapanlı kəndində Ermənistan silahlı qüvvələrinin açdığı atəş nəticəsində yaralandığını deyib. Samir Piriyev bildirib ki, hərbi xidmət zamanı 2007-ci il mayın 5-də Tərtər rayonunun Çaylı kəndində Ermənistan silahlı qüvvələrinin açdığı atəş nəticəsində yaralanıb.

Zərərçəkmiş digər şəxslər Murad Babayev, Qismət Fərzalıyev, Rəşad Hacıyev, Ramazan Balakişiyev, Sakit Həsənov, Alim Əfəndiyev, Xəzri İsmayılov Nurlan Mansurov, Səməd İsgəndərov, Xətai Mansurov, Turac Nəzərov, Azad Mərdəliyev, Nizami Talıbov, İslam Tatayev, Əli Mehdiyev, Əliabbas Ələmov, Aqşin Ağayev, Samir Səmədov, Emil Məhərrəmov və Kənan Əhədov ifadələrində Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin açdıqları atəşlər nəticəsində yaralandıqlarını diqqətə çatdırıblar.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandıran Ədalət Sultanov 2006-cı il sentyabrın 1-də Füzulinin Alxanlı kəndində Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində güllə xəsarəti aldığını söyləyib.

Dövlət ittihamçısı Vüsal Abdullayevin suallarına cavabında Səlim Məmmədov 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı soyqırımı zamanı girov götürüldüyünü qeyd edib. O, Xankəndiyə aparılıb, girovluq zamanı işgəncələrə məruz qalıb, döyülüb. Beş gün sonra Azərbaycan tərəfinə qaytarılıb.

Məhəmməd Məmmədlinin anası Mehriban Məmmədova övladının Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin açdığı atəş nəticəsində şəhid olduğunu deyib. Elmar İbrahimovun anası Ümmü İbrahimova da övladı Elmar İbrahimovun 2020-ci il oktyabrın 2-də Ermənistan silahlı qüvvələrinin açdığı atəş nəticəsində şəhid olduğunu vurğulayıb. Adilə Əliyeva bildirib ki, 1992-ci ildə Xocalı soyqırımı zamanı qohumları və həmyerliləri ilə birlikdə girov götürülərək Xankəndiyə aparılıb. Soyqırımı zamanı doğmaları Ermənistan silahlı qüvvələri tərəfindən qətlə yetirilib.

Daha sonra məhkəmədə fasilə elan olunub.

Fasilədən sonra prosesdə hakim elan edib ki, təqsirləndirilən şəxs Levon Balayana yeni vəkil təyin olunub. Levon Balayan ona yeni vəkil təyin olunmasına etiraz etmədiyini bildirib.

Ardınca məhkəmə prosesi zərərçəkmiş şəxslərin dindirilmələri ilə davam etdirilib. Gəray Həşimov, Faiq Məmmədov, Elşad Səmədov, Tural Bəhrəmli, İlqar Səfərov, Zaur Mahmudov, Rüfət Balaməmmədov, Həmzə Vəliyev, Müşfik Əliyev, Ələt Babayev, Rəşad Həziyev, Sahib Abdullayev, Afiq Qasımov, Elməddin Alışanov, Nağı Məmmədov, Kamil Babayev, Asif Bayramov, Eyvaz Həbiyev, Murad Əmirbəyov,

Rasif Kərimzadə erməni hərbçilərinin vəhşilikləri, qanlı əməlləri barədə ifadələr veriblər.

Zərərçəkmiş digər şəxslər - Rafael Xəlilov, Fuad Musayev, Salman Həsənov, Pünhan Əliyev, Niyad Əliyev, Emin Camalov, Məsim Əskərov, İbadət Yaqublu və Hüseyin Həmidov ifadələrində müxtəlif tarixlərdə Ermənistan silahlı qüvvələrinin təxribatları nəticəsində yaralandıqlarını vurğulayıblar.

Məhkəmə prosesi avqustun 7-də davam etdiriləcək.

***XQ***

# İrəvan separatçıların üzünə qapıları birdəfəlik bağlayıb

(əvvəli 1-ci səhifədə)



Neytral sosioloji mərkəsin keçirdiyi sorğunun nəticələrinə görə, hayların cəmi 4 faizinin inandığı, “siyasi meyitə” çevrilmiş Koçaryanı yenidən hakimiyyətə qaytarmağı planlaşdıran Moskva üçün yerli ictimaiyyətin rəyi bir qəpiklik dəyərə malik deyil. Baxmayaraq ki, nə ictimai, nə siyasi şərtlər Robert Koçaryanın hakimiyyətə qayıtması üçün uyğun deyil.

“Gəlin anlamağa çalışaq ki, bu regionun hansı dövlətləri Ermənistan üçün təhlükə yaradır? Hansı dövlətlər ərazilərimizə iddia edir? Birbaşa təhlükə Türkiyə və Azərbaycandır. Azərbaycan ən yüksək səviyyədə bəyan edir ki, Sevan onlarındır, Yerevan “İrəvandır” və Azərbaycan şəhəridir, Zəngəzur Azərbaycanındır. Növbəti addım Azərbaycan və Türkiyəni cilovlamağa hansı ölkənin qadir olduğunu, potensialını və regionda maraqlarını anlamaqdır. Hansı tərəfdən baxsaq, həmin ölkənin Rusiya olduğunu görərik”.

Koçaryan reallıqdan uzaq, populist iddiasını əsaslandırmağa çalışarkən bölgədə maraqları Rusiya ilə toqquşan qatı ermənipərəst Fransanı da “siyahıdan silir”: “Fransanın burada həyati maraqları yoxdur. Fransa ordusu 200 min nəfərdən ibarətdir, onlardan yalnız 50 mini real döyüşə hazırdır. Hətta onların dediyinə görə, artıq o qədəri də yoxdur. Azərbaycan və Türkiyənin qarşını almağın yeganə yolu Rusiyadır, çünki burada onun maraqları var”. Ermənistanın ikinci prezidenti bunu “Kanal 5”-ə müsahibəsində deyib.

İndi bölgədə yaranmış status-kvonu birbaşa Qarabağda baş verən hadisələrin nəticəsi kimi görən Koçaryan Azərbaycanın bundan daha da cəsarətləndiyini, Avropanı neft və qazla təmin etməkdə müəyyən dərəcədə Rusiyanı əvəz etdiyini vurğulayıb: “Onlar bundan faydalanmağa çalışırlar və daha cəsarətli davranış nümayiş etdirirlər. Bu, gözlənilən idi”.

Vaxtilə sülh danışıqlarında Bakıya yuxarıdan aşağı baxan, ironiya ilə danışan Koçaryan uçuruma apardığı Hayastanın mövcud durumuna heç təəccüblənməməlidir. Çünki hazırki reallıq onun, eləcə də özündən əvvəlki və sonrakı iqtidarların kənardakı “böyük qardaşı”na güvənərək yeritdikləri kökündən yalnış siyasətin nəticəsidir. Onlar gec-tez bu acı sonluqla üzləşməli idilər.

Müsahibəsində Paşinyan iqtidarını yarıtmaz idarəçilikdə, Rusiyadan üz çevirməkdə, “siyasi səbatsızlıqda” suçlayan Koçaryan prezidentliyi dövründə bir sıra cinayətlərə “imza atıb”. O və Armen Gevorqyana qarşı külli miqdarda (təxminən 3 milyon dollar) rüşvət alınması üzrə ittiham irəli sürülüb. Sıravi ermənilərə gəlincə, Koçaryan onların nəzərində hakimiyyətə qayıdışı istənilməyən acı keçmişin simvoludur. Ermənistanın 44 günlük müharibədə məğlubiyyətindən sonra, 2021-ci ilin iyununda keçirilən parlament seçkilərində ölkə vətəndaşlarının etimadını qazana bilməməsinin əsas səbəbi “Qarabağ klanı”nın hayların gözündən düşməsi idi. Yəni hərbi-siyasi fiasko fonunda vətəndaşların isterik və çaşqın hissləri ilə oynayacağına ümid edən, bütün günahları indiki hakimiyyətin üzərinə yıxan Koçaryan və onun komandasına erməni seçicilər “yox” dedilər.

“Kanal 5”-ə müsahibəsində Robert Koçaryan hakimiyyətdə olduğu dövrü “tərəqqi və yüksəliş dövrü” kimi təqdim etməyə çalışır. Fəqət, onun “tərəqqi seriyası”na yaxşı bələd olanlar üçün bu iddia “əyri güzgülər krallığı”na səyahətə bənzəyir. Bütün bunların fonunda Koçaryan bəyan edir ki, “Nikol Paşinyanın və “Mülki müqavilə” partiyasının reytinqi davamlı olaraq zəifləmə tendensiyasındadır”. Bu zaman öz reytinqinin və rəhbərlik etdiyi ittifaqın sabit “enmə trendində” olduğunu qeyd etməyi “unudan” “eks”in istifadə etdiyi rəqəmlər əsl reallığı gizlədir. Həmin illərin statistik məlumatlarına görə, Ermənistanda yoxsulluğun səviyyəsi həqiqətən azalırdı. Amma bu, davamlı iqtisadi artım və ya iqtisadiyyatın şaxələndirilməsi ilə deyil, kütləvi əmək miqrasiyası, xaricdən pul köçürmələri, respublikanın özünün strateji aktivlərini Rusiyaya satması fonunda baş verirdi. Onun dövründə “daşlar ölkəsi” faktiki olaraq, əsas enerji və infrastruktur obyektlərinə nəzarəti itirdi və əhalinin böyük bir hissəsi yoxsulluq içində yaşamağa məcbur oldu.

Ermənistan 25 il bundan əvvəl olduğu kimi, bu gün də sosial-iqtisadi problemlərin girdabındadır. Amma böhrandan çıxış yolu başqa müstəvidə – Azərbaycanla uzunmüddətli sülhün təmin edilməsi və bütün kommunikasiyaların açılması, o cümlədən ticarət, investisiya və iş yerləri üçün yeni imkanlar yaradacaq Zəngəzur dəhlizinin işə salınmasıdır. Sülh müqaviləsinin imzalanması və regional layihələrə inteqrasiya Ermənistanda idtisadi dirçəliş və yoxsulluğun azaldılması üçün real şansdır. Əslində, bu, İrəvanın özünü saldığı geosiyasi dalandan çıxış yoludur. Koçaryan isə məhz bunun əleyhinədir. O, hakimiyyətə gəlmək naminə ölkəsini qarşıdurma və təcrid vəziyyətində saxlamağa da razıdır.

Ermənistan vətəndaşları hər şeyi yaxşı başa düşürlər. Beynəlxalq Respublika İnstitutunun keçirdiyi sosial sorğunun nəticələrinə görə, respondentlərin 47 faizi Azərbaycanla sülh müqaviləsinin imzalanmasına tərəfdarıdır. Bu, sazişin imzalanmasına qarşı olanların sayından çoxdur. Nəticə bir həqiqəti ortaya çıxarıb: Koçaryan, eləcə də “bəlkə də qaytardılar” xəyalı ilə yaşayan digər revanşist-separatçılar sağlam düşüncəni istədikləri qədər ələ sala bilərlər, amma yeni zaman və reallıq öz qaydalarını diktə edir. Bugünkü reallıqda bu siyasi fırıldaqçıların şahmat taxtasında hətta piyada kimi də yerləri yoxdur.

“Qarabağ klanı”nın Ermənistanda hakimiyyətə qayıdışı bu ölkənin geriyə doğru addım atması demək olar. Azərbaycan və Türkiyə ilə düşmənçilik siyasətini davam etdirən Koçaryan və onun rusiyayönlü dəstəkçilərinin böyük siyasətə qayıdışı ona görə real deyil ki, erməni cəmiyyəti artıq onları görüb və çətin ki, bir də böyük siyasətə qayıdışına imkan verər.

Son sosioloji sorğular göstərib ki, Robert Koçaryanı erməni xalqının cəmi 3-4 faizi dəstəklədiyi halda Paşinyanda bu göstərici13-14 faizə bərabərdir. Doğrudur, çox yüksək deyil, amma onu bəyənənlər Koçaryandan 4 dəfə çoxdur. Həm də bu parametrlərə əsaslanaraq deyə bilərik ki, 2026-cı ilin parlament seçkilərində erməni xalqı yeni müharibəyə, talançılığa, “Qarabağ uğrunda döyüşə” çağıran klana səs verməyəcək. Çünki cəmiyyət hakimiyyətin qapısını bu klanın üzünə birdəfəlik bağlayıb

***İmran BƏDİRXANLI***
***XQ***

## Ekspert rəyi



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

– Koçaryanı Ermənistanda və Rusiyada “Kremlin nökəri” kimi tanıyır və qəbul edirlər. Ermənistana rəhbərliyi dövründə nə kimi eybəcərliklər baş veribsə, hamısını Moskva ilə əlbir olub həyata keçiriblər. Xocalı soyqırımından tutmuş Azərbaycan torpaqlarının işğalına kimi məhz onun bəd əməllərinin nəticəsidir. Bu adam birmənalı şəkildə cinayətkardır. Özü də cinayətləri təkcə Azərbaycana və azərbaycanlılara qarşı deyil, həm də Ermənistan dövlətinə və erməni xalqına qarşı həyata keçirib. Parlamentdə güllələnmə hadisəsi, borc müqabilində ölkəsinin, az qala, bütün əmlakının Rusiyaya peşkəş edilməsi, digər cinayətlər onun ayağına yazılıb. O, vaxtilə Moskvanın meri Lujkovla əlbir olub Ermənistandan oğurladığı “çirkli pulları” Rusiyada “yuyub” xüsusi hesablara yerləşdirirdi. Lujkov isə oğurluq pullarını İrəvanda yeni obyektlərin inşasına yönəltməklə leqallaşdırırdı. Hətta Moskvanın merinə hansısa holdinqin idarə hüyətinin üzvü kimi yüksək vəzifə də verilmişdi.

Bütün bunları Ermənistanda çoxları bilir. Şübhə etmirəm ki, Nikol Paşinyanın reytinqi nə qədər aşağı düşsə də, cəmiyyət onun alternativi kimi Koçaryanı görəndə yenə Paşinyana səs verəcək. Amma bu dəfə cinayətkar Koçaryan canını Paşinyanın əlindən qurtara bilməyəcək. Bəli, o da, Sarkisyan da ömürlərini həbsxanada keçirməlidirlər. Barələrində cinayət işlərinin qaldırıldığı Azərbaycanda da onları dustaq aqibəti gözləyir. İnanmaq istərdim ki, Nikol Paşinyan bu seçkilərdən də qalib çıxacaq və bu ikisinə, nəhayət, layiq olduqları yeri göstərəcək. Onların yeri isə dustaqxanadır. Bu həqiqəti Koçaryanın Moskvadakı kuratorları da çox gözəl bilirlər. Onu da anlayırlar ki, Koçaryan Ermənistanda seçkiləri udmağa qadir persona deyil. İndi alternativ axtarırlar ki, Robert Koçaryan da onun kölgəsində əvvəlki çirkli əməllərini davam etdirsin.

## Ekspert rəyi



**Züriyə QARAYEVA,**
**siyasi şərhçi**

– Rusiya Ermənistana təsir rıçaqlarını bərpa etmək üçün Robert Koçaryan və onun simasında “Qarabağ klanı” üzərindən hərəkətə keçib. Bu, Moskvanın Paşinyan hökumətinə etimad etmədiyini və onu dəyişdirmək niyyətində olduğunu göstərir. Koçaryanın son müsahibəsində səsləndirdiyi “Ermənistanın yeganə güvənəcəyi güc Rusiyadır” və “sülh müqaviləsinə təminatı yalnız Rusiya verə bilər” fikirləri, əslində, Kremlin mövqeyinin açıq ifadəsidir. Rusiya bu yanaşma ilə bir neçə məqsədi hədəfləyir. Birincisi, Ermənistanın Qərbə doğru istiqamətlənməsinin qarşısını almaq və onu yenidən öz orbitinə qaytarmaq. İkincisi, Cənubi Qafqazda regional sabitlik və təhlükəsizlik mexanizmlərində yeganə təsirli güc kimi qalmaq üçün sülh prosesinin əsas təminatçısı rolunu ələ keçirmək. Üçüncüsü isə hakimiyyətə alternativ yaradır: Bunun Koçaryan olması həm Rusiyanın keçmişdə formalaşdırdığı hay elitası ilə işləmək təcrübəsindən, həm də Moskvaya sadiq fiqur olmasından qaynaqlanır.

İntəhası, bu planın zəif tərəfləri də var. Ermənistan cəmiyyətində Koçaryan və “Qarabağ klanı” ilə bağlı ciddi narazılıq mövcuddur. Xüsusilə gənc nəsil, müstəqil və Qərb yönümlü siyasi dairələr bu fiqurları keçmişin korrupsioner və avtoritar simaları kimi görür. Paşinyanın zəif nöqtələri olsa da, Koçaryanla müqayisədə legitimliyi yüksək lider olaraq qalır. Moskvanın bu “kartı” masaya daşıması Ermənistanda sabitliyi pozmaqla yanaşı, Rusiyanın təsir dairəsini riskə atacaq.

Eyni zamanda, bu proses Ermənistan–Azərbaycan sülh danışıqlarına birbaşa təsir göstərə bilər. Paşinyanın sülh müqaviləsinə imza atacağı daha real görünürsə, Koçaryan üçün bu, həm siyasi xətt, həm də ritorika baxımından daha çətindir. Sülhə əlavə şərtlər, Rusiya vasitəçiliyinə təkid və digər gərginlik xətləri yarana bilər. Nəticədə, bu, təkcə Ermənistanın daxili siyasətinə deyil, bütün regionun sabitliyinə təsir edəcək potensial təhlükə mənbəyinə çevrilər. Rusiya Koçaryan “kartından” istifadə etməklə Ermənistana mesaj verir: Ya mövcud hökumət Moskva xəttinə qayıdır, ya da alternativ siyasi qüvvələr vasitəsilə daxili dəyişiklik planlaşdırılır. Bu isə Cənubi Qafqazda yeni geosiyasi qarşıdurma mərhələsinin başlayacağından xəbər verir.

# Aşotyanın “Minsk qrupu” xülyası

(əvvəli 1-ci səhifədə)



A.Aşotyan bildirib ki, Lavrovun “proqram xarakterli” məqaləsi ilə bağlı qeydləri təşkilatın fəaliyyətinin ümumi qiymətləndirilməsindən daha çox keçmiş Qarabağ münaqişəsinin həlli kontekstində Minsk qrupunun təmsil etdiyi ATƏT-in regional ölçüsünə aiddir. Aşotyan deyib ki, onun qiymətləndirməsi zahirən təmkinli görünməsinə baxmayaraq, məyusluqdan başqa bir şey kimi qəbul edilə bilməz: “Lavrovun məqaləsində əksini tapan məqamlar ikili standartların nümunəsi, “əlləri yumaq” və məsuliyyəti boynundan atmaq cəhdidir”. Onun sözlərinə görə, Minsk qrupunun fəaliyyətini səmərəsizlik kimi qiymətləndirən, ATƏT-in Qarabağda da uğursuzluğa düçar olduğunu, qrupun münaqişə tərəfləri arasında dialoqa şərait yarada bilmədiyini vurğulayan Lavrov əvvəlki bənddə Dnestryanı münaqişənin həll olunmamış xarakterinə baxmayaraq, bu cür qəti bəyanatlardan yayınır, “5+2” formatında həll variantının seçilməsindən təəssüflənir”.

S.Lavrovun sərhədlərin toxunulmazlığı prinsipinə dəfələrlə istinad etməsi A.Aşotyanı lap özündən çıxarıb: “Bu prinsipə dəfələrlə istinadlar xalqların öz müqəddəratını təyinetmə hüququ haqqında nümayişkaranə sükutla müşayiət olunur. Xatırladım ki, xalqların öz müqəddəratını təyinetmə hüququ həmin Helsinki Yekun Aktında təsbit olunmuş on prinsipdən biridir. Xüsusilə də Rusiya rəsmilərinin, o cümlədən nazir Lavrovun Ukrayna münaqişəsi kontekstində öz müqəddəratını təyinetmə prinsipinə tez-tez istinad etdiyini nəzərə alsaq, belə birtərəfli şərh çaşdırıcıdır. Xatırladım ki, Qarabağ münaqişəsinin həllinin ATƏT-in Minsk qrupu tərəfindən hazırlanmış fundamental elementləri digər iki prinsiplə yanaşı, məhz bu prinsip üzərində qurulmuşdu”.

A.Aşotyanın fikrincə, Minsk qrupu səmərəsiz idisə, xatırlatmaq lazımdır ki, bu doqquz dövlətli struktur öz əsas funksiyalarını üç həmsədr dövlətə həvalə etmişdi. Onların arasında Rusiya Federasiyası aparıcı rol oynayıb. Üstəlik, nazir özü də münaqişənin ədalətli həlli üçün dəfələrlə çoxtərəfli və ikitərəfli görüşlərdə iştirak edib.

Erməni siyasətçi həyasızcasına iddia edib ki, Minsk qrupunun təkliflərinin bir çoxunun “Azərbaycanın destruktiv mövqeyi” (?) nəticəsində iflasa uğradığı heç kəsə sirr deyil. Guya, buna cavab olaraq həmsədrlər, o cümlədən Rusiya Bakını açıq şəkildə tənqid etməkdən və ya təsirli təzyiq göstərməkdən çəkiniblər, bu isə münaqişənin uzanmasına, qrupun nüfuzuna xələl gəlməsinə və Azərbaycanın mövqeyinin güclənməsinə səbəb olub. Sonra isə Aşotyan “səmimiyyətdən” dəm vurub: “Səmimi etiraf etmək lazımdır ki, 2020-ci il 10 noyabr tarixli bəyanatın imzalanmasından sonra regionda sülhün qorunması üzrə əsas təşəbbüs Rusiya Federasiyasına keçib. Bəli, Minsk qrupu de-yure “xüsusi hərbi əməliyyat” (Rusiya–Ukrayna müharibəsi nəzərdə tutulur–S.H.) başlayana qədər fəaliyyətini davam etdirdi, bu, onun ictimai bəyanatları ilə də təsdiqlənir, amma praktikada – siyasi, humanitar və hərbi aspektlərdə regionun taleyi, əslində, Moskvanın əlində idi. Bu öhdəliklər ləğv edilməyib”.

Eyni zamanda, Aşotyan bildirib ki, münaqişənin həll edilmiş kimi tanınması Bakının versiyasını qəbul etmək, “beynəlxalq hüququn pozulmasını və etnik təmizləmə faktını” (?) legitimləşdirmək deməkdir: “Rusiyanın Ermənistan rəhbərliyinə qarşı əvvəllər səsləndirdiyi tənqidi fikirlərə tam şərik olsam da, Paşinyanın Qarabağı Azərbaycanın bir hissəsi kimi tanımasından sonra belə beynəlxalq strukturların və Minsk qrupunun “deportasiya olunmuş” (?) ermənilərin taleyi, onların geri qayıtmaq hüququ, mədəni irsinin qorunması və gələcək təhlükəsizliyi üçün məsuliyyətdən azad edilməməsi faktını nəzərdən qaçıra bilmərəm. Təəssüf ki, nə bu məqalə, nə də Rusiya Xarici İşlər Nazirliyinin rəhbərinin digər publik bəyanatları həm beynəlxalq institutlara, həm də Rusiya sülhməramlı missiyasına güvənən çarəsiz təbəqənin hüquqlarını müdafiə etmək istəyini göstərmir”.

*

Təbii ki, Aşotyanın fikirləri, əslində, keçmişdə qalmış formata ümid bəsləyən, reallıqdan uzaq və məqsədyönlü şəkildə təhrif edilmiş siyasi mövqenin bariz nümunəsidir. Onun Minsk qrupunun səmərəsiz olduğunu qəbul etmək istəməməsi, bu formatın iflasının məsuliyyətini Azərbaycanın üzərinə qoymağa çalışması və hətta Rusiya kimi keçmiş həmsədr dövləti dolayısı ilə fəaliyyətsizlikdə ittiham etməsi açıq-aşkar qeyri-ciddilikdir. Ermənistanın illərlə sülh prosesindən yayınmaq üçün Minsk qrupunun imkanlarından və mandatından sui-istifadə etməsi bu qurumun nəticə verə bilməyən bir struktur halına gəlməsinin başlıca səbəblərindən biridir. Lavrovun da etiraf etdiyi kimi, bu format dialoqa şərait yarada bilmədi, əksinə, siyasi status-kvonu qorumağa xidmət edən vasitəyə çevrildi.

Onun irəli sürdüyü ittihamlar, xüsusilə “ikili standartlar”, “məsuliyyəti boynundan atmaq” və “tərəfkeşlik” kimi məfhumlar, əslində, Aşotyanın özünün siyasi keçmişinə və Ermənistanın uzun illər regionda yürütdüyü destruktiv siyasətə daha çox yaraşır. Çünki məhz Ermənistan hakimiyyətləri, o cümlədən Aşotyanın təmsil olunduğu Respublika Partiyası (bu siyasi partiyanın rəhbəri ölkənin sabiq prezidenti Serj Sarkisyandır–S.H.) illərlə danışıqları imitasiya edib, status-kvonun saxlanmasına xidmət edən mövqe tutaraq sülhə real imkan tanımayıb. İndi isə həmin şəxslər, sanki, heç bir məsuliyyət daşımayıblarmış kimi, başqalarını ittiham etməyə çalışırlar. Bu, nəinki siyasi ikiüzlülük, həm də tarixə və beynəlxalq ictimaiyyətə qarşı sayğısız münasibətin təzahürüdür.

Gerçəklik isə odur ki, Lavrovun mövqeyi Minsk qrupunun bitmiş bir mərhələnin elementi olduğunu təsdiqləyir, Aşotyan isə hələ də özünü o dövrün illüziyalarında tapmağa çalışır. Lakin bu yanaşma nə Ermənistanın regionda mövqelərini gücləndirə, nə də sülh prosesinə real töhfə verə bilər. Özünü siyasi məhbus adlandıran, lakin hər çıxışında revanşizm və ictimai rəyi aldatma yolunu tutan bir fiqurun Moskvanın siyasətinə qarşı səsləndirdiyi iddialar əslində Kremlin Cənubi Qafqazla bağlı dəyişən prioritetlərinə qarşı əngəl yaratmaq cəhdidir. Halbuki Ermənistan rəhbərliyi də daxil olmaqla, regional oyunçular çox yaxşı bilirlər ki, Minsk qrupunun missiyası artıq tarixin zibilliyinə gedib.

Onun xalqların öz müqəddəratını təyinetmə hüququ ilə bağlı fikirləri həm hüquqi, həm siyasi baxımdan yanlış interpretasiyanın göstəricisidir. Helsinki Yekun Aktında bu prinsip ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipləri ilə birgə təqdim olunur və heç biri digərindən üstün tutulmur. Aşotyan isə bu tarazlığı pozmağa çalışaraq, Qarabağda separatçılığı leqallaşdırmağa xidmət edən köhnəlmiş arqumentləri gündəmə gətirir. Belə bir ritorika təkcə beynəlxalq hüquqa deyil, eyni zamanda, Ermənistanın 2020-ci ildən sonra dəyişən mövqeyinə, eləcə də Paşinyanın verdiyi sülh mesajlarına da ziddir. Onun fikirlərindən aydın görünür ki, əsas məqsəd vəziyyəti yenidən qeyri-müəyyənlik bataqlığına sürükləmək, köhnə münaqişə alətlərini gündəmdə saxlamaq və bundan siyasi dividendlər qazanmaqdır.

Aşotyanın ritorikası bir tərəfdən sülh prosesinə zərbə vurur, digər tərəfdən isə Ermənistan daxilindəki revanşist dairələri təhrik edir. Əslində, bu cür çıxışlar hayların öz gələcəkləri üçün ən böyük təhlükə mənbəyidir. Çünki Armen kimilər keçmişin iflasa uğramış layihələrini canlandırmağa çalışdıqca, Ermənistan Cənubi Qafqazın yeni reallıqları ilə barışmaq imkanını daha da itirir.

***Səxavət HƏMİD***
***XQ***

## Ekspert rəyi



**Ramiyə MƏMMƏDOVA,**
**politoloq**

– ATƏT-in Minsk qrupu artıq keçmişdə qalmış, real siyasi çəkisini və funksional imkanlarını itirmiş bir formatdır. Bu gün regionda sülh və sabitlik çağırışları konkret addımlar və yeni geosiyasi reallıqlar əsasında formalaşır. İllərlə nəticəsiz qalan vasitəçilik prosesi, əslində, münaqişənin uzanmasına səbəb olub, sülh perspektivlərini ləngidib. Regionda baş verən son proseslər bir daha göstərdi ki, sülh təşəbbüsləri yalnız qarşılıqlı anlaşma və açıq dialoqla irəliləyə bilər. Belə bir məqamda köhnə formatları diriltmək cəhdləri, əslində, prosesə deyil, keçmişə xidmət edir. Bu cəhdlərin arxasında dayananlardan biri də Armen Aşotyan kimi fiqurlardır. Onun Lavrovun məqaləsinə münasibəti, əslində, köhnə siyasi düşüncənin indiki reallıqlara uyğunlaşa bilmədiyini göstərir. Aşotyanın ritorikası mövcud regional düzəni qəbul etməyən bir zehniyyətin məhsuludur və bu yanaşma nə Ermənistanın, nə də regionun gələcəyi üçün faydalıdır. Aşotyan kimilər günahkar axtarmaqla deyil, üzərlərinə düşən məsuliyyəti dərk etməklə məşğul olmalıdırlar.

*22 il əvvəl avqustun bu günlərində...*

# Siyasi varisliyə gedən yolun başlanğıcı

## *O zaman dünya Azərbaycanın yeni Baş nazirindən danışırdı*

**...Mən həmin gün – 3-4 ilin söhbətidir – televiziya aparıcısı olan həmkarımızın aydın təfəkkürünə, ülgüc kimi kəsərli məntiqinə şahidlik edəndə məmnun olmuşdum. Söhbət bu tarixi hadisənin – Türk dünyasının ən nüfuzlu liderlərindən olan Prezident Heydər Əliyevin ölkəyə yeni Baş nazir təyin edilməsi haqqında 4 avqust 2003-cü il tarixli fərmanının ildönümü münasibətilə Azərbaycan Televiziyasında aparılan dialoqdan gedir. Verilişin qonağı olan siyasətçi – deputat isə demişdi ki, xalqımıza möhtəşəm uğurlar silsiləsi yaşadan İlham Əliyev prezidentlikdən əvvəl özünü Baş nazir vəzifəsində də sınamışdı. Aparıcı həmin andaca deputatın məntiqinə düzəliş edərək demişdi ki, İlham Əliyev həmin müddətdə özünü sınamamışdı, böyük dövlət xadimi Heydər Əliyevin etimadını doğrultmuş, xalqın inamını qazanmışdı.**



**İndi artıq aydındır ki, mövcud BMT mexanizmləri zamanın tələbinə cavab vermir, bununla bağlı Birləşmiş Millətlər Təşkilatında islahat vacib məsələyə çevrilmişdir. Təhlükəsizlik Şurasının da islahatına ehtiyac vardır, orada da həm bu günün reallıqları, həm də yarıməsrlik reallıqlar öz əksini tapmalıdır!**

**Azərbaycan Respublikasının Baş naziri İlham Əliyevin BMT Baş Assambleyasının 58-ci sessiyasındakı çıxışından**

**25 sentyabr, 2003-cü il.**

Fikrimcə, olduqca dəyərli və yerində səsləndirilən düzəliş idi. Çünki cənab İlham Əliyev dəfələrlə xatırladıb ki, biz kiməsə nümunə göstərilmək, kiminsə xoşuna gəlmək, hansısa sınaq keçirmək və ya eksperiment aparmaq üçün deyil, birbaşa xalqın maraqlarını təmin etmək, dövlətin mənafeyini qorumaq üçün fəaliyyət göstəririk və buna naiul oluruq. Bəli, həmin tarixi fərmanın icrası zamanı da belə olmuşdu. Xatırladaq ki, 2003-cü il avqustun 4-də İlham Əliyev Azərbaycan Respublikasının Baş naziri təyin olunmuş, bu vəzifədə az müddət ərzində işləsə də, qəbul etdiyi qərarlarla, həyata keçirməyə başladığı işlərlə ölkəyə rəhbərlik etmək bacarığına və səriştəsinə malik olduğunu bir daha sübut etdi. Elə ona görə də, həmin ilin prezident seçkilərində ulu öndər Heydər Əliyev xalqa müraciətində seçkilərdə onun siyasi varisi olan İlham Əliyevi dəstəkləməyə çağırmışdı.

Bu həmin İlham Əliyevdir ki, Baş nazir təyin edildiyi gündən az qala Prezident seçildiyi tarixədək (ondan sonra dövlət başçılarının təbrik məktubları gəlirdi) dünyanın müxtəlif siyasi mərkəzlərindən onun ünvanına təbrik məktubları gəlirdi. Dünya siyasətçiləri İlham Əliyevin yeni vəzifə tutmasını ona görə alqışlayırdılar ki, ortada on il icra edilərək dünyanın əsas siyasi qütbləri tərəfindən qəbul edilmiş Heydər Əliyev idarəçilik strategiyası var idi və həm ulu öndərin özü İlham Əliyevi siyasi varis adlandırırdı, həm də İlham Əliyev həmin siyasi kursun davamçısı olduğunu dilə gətirirdi. Dünyaya da elə sülhsevər siyasət aparan, xalqı SSRİ buxovlarından tam azad etmək üçün hərtərəfli islahatlar həyata keçirilməsini bacaran siyasi liderlər lazım idi.

Məmnunluqla xatırlada bilərik ki, Prezident İlham Əliyevin təkcə Baş nazir və dövlət başçısı olduğu dövrlərdə deyil, Baş nazirlikdən əvvəlki vəzifələrdə də – xüsusən, Azərbaycan Milli Məclisinin AŞPA-dakı daimi nümayəndəliyinin rəhbəri olaraq nümayiş etdirdiyi prinsipiallıq və qətiyyət ona təkcə ölkəmizdə və AŞPA çərçivəsində deyil, dünyanın hər yerində özünəməxsus nüfuz qazandırmışdı. Elə ona görə də dünyanın bir sıra dövlət və siyasət adamları, elm və mədəniyyət xadimləri, görkəmli şəxsiyyətlər daim İlham Əliyevin fəaliyyətinə yüksək qiymət veriblər. Azərbaycanın yeni tipli lideri haqqında deyilən– mətbuatdan seçilmiş təqdiredici fikirlərə diqqət yetirək: "Enerjili, təşəbbüskar, uzaqgörən, çox savadlı və müdrik insan" (Lütfi Zadə), "Bütün Türk dünyasının rəğbətlə qəbul etdiyi güvənli lider, siyasət aləminin yeni məfkurəli dövlət xadimi" (Akkan Suver), "Zəmanəmizin ən uğurlu liderlərindən biri" (Salome Zurabişvili), "Ölkəsinin maraqları naminə müdrik və uzaqgörən siyasət həyata keçirən lider" (Mixail Urqumov), "Müstəqil düşünən, olduqca savadlı, fiziki və mənəvi cəhətdən sağlam olan müstəqil və dünya miqyaslı dövlət xadimi" (Dmitri Kiselyov), "Regional və iqtisadi siyasət meydanında öz xalqına başçılıq edərək ölkəsini regionun ən sabit bölgəsinə çevirən rəhbər, nümunə olan bir lider" (Teresa Marqolis). Şəxsən mən bu fikirlərin hamısı ilə razıyam.

Bütün bunlarla yanaşı o da xüsusilə vurğulanmışdı ki, İlham Əliyevin respublikamızın Baş naziri təyin edilməsi ölkə ictimaiyyəti tərəfindən də böyük rəğbətlə qarşılanmışdı. Çünki İlham Əliyev bu təyinata qədər çalışdığı bütün vəzifələrdə mükəmməl fəaliyyət nümunəsi ortaya qoymuş, məsul olduğu hər bir sahədə mühüm uğurlara imza atmışdı.

Prezident Kitabxanasının elektron resurslarında oxuyuruq ki, 2003-cü il avqustun 4-də Milli Məclisin növbədənkənar sessiyasının iclasında cənab İlham Əliyevin Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin olunmasına razılıq verilməsi məsələsinə baxılmışdı. Təbii ki, Prezident Heydər Əliyevin bununla bağlı Milli Məclisə müraciəti respublikamızın müstəqillik və bütövlükdə dövlətçilik tarixinin mühüm bir hadisəsi idi. Yəni ulu öndərin özü qədər inandığı gənc siyasətçi və diplomat İlham Əliyevin respublikanın Baş naziri vəzifəsinə təyin olunmasına razılığın verilməsi barədə parlamentə ünvanladığı təqdimatın əsas qayəsini dövlətimizin və xalqımızın milli maraqlarının təmin olunması, qorunması təşkil edirdi.

Milli Məclisə həmin təqdimat göndərilənə qədər həm parlamentdə, həm də ölkədə hamı yaxşı bilirdi ki, İlham Əliyev bu təyinata qədər Milli Məclisin deputatı, Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyası sədrinin müavini kimi Heydər Əliyevin inkişaf kursunun, siyasi xəttinin həyata keçirilməsində fəal iştirak etmiş, ulu öndərin müəyyən etdiyi milli prioritetlərin reallaşmasına özünün dəyərli töhfələrini vermişdi.

Hamının yüksək intellektə və mənəvi keyfiyyətlərə malik cəsarətli siyasətçi kimi tanıdığı namizədin müzakirəsi getdiyi parlament iclasının özünəməxsus fəallıq və yüksək atmosferdə keçməsi də təbii idi. Həmin günlərin mətbuatında oxuyuruq ki, çıxış edən bütün deputatlar möhtərəm İlham Əliyevin barəsində çox dəyərli fikirlər söylədilər. Nəticədə xalqın arzularının ifadəsinə çevrilən tarixi qərar qəbul edilmişdi.

Bəzi çıxışlarda qeyd edilirdi ki, İlham Əliyevin Baş nazir vəzifəsinə təyin edilməsinə razılıq verilməsi ilə bağlı ulu öndər Heydər Əliyevin parlamentə müraciəti həm də dövlətçiliyimizin daha da qüdrətlənməsini, Azərbaycanın inkişafını, vətəndaşların yüksək sosial rifahını düşünən insanların arzularının bariz ifadəsi idi. Parlamentin həmin növbədənkənar sessiyasının iclasında çıxış edənlər də məhz bu arzuları dilə gətirdilər, seçicilərinin düşüncələrini, baxışlarını Milli Məclisdə səsləndirdilər.

Daha maraqlı olan məqamlardan biri də odur ki, Milli Məclisin 4 avqust 2003-cü il tarixli iclasında həm YAP üzvü olan, həm də müstəqil şəkildə seçilən deputatlar söz demək istəyirdilər. Ona görə də, söz demək imkanı olan natiqlərin hamısı parlamentin mütləq əksəriyyətinin demək istədiklərini söylədilər. Deputatların yekdil fikri bundan ibarət oldu ki, cənab İlham Əliyev həm şəxsi keyfiyyətlərinə, həm də keçdiyi həyat yoluna görə Baş nazir olmağa kifayət qədər hazır olan bir dövlət adamıdır və ona görə Prezident Heydər Əliyev çox müdrik bir qərar qəbul edərək, İlham Əliyevi Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə tövsiyə edibdir.

Onu da xatırladaq ki, İlham Əliyevin ölkənin Baş naziri təyin olunduqdan təxminən əlli iki gün sonra – 2003-cü il sentyabrın 25-də BMT Baş Məclisinin 58-ci sessiyasındakı çıxışı dünya siyasi gündəminin əsas hadisələrindən biri olmuşdu. Belə ki, gənc müstəqil Azərbaycanın yeni Baş naziri ilk dəfə bu mötəbər tribunadakı çıxışında İraqda baş verən terror hadisələri fonunda BMT-nin fəaliyyətindəki çatışmazlıqlara diqqət çəkmiş, bu qurumda islahatların zəruriliyini böyük cəsarətlə bəyan etmişdi. Üstəlik, Azərbaycanın da terrora məruz qaldığını, amma ölkəmizin illərdir ki, terrorizmə qarşı təkbaşına savaşdığını deyən İlham Əliyev onu da bildirmişdi ki, terrorizmi törədən səbəblərin, eləcə də onun yayılması üçün münbit şərait yaradan amillərin kökü kəsilməsə, terrorizmə qarşı mübarizədə uğur heç vaxt mümkün olmayacaqdır.

Daha maraqlı məqamlardan biri də odur ki, Azərbaycanın hökumət başçısının BMT tribunasından bəyan etdiyi həmin arqument kimi, ölkəmizdə terrorizmin kökünün kəsilməsi də bir neçə gün fərqlə sentyabra təsadüf etdi. Mən bir ahıl jurnalist kimi məmnunam ki, o zaman Baş nazir olan İlham Əliyev 22 il əvvəl BMT tribunasından dediyi "terrorizmi törədən səbəblərin kökünün kəsilməsi zərurəti" barədə çağırışlar 2023-cü ilin sentyabrında – 23 saatlıq antiterror əməliyyatı nəticəsində günün reallığına çevrimişdir. Yəni o, Baş nazir olarkən dediklərini Prezident kimi günün reallığına çevrilmişdir.

"Dəmir yumruğun" qüdrətli, zəfərlərin uğurlu olsun, Azərbaycan!

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

---

*5 Avqust Azərbaycan Respublikasının Hərbi Donanması Günüdür*

# Dəniz sərhədlərimizin etibarlı sipəri

**(əvvəli 1-ci səhifədə)**

Azərbaycan Hərbi Dəniz Qüvvələri özünəməxsus şanlı bir yol keçib. Tarixə nəzər saldıqda görürük ki, 106 il bundan



əvvəl, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycanın hərbi dəniz donanması böyük çətinliklərlə yaradılıb. 1919-cu ilin yayında ingilislər Bakını tərk edərkən şəhər limanının idarəçiliyini və hərbi gəmilərin bir hissəsini Azərbaycan hökumətinə təhvil veriblər. Həmin gəmilərin əsasında Azərbaycan Xəzər Hərbi Dəniz Donanması təşkil olunub. Azərbaycan hökumətinin bu tədbiri yeni qurulmuş müstəqil Azərbaycanın dəniz sərhədlərinin qorunmasında mühüm addım oldu,

**Bu barədə XQ-yə açıqlama verən Silahlı Qüvvələrin Hərbi Akademiyasının Adyunktura və elm şöbəsinin hərb tarixi üzrə dosenti, tarix elmləri doktoru, polkovnik Mehman Süleymanov** bildirdi ki, Azərbaycan Hərbi Dəniz Qüvvələrinin yaranması öz tarixini Azərbaycan Xalq Cümhuriyyəti dövründən götürür: "Məlumdur ki, Birinci Dünya müharibəsinin nəticələrinə görə Azərbaycan ittifaq dövlətlərinin nəzarəti altına düşmüşdü. 1918-ci il noyabt ayının 17-də bu dövlətlər adından ingilis hərbi qüvvələri Azərbaycana daxil oldular və cümhuriyyət daxilində öz qaydalarını həyata keçirməyə başladılar. Başlıcası isə onlar Bakı şəhərini milli hərbi qüvvələrdən təmizləmək yolunu tutdular. Bu mənada onlar tələb etdilər ki, milli hərbi qüvvələrə rəhbərlik edən Hərbi Nazirlik Bakı şəhərini tərk etsin və Gəncədə yerləşsin. Eyni zamanda, Xəzər dənizində milli qüvvələrin hərbi fəaliyyəti məhdudlaşdırıldı. İngilislərin tələbi ilə Çar Rusiyasından Azər-



baycana miras qalmış "Qars", "Ərdəhan" kimi mina gəmiləri, "Astrabad", "Nargin" və digər bir neçə köməkçi gəmi əvvəlcə Denikin qoşunlarının nəzarəti altına keçdi. Lakin Azərbaycan hökumətinin tələbi ilə ingilislər sonradan bu gəmiləri Azərbaycana təhvil verdilər. Bu hadisə 1919-cu il avqust ayını 5-də baş verdi. Həmin gəmilər Azərbaycan Xalq Cümhuriyyətinin hərbi dəniz donanmasının əsasını təşkil etdilər. Çox təəssüf ki, AXC-nin ömrü uzun sürmədiyindən Hərbi Dəniz Donanmasını inkişaf etdirmək mümkün olmadı. Amma Azərbaycan hökuməti anlayırdı ki, dəniz dövləti kimi ölkənin müstəqilliyinin qorunmasında və möhkəmləndirilməsində Hərbi Dəniz Qüvvələrinin xüsusi yeri var".

SSRİ dövründə bu sahədə vəziyyətə diqqəti çəkən M.Süleymanov qeyd etdi ki, sovet hakimiyyəti illərində Bakıda Xəzər Ali hərbi Dənizçilik Məktəbi var idi və xeyli sayda azərbaycanlı həmin məktəbi bitirərək hərbi dənizçi ixtisasına yiyələnirdilər: "Məhz həmin kadrlar müstəqilliyin bərpasından sonra formalaşdırılmağa başlanılan Hərbi Dəniz Qüvvələrinin kadr bazasını təşkil etdi. 1992-ci il iyul ayının 26-da "Bakılı" gözətçi gəmisində Azərbaycan Respublikasının dövlət bayrağı qaldırıldı və bununla da keçmiş Xəzər donanmasının əmlakının bölüşdürülməsinə başladı.

Hazırda Azərbaycanın Hərbi Dəniz Qüvvələri Prezident İlham Əliyevin Azərbaycan Ordusunun strateji inkişafı ilə bağlı müəyyənləşdirdiyi siyasətin uğurla həyata keçirilməsi üçün dünyanın inkişaf etmiş ölkələrinin hərbi dəniz qüvvələri ilə davamlı əlaqələr qurur, həmin ölkələrin qabaqcıl təcrübəsini öyrənir və öz döyüş qabiliyyətini daha da təkmilləşdirir".

Onu da qeyd etməliyik ki, bu sahədə peşəkar milli kadrların müstəqil Azərbaycana gətirilməsində ümummilli lider Heydər Əliyevin böyük xidmətləri olub. Ulu öndərin müdrik rəhbərliyi sayəsində ölkəmizdə, ümumiyyətlə, ordu quruculuğu sahəsində mühüm işlər görülmüş, zəruri tədbirlər həyata keçirilmişdir.

İndi Azərbaycan Hərbi Dəniz Qüvvələrinin kadr təminatını Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi (AAHDM) həyata keçirir. Dənizçi zabitlərin ixtisaslarının artırılması məqsədi ilə AAHDM-nin nəzdində xüsusi kurslar fəaliyyət göstərir. Azərbaycanın Hərbi Donanması 2000-ci ildən geniş hərbi təlimlərdə iştirak edir. Bu təlimlər hərbçilərimizin peşəkarlığını artırmaqla yanaşı, donanmanın gücünü bütün dünyaya nümayiş etdirir. Azərbaycanın hərbi donanması ən müasir hərbi texnika ilə təchiz edilib. Bu gün Xəzər dənizində ən qüdrətli donanmalardan biri sayılan Azərbaycan Hərbi Dəniz Qüvvələrinin maddi-texniki bazası gündən-günə möhkəmlənir.

***İ.HƏSƏNQALA***
***XQ***

---

# Diaspor gənclərimiz azad Xankəndidə



**Dünyanın müxtəlif yerlərində yaşayan və ölkəmizi layiqincə təmsil edən soydaşlarımız, həmçinin Azərbaycana dost münasibəti bəsləyən xalqların nümayəndələri Diaspor Gənclərinin VI Yay Düşərgəsi çərçivəsində azad Qarabağda toplaşıblar. Avqustun 4-də Xankəndidə yay düşərgəsinin açılış mərasimi keçirilib.**

Məclisdə çıxış edən Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov bildirib ki, 2023-cü ildə Azərbaycan ordusunun həyata keçirdiyi lokal xarakterli antiterror əməliyyatlarından sonra Xankəndi şəhəri və ətraf yaşayış məntəqələri düşmən işğalından azad edilib.

İşğaldan sonra Azərbaycan dövləti tərəfindən bu ərazilərdə genişmiqyaslı tikinti-bərpa işlərinə başlanıb. Görülən işlər nəticəsində hazırda Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonlarının ərazisində 15 minə yaxın əhali yaşayır. Siyahıya doğma ata-baba torpaqlarına qayıdan keçmiş məcburi köçkünlər, bu ərazilərdə fəaliyyət göstərən dövlət və özəl qurumlarda çalışanlar və onların ailə üzvləri, Qarabağ Universitetinin pedoqoji və tələbə kollektivi daxildir.

Xüsusi nümayəndə, onu da qeyd edib ki, hazırda Ağdərə rayonunun Suqovuşan, Həsənriz və Talış kəndlərinə, eləcə də Xocalı şəhəri və rayonun Ballıca, Təzəbinə, Xanyurdu kəndlərinə keçmiş məcburi köçkünlərin bir qisminin qayıdışı təmin edilib, bu yaşayış məntəqələrinə həyat yenidən qayıdıb. İşlər köç planına uyğun olaraq mərhələli şəkildə icra edilməkdədir.

Bundan başqa, 2025-ci il ərzində ümumilikdə 18 yaşayış məntəqəsinə, o cümlədən Xocalı rayonunun 11 (Ballıca, Xanyurdu, Təzəbinə, Daşbulaq, Badara, Seyidbəyli, Xanabad, Şuşakənd, Almalı, Mehdibəyli və Çanaqçı), Ağdərə rayonunun isə 7 kəndinə (Həsənriz, Vəngli, Kolatağ, Çıldıran, Heyvalı, Çapar və Aşağı Oratağ) əhalinin köçü ilə bağlı təmir-bərpa işləri aparılır. Nəticədə, qeyd olunan kəndlər üzrə 6 min 400-ə yaxın keçmiş məcburi köçkünün məskunlaşması təmin edilib. Hazırda növbəti illər üçün bu və digər yaşayış məntəqələri üzrə köç planın tərtib olunması və bununla bağlı aidiyyatı istiqamətlərdə müvafiq işlər aparılır.

Mərasimdə digər çıxış edənlər bildiriblər ki, Diasporla İş üzrə Dövlət Komitəsi və Heydər Əliyev Fondunun birgə təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş Diaspor Gənclərinin VI Yay Düşərgəsi avqustun 9-dək davam edəcək. Qeyd edək ki, tədbirə dünyanın 61 ölkəsindən 128 azərbaycanlı və Azərbaycana dost münasibəti bəsləyən xalqların gəncləri qatılıblar.

***Mahir Rəsuloğlu,***
***"XQ"nin Qarabağ müxbiri***

**Xankəndi**

# Dövlətçilik uğrunda savaş yeni mərhələdə



II MƏQALƏ

## Azərbaycanşünaslığın strateji anlamı

Biz dövlətçilik uğrunda savaşın (və ya mübarizənin) yeni mərhələsində Prezident İlham Əliyevin informasiya, ideologiya və bütövlükdə elm faktorlarına daha çox üstünlük verməsinin dövlətçilik ənənəsi işığında başqa bir aspektini vurğulamaq istərdik. Bunun fonunda AMEA-nın nəyə görə yeniləşmə kursunda ölkənin strateji inkişaf konsepsiyası çərçivəsində inkişaf strategiyasında Azərbaycanşünaslığın birinci yeri tutduğunu da dərk etmiş olarıq. Məsələ onunla əlaqəlidir ki, XXI əsrin üçüncü onilliyi iki həqiqəti üzə çıxardı.

Birincisi, güclü cəmiyyət olmadan güclü dövlət qurmaq imkansızdır.

İkincisi, tarixən çox əhəmiyyətli olan bu iki faktorun gerçək vəhdəti yalnız intellektin milli sərvətə çevrilməsi halında mümkündür. Lakin "intellekt milli sərvət kimi" ifadəsinin məzmunu mütləq açılmalıdır.

## İntellekt necə milli sərvət ola bilər?

Burada "milli sərvət" geniş anlamda, yəni maddi ilə mənəvinin (ideyanın, konseptin, konsepsiyanın və s.) vəhdətini ifadə edir. "Milli sərvət" "hər hansı etnosa mənsub olmağı"nı ifadə etmir. Sərvət o zaman "milli" olur ki, toplum miqyasında özünütəşkilin idarəedici parametri funksiyasını yerinə yetirir. Yəni bu anlamda sərvətin "milliliyi" substantiv deyil, kommunikativ (funksional) amilə aiddir.

Deməli, sərvətin milliliyi ona malik olan toplumun həyatında oynadığı rola görə müəyyən edilməlidir. Sərvəti yaradan subyektlər bu kontekstdə etnik mənsubluğa görə deyil, bütövlükdə cəmiyyət miqyasında kreativliklərinin ölkənin maraqlarına nə dərəcədə xidmət etdiyi fonunda dəyərləndirilir.

Belə alınır ki, bizim yanaşmamızda "mənəvi sərvət" toplumun (kollektiv birgəyaşam sisteminin) özünütəşkilində yeni nizamlılıq səviyyəsinə yüksəlməsində nizamlayıcı parametr rolunu oynayanda milli sərvətə çevrilir. Bu prosesin əyaniləşməsi fəlsəfə, elm, incəsənət və bütövlükdə mədəniyyətin sosial funksiyaları çərçivəsində baş verə bilir. Onun daxilində isə elmi idrak və ümumilikdə elm cəmiyyətin strukturlaşması və funksionallaşmasında idarəedici parametrliklə nizamlayıcı parametr rolunu sintez edə bilir.

Problemin bu aspektinin nəzəri təhlilinə keçmədən öncə bir vacib xüsusiyyəti vurğulayaq. Burada istifadə edilən "idaretmə parametri" və "nizamlama parametrləri" sırf nəzəri anlayışlardır və buna görə ümumiləşdirmədir.

"İdarəetmə parametri"ni ölkə miqyasında iki kateqoriyaya bölürük. Ən yüksək səviyyə ölkə rəhbərliyinə aiddir. Yəni bütövlükdə dövləti və ölkəni idarə edən onun başçısıdır. Bu, aksiomdur. Milli sərvət kontekstində "idarəedici parametr" ifadəsi cəmiyyət səviyyəsində gedən proseslərə aiddir. Yəni dövlətin başçısı bütövlükdə dövləti və cəmiyyəti idarə edir və bunun fonunda cəmiyyətdaxili miqyası üçün "idarəedici parametr müəyyənləşir. Elmin cəmiyyət həyatında idarəedici və nizamlayıcı parametr kimi statusu bu miqyası aşa bilməz. Yəni elm dövlət başçısının müəyyən etdiyi strateji inkişaf kursu daxilində hansısa sosial, mədəni, idraki, tətbiqi idarəedici və ya nizamlayıcı funksiya yerinə yetirə bilər.

## Elm: idarəediciliklə nizamlayıcılığın yeni parametri kimi

Bu, elmin üzərinə düşən yeni "vəzifədir". İndiyə qədər sosial sinergetikada idarəediciliklə nizamlayıcılıq ayrı-ayrı parametrlərə aid edilməkdədir (cəmiyyət miqyasında). Yəni hər hansı sosiumun idarəedici parametri onun nizamlayıcı parametrini yönəldir.

Bizim mövqeyə görə, XXI əsrin tələbləri bu qaydanın tam adekvat olmadığını göstərir. Çünki cəmiyyət elə yeniləşmə dinamikasına malikdir ki, onun idarəedilməsini və nizamlanmasını yönəldən başlıca parametr vəhdətdə təşkil etməli və ən yaxşı halda "bir monetin iki üzü olmalıdırlar". Sadə desək, indiki cəmiyyətlərin dayanıqlı və davamlı özünütəşkili və inkişafı üçün özünüstrukturlaşma ilə yeniləşmə vahid proses halına gəlməlidir. Bunun təməlində isə sinergetik təsəvvürə görə, idarəetmə parametri ilə nizamlama parametrinin vəhdəti dayanmalıdır.

Etiraf edək ki, məsələnin bu cür qoyuluşu yenidir və hələ çox araşdırılmalıdır. Lakin elmin müasir cəmiyyətin idarəedilməsi ilə onun sturktur-funksional nizamlanmasının sintezini təşkil etməkdə aparıcı rolu ilə bağlı müəyyən tezislər irəli sürmək mümkündür.

## Azərbaycanşünaslıq: güclü dövlət və güclü cəmiyyət vəhdətinin idarəedici və nizamlayıcı parametri kimi

Qəzet qısa başlığı sevər. Ancaq burada məsələnin böyüklüyü jurnalistikanın bu "qızıl qaydası"nı pozmağa vadar edir. Azərbaycanşünaslığın idarəedici və nizamlayıcı parametr kimi anlamı, təhlili və funksional imkanlarının araşdırılması qaynağı AMEA-dır. Bu ali elmi təşkilatın rəhbərliyi güclü müstəqil dövlət və güclü cəmiyyət quruculuğunun vəhdətinin fəlsəfi və elmi əsaslandırılmasını qətiyyətlə qarşıya vəzifə kimi qoymuşdur. Həmin aspektdə məsələ heç də sırf nəzəri problem deyildir. Əlbəttə, nəzəri-metodoloji araşdırma mütləqdir, lakin o zaman faydalıdır ki, praktiki tətbiq edilə bilir.

İndi təsəvvür edək: alimlər Azərbaycanşünaslığın elə nəzəri idraki konsepsiyasını (sistemini, məfkurəsini) hazırlamalıdırlar ki, Azərbaycanda müstəqil güclü dövlətlə güclü cəmiyyətin vəhdətini reaktuallaşdırmaq mümkün olsun. AMEA yeniləşmə strategiyasında bu "uzaq hədəfə fokuslanmışdır"! Elmin də müasir dönəmdə dövlətçilik və cəmiyyət üçün oynamalı olduğu çətin rolun obrazında bu məqamı önə çəkmək gərəkdir. Əlbəttə, ilk baxışda dərk edilməsi belə çətin və mürəkkəb olan situasiyadır. Ancaq müstəqil və güclü olmaq üçün XXI əsr başqa seçim qoymur – elmi camiyə bunun öhdəsindən gəlməyə məhkumdur!

Prezident İlham Əliyevin yeni tarixi mərhələdə güclü dövlətlə güclü cəmiyyətin qarşılıqlı əlaqədə inkişafı məsələsini dəfələrlə aktuallaşdırması arxasında bu məqsədi mütləq görməliyik! Azərbaycan lideri strateji hədəfləri olduqca dəqiq və düzgün müəyyən etmişdir. Yeritdiyi siyasi kursun nəzəri-ideya aspekti ilə praktiki-tətbiqi tərəfi də mükəmməl surətdə bir-birini tamamlayır. Bu nikbin mənzərəyə alimlərin töhfəsi çox zəruridir. Prezident İlham Əliyev bunu anladır və AMEA da ona uyğun reaksiya verir.

Xeyli nəzəri olan bu fikirlərdən birbaşa tətbiqi aspektə keçək.

## Xarici risklər və vətəndaş cəmiyyəti

Bu faktor dövlətçilik uğrunda savaşın yeni mərhələsinin əsas parametrlərindən birini təşkil edir. Onu Prezident İlham Əliyevin Andiçmə mərasimindəki nitqi zamanı vurğuladığı bir tezisin fonunda aydın görə bilərik. Dövlət başçısı demişdir: "Biz bundan sonra da Azərbaycanda vətəndaş cəmiyyətinin yaradılması ilə bağlı addımlar atacağıq. Azərbaycan xalqının həmrəyliyi əsas uğurlarımızdan biridir. İkinci Qarabağ müharibəsindəki parlaq Qələbə bir daha onu göstərdi ki, Azərbaycan xalqı böyük xalqdır. Azərbaycanda yaşayan bütün etnik qruplar, bütün xalqlar Azərbaycan Bayrağı altında birləşib. Bu Qələbədə, bu tarixi Zəfərdə ölkəmizdə yaşayan hər bir xalqın öz dəyərli töhfəsi var".

Belə alınır ki, yeni tarixi mərhələdə dövlətçilik baxımından vətəndaş cəmiyyəti quruculuğunun yeni səviyyəyə yüksəldilməsi arxivacib məsələ kimi qəbul edilmişdir. Azərbaycan Prezidentinin həmin tezisinin məntiqindən aydın olur ki, birincisi, Azərbaycan xalqının həmrəyliyinə nail olunması vətəndaş cəmiyyətinin qurulması baxımından uğur kimi qiymətləndirilməlidir, ikincisi, Qarabağ müharibəsindəki parlaq qələbə bunun əyani təsdiqlərindən biridir, üçüncüsü, Azərbaycanda yaşayan bütün xalqlar dövlət bayrağı ətrafında birləşmişdir, yəni faktiki olaraq güclü dövlətçiliklə güclü cəmiyyət (vətəndaş cəmiyyəti) formalaşması arasında vəhdətin bazası yaradılmışdır. Lakin burada risk faktorunu unutmamağımız lazımdır. O, haradan qaynaqlana bilər? Prezidentin cavabı dəqiq və konkretdir.

Andiçmə mərasimində İlham Əliyev ayrıca vurğulamışdır: "Sərhədlərimizin qorunması, eyni zamanda, bizi xarici risklərdən qoruyacaq. Çünki ölkə daxilində risklər yoxdur. Bütün mümkün olan potensial risklər ölkəmizin hüdudlarından kənarda yerləşir və formalaşır. Təhlükəsizlik tədbirlərinin bundan sonra da görülməsi vacib vəzifə kimi qarşıya qoyulur. Biz özümüzü təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və sərhədlərimizin möhkəmləndirilməsi nəticəsində həm fiziki risklərdən qorumalıyıq, həm də özümüzü ideoloji risklərdən qorumalıyıq. İdeoloji risklər sərhəd tanımır, xüsusilə indiki şəraitdə. Ona görə burada əsas vəzifə gənc nəslin vətənpərvərlik ruhunda, milli ənənələr ruhunda tərbiyə olunmasıdır. Bu məsələyə çox ciddi yanaşmalıyıq və mən bunu əsas vəzifələrdən biri kimi qarşıya qoyuram. Gənc nəslin tərbiyə edilməsi bizim gələcəyimizin təmin edilməsi deməkdir".

## Mənəviyyat və humanitarlıq

Siyasi liderin dövlətçilik uğrunda savaşın yeni mərhələsində xarici risklərlə mübarizəni məharətlə daxili mənəvi, ideoloji, siyasi, əxlaqi, tərbiyəvi və s. sferalarda "kollektiv immunitetin gücləndirilməsi" ilə inandırıcı və gerçəkliyə uyğun əlaqələndirməsi xüsusi məna kəsb edir.

Yuxarıdakı qısa təsvir göstərir ki, Prezident İlham Əliyev Azərbaycan toplumunun daxili həmrəyliyini, birliyini və kollektiv dirənişmə qüdrətini xarici risklərə qarşı əsas mübarizə faktoru kimi təqdim edir. Bir sıra dövlətlər kimi, silaha və ya bütövlükdə hərbi gücə deyil, toplumun ideya, mənəvi, mədəni və əxlaqi "immun sistemi"nin işlək olmasına əsaslanır.

Bu yanaşmada yeni mərhələdə dövlətçiliyin qorunmasında və inkişafında humanitar aspektin ciddi rol oynayacağı ifadə edilmişdir. Başqa anlamda Azərbaycanda dövlətçilik uğrunda savaşımız əsas olaraq intellektual müstəviyə keçir. Azərbaycan dövlətçiliyi əsas olaraq elmə, intellektə, sivil toplum kimi özüntəşkilin və özünüinkişafın yüksək səviyyəsinə nail olmağa istiqamətlənmişdir. Bu, İlham Əliyevin güclü dövlət və güclü cəmiyyət quruculuğu kursunun mərkəzi məqamıdır.

Bütün bunların fonunda İlham Əliyevin aşağıdakı tezisi dövlətçilik uğrunda mübarizənin yeni mərhələsinin nüvə prinsiplərindən birini fiadə edir.

## Gənc nəsil- strateji sərvət!

Bu məqamda İlham Əliyevin Andiçmə mərasimində bəyan etdiyi iki tezisin daxili məntiqi əlaqəsini açmağa böyük ehtiyac vardır. Həmin tədbirdə Azərbaycan lideri belə fikir irəli sürmüşdür: "Bu gün Azərbaycan xalqı bir yumruq kimi birləşib… Milli birlik daimi olmalıdır, çünki Azərbaycanın önəmi artır, dünyada oynadığı rolu artır. Əlbəttə, bizə qarşı bundan sonra da ideoloji təxribatlar nəinki istisna deyil, bunlar qaçılmazdır və biz bunu demək olar ki, gündəlik həyatda görürük. Bizim işimizə kölgə salmaq, bizi diskriminasiyaya uğratmaq, Azərbaycan haqqında əsassız və yalançı, mənfi imic yaratmaq - biz bütün bunları gündəlik həyatda görürük, Azərbaycan xalqı görür və bundan hiddətlənir".

Deməli, Azərbaycanın dövlət kimi önəmi, əhəmiyyəti, rolu artır. Bu, dostları məmnun edirsə, dost olmaq istəməyənlərin neqativ reaksiyasına səbəb olur. Onlar Azərbaycanı bu yoldan yayındırmağa çalışırlar. Onun yollarından biri Azərbaycana qarşı ideoloji təxribatları gücləndirməkdən ibarətdir. Şuşa Qlobal Media Forumlarında da Prezident İlham Əliyev məsələnin bu aspektinə ciddi kontekstlərdə toxunmuşdur. Yəni ideoloji-informasiya təxribatlarına, təsirlərinə, təzyiqlərinə qarşı savaş birbaşa dövlətçilik uğrunda mübarizənin tərkibinə daxildir. Hətta güclü vətəndaş cəmiyyətinin formalaşdırılması baxımından o dərəcədə dövlətçiliyə aiddir ki, aparıcı yer tutur.

Vurğulananlardan Prezident İlham Əliyevin ikinci tarixi və strateji formulu (kəlamı) məntiqi olaraq alınır. Azərbaycan lideri onu aşağıdakı kimi ifadə etmişdir: "Biz elə bir gənc nəsil yetişdirməliyik ki, onlar da daim bizim kimi milli ənənələrə, milli-mənəvi dəyərlərə sadiq olsunlar, onların beyinləri saf olsun. Heç kim onların beyinlərini zəhərləmək istəyəndə uğura nail olmasın və burada, əlbəttə ki, ilk növbədə, ailə tərbiyəsi ön plana çıxır. Xoşbəxtlikdən Azərbaycan ailəsi sağlam ailədir, ənənələr, milli dəyərlər üzərində qurulan ailədir. Ailə tərbiyəsi hər bir gənc üçün, hər bir uşaq üçün əsas tərbiyədir. İkinci yerdə məktəb tərbiyəsidir və belə müzəffər gənclərimizin yetişdirilməsində də Azərbaycan məktəbinin çox böyük rolu vardır. Məktəblərdə uşaqlara aşılanan dəyərlər, müstəqilliklə bağlı, milli ləyaqətlə bağlı, əsrlər boyu bizə qarşı edilən ədalətsizliklə, - təkcə son 30 il ərzində yox, - torpaqlarımızın müxtəlif dövrlərdə əlimizdən alınması ilə bağlı və bizim qəhrəmanlıq tariximizlə bağlı uşaqlara verilən tərbiyə və biliklər çox böyük önəm daşıyır".

Buradan dövlətçilik uğrunda savaşda ümumiyyətlə milli-mənəvi dəyərlərin rolu məsələsinə keçid etmək olar.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**1993-cü ildən Azərbaycanla sıx əməkdaşlıq edən BMT-nin Uşaq Fondu (UNICEF) 2025-ci ilin sentyabrın 3-də ölkədəki fəaliyyətini sona çatdıracaq. Bu qərarın arxasında Azərbaycanın sosial və infrastruktur sahələrində əldə etdiyi müsbət irəliləyişlər dayanır. Gələcəkdə isə bu əməkdaşlıq, regional ofislər və baş qərargah vasitəsilə davam etdiriləcək.**

UNICEF-in Avropa və Mərkəzi Asiya üzrə Kommunikasiyalar üzrə regional rəhbəri İrina Mazur ötən müddət ərzində təşkilatın Azərbaycan hökuməti ilə birgə çalışaraq uşaqlar üçün vacib xidmətlər və dəstək təmin etdiyini və bu əməkdaşlığın uşaq ölümlərinin azalmasına, keyfiyyətli təhsilə çıxışın genişlənməsinə, uşaq müdafiəsi sistemlərinin gücləndirilməsinə mühüm töhfə verdiyini vurğulayıb.

Qeyd edək ki, UNICEF-in Azərbaycandakı fəaliyyətinin əsas sahələrindən

# UNICEF Azərbaycandan gedir

## *Əməkdaşlıq isə regional ofislər və baş qərargah vasitəsilə davam etdiriləcək*



biri uşaq hüquqlarının qorunması olub. Təşkilat hökumət, vətəndaş cəmiyyəti və digər tərəfdaşlarla birgə uşaqların rifahını yaxşılaşdırmaq məqsədilə müxtəlif tədbirlər həyata keçirib. Uşaq hüquqları sahəsində qanunvericiliyin təkmilləşdirilməsi, ictimaiyyətin maarifləndirilməsi və uşaqların hüquqlarının müdafiəsi ilə bağlı bir sıra layihələrə imza atılıb. Təhsil sahəsində UNICEF məktəbəqədər təhsilin təşviqi, inklüziv təhsilin inkişafı və əlilliyi olan uşaqların təhsil imkanlarına çıxışının genişləndirilməsi istiqamətində bir çox proqramlar icra edib. Pandemiya dövründə isə rəqəmsal təhsilin təşviqi məqsədilə xüsusi resurslar təqdim olunub.

Ana və uşaq sağlamlığının yaxşılaşdırılması istiqamətində UNICEF-in fəaliyyəti xüsusilə peyvəndləmə proqramlarının gücləndirilməsi və erkən inkişaf dəstəyi ilə diqqət çəkib. Sosial müdafiə sahəsində isə xüsusilə ailədən ayrı düşmək riski olan və həssas qruplardan olan uşaqlar üçün dəstək xidmətləri yaradılıb. Eyni zamanda, alternativ qayğı modelləri tətbiq edilərək, ailədaxili zorakılıqla mübarizəyə dəstək göstərilib. Postmünaqişə dövründə isə UNICEF uşaqların psixo-sosial vəziyyətini yaxşılaşdırmaq üçün bir sıra tədbirləri reallaşdırıb. Bu fəaliyyətin nəticəsi olaraq, münaqişə nəticəsində yaranan narahatlıq, depressiya və post-travmatik stress pozuntularında statistik olaraq azalma müşahidə edilib. Gənclərin sosial həyatda iştirakını artırmaq, onlara müxtəlif sahələrdə bacarıqlar qazandırmaq məqsədilə həyata keçirilən layihələr də UNICEF-in prioritetləri sırasında olub.

İndi isə yeni bir dövr başlayır, çünki Azərbaycan artıq bu sahədə layihələri maliyyələşdirməkdə daha müstəqil və daha güclü imkanlara sahibdir. **Bununla bağlı Politoloq Tural İsmayılov** XQ-yə bildirdi ki, sosial və iqtisadi inkişaf baxımından atılan addımlar Azərbaycanın daxili resurslardan daha effektiv istifadə etməsinə və xarici təsirlərdən daha az asılı olmasına imkan yaradır: "UNICEF-in sentyabrın 3-də Azərbaycandakı fəaliyyətini başa çatdırması ölkənin sosial və iqtisadi inkişaf sahəsində əldə etdiyi əhəmiyyətli irəliləyişin nəticəsidir. Son illər Azərbaycan daxili resurslardan daha effektiv istifadə etməklə xaricdən asılılığını xeyli azaldıb. Enerji, kənd təsərrüfatı və texnologiya sahələrindəki inkişaf ölkə iqtisadiyyatının dayanıqlığını artırıb. Bu inkişaf sosial siyasətin də daha müstəqil şəkildə icrasına imkan yaradıb. Təhsil, səhiyyə, sosial təminat və məşğulluq sahələrində atılan ardıcıl addımlar xalqın rifahını yüksəltməyə yönəlib. Regionlarda həyata keçirilən gənclər proqramları sosial bərabərliyi gücləndirib. Dövlətin sosial müdafiə sisteminin institusional güclənməsi beynəlxalq təşkilatların rolunun azalmasına səbəb olub. Azərbaycan artıq bir çox sahədə texniki dəstəyə deyil, strateji tərəfdaşlığa ehtiyac duyur. UNICEF-in fəaliyyəti də bu keçid prosesində funksional baxımdan aktuallığını itirib. Bu qərar təşkilatın məhdud resurslarını daha çox ehtiyac olan regionlara yönəltməsi baxımından da məntiqlidir. Azərbaycan beynəlxalq



qurumlarla münasibətlərdə donor-dəstəkçi deyil, bərabərhüquqlu tərəfdaş yanaşmasını tətbiq edir. Yerli təşkilatların və dövlət institutlarının gücləndirilməsi prioritetə çevrilib. Bu da bəzi layihələrin birbaşa hökumət və milli təşkilatlarla həyata keçirilməsini zəruri edib. Nəticədə UNICEF-in missiyasının başa çatması Azərbaycanın sosial inkişafda suverenliyini möhkəmləndirən haqlı və məntiqli nəticədir".

İNICEF-in regional əməkdaşlığa keçməsinə ikinci səbəb isə BMT-nin əsas departamentlərin birləşdirilməsini və resursların yenidən bölüşdürülməsini nəzərdə tutan köklü restrukturizasiyadır. Sənəd onlarla agentliyin dörd əsas sahə üzrə birləşdirilməsini təklif edir: sülh və təhlükəsizlik, humanitar məsələlər, davamlı inkişaf və insan hüquqları.

Xüsusi tədbirlərə Ümumdünya Ərzaq Proqramı (ÜƏP), UNICEF, ÜST və BMT QAK-ın əməliyyat strukturlarının vahid humanitar qurumda birləşdirilməsi daxildir. İslahat, həmçinin bir sıra işçilərin Cenevrə və Nyu-Yorkdan daha ucuz şəhərlərə köçürülməsi də daxil olmaqla, onların ixtisarını əhatə edir. Təşəbbüs BMT-nin maliyyə böhranı ilə əlaqələndirilir. Təşkilatın əsas donoru olan ABŞ-ın müntəzəm büdcəyə 1,5 milyard dollar, sülhməramlı əməliyyatlara isə 1,2 milyard dollar borcu var. Bu yardımın azaldılması artıq Humanitar Məsələlər İdarəsinin əməkdaşlarının 20 faizinin işdən çıxarılmasına gətirib çıxarıb. Bu da qurumun regional əməkdaşlığa üstünlük verməsinə səbəb olub.

UNICEF-in regional əməkdaşlığı isə resursların daha səmərəli şəkildə paylanmasına, müxtəlif ölkələrdəki bənzər ehtiyaclara çevik cavab verilməsinə imkan yaradacaq. Artıq təşkilat regional səviyyədəki tərəfdaşlarla koordinasiya ediləcək və beləliklə, qlobal məqsədlərə çatmaq üçün daha çevik və geniş bir yanaşma ortaya qoyulacaq. Azərbaycan kimi inkişaf etmiş ölkələrdə isə birbaşa müdaxilələr daha az tələb olunur, çünki yerli sistemlər özünü yaxşı təşkil edib və beynəlxalq dəstək olmadan, müstəqil fəaliyyət göstərə bilirlər.

Bu yeni regional əməkdaşlıq modeli, həm də yerli və regional səviyyədə insan resurslarının inkişafı üçün böyük fürsət yaradacaq. UNICEF Azərbaycan hökuməti və yerli təşkilatlarla strateji tərəfdaşlıq quraraq, ölkənin gələcək inkişafı üçün daha davamlı və səmərəli layihələr həyata keçirəcək. Yəni, əməkdaşlıq strukturu və yanaşma yeni mərhələyə keçir.

Beləliklə, UNICEF-in Azərbaycandakı fəaliyyətinin sonlandırılması ölkənin əldə etdiyi inkişaf səviyyəsinin və müstəqil idarəetmə qabiliyyətinin göstəricisidir. Lakin bu, təşkilatın Azərbaycana olan dəstəyinin tamamilə sona çatdığı anlamına gəlmir. Yeni regional əməkdaşlıq modeli ilə UNICEF daha geniş coğrafiyada fəaliyyətini davam etdirərək, hər bir ölkənin ehtiyaclarına uyğun həllər təqdim edəcək və müstəqil inkişaf edən ölkələrdə öz fəaliyyətini daha çox yerli və regional tərəfdaşlarla birgə həyata keçirəcək. Bu yeni yanaşma beynəlxalq əməkdaşlığı daha səmərəli və daha təsirli edəcək.

Xatırladaq ki, martın 3-də Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov ölkədə səfərdə olan BMT-nin İnkişafı Əlaqələndirmə Ofisinin Avropa və Mərkəzi Asiya üzrə Regional direktoru Qui-Yeop Son ilə görüşdə bəzi BMT qurumları ilə bundan sonrakı tərəfdaşlığın milli prioritetlərə uyğun şəkildə layihə əsaslı əməkdaşlıq mexanizmi vasitəsilə davam etdiriləcəyini bildirib.

Həmçinin diqqətə çatdırılıb ki, çağdaş dövrün tələblərinə uyğun olaraq, BMT ilə əməkdaşlıqda təşkilatın Məskunlaşma Proqramı, BMT-nin Ətraf Mühit Proqramı, BMT-nin İqlim dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Katibliyi və digər aidiyyəti qurumlar ilə əməkdaşlıq prioritet təşkil edir və bəzi BMT qurumları ilə də gələcək əməkdaşlığın bu model əsasında, yəni birbaşa mənzil qərargahları ilə işləməklə davam etdirilməsi nəzərdə tutulur. Bu çərçivədə may ayında BMT-nin İnkişaf Proqramı və BMT-nin Əhali Fondunun Azərbaycandakı mümayəndəliklərinin fəaliyyəti başa çatıb.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Asiya İnkişaf Bankı davamlı inkişaf tərəfdaşımızdır




(əvvəli 1-ci səhifədə)

Bildirilir ki, AİB texniki yardım layihələrin hazırlanması və tətbiqi əvvəlcə dəstək məqsədilə icraçı orqanlara və onu həyata keçirən agentliklərə göstəriləcək. Xüsusi diqqət satınalma sahəsində bacarıqların inkişafına, o cümlədən tender ilə bağlı sənədlərinin hazırlanması, təkliflərin qiymətləndirilməsi və hesabatların hazırlanmasına yönəldiləcək. Bununla yanaşı, müqavilələrin icrası və şikayətlərin həlli mexanizmlərinin gücləndirilməsinə, xarici məsləhətçilərdən asılılıq əvəzinə daxili potensialın yaradılmasına diqqət yetiriləcək.

AİB-nin məlumatında qeyd edilib ki, son dövrlərdə regionda layihələrin həyata keçirilməsində artıq müsbət dinamika nəzərə çarpıb. Belə ki, satınalma prosedurlarının həyata keçirilməsi üçün tələb olunan müddət 2022-ci ildəki 370 gündən 2023-cü ildə 261 günə, 2024-cü ildə isə 181 günə qədər azalıb. Bununla belə, hazırda inkişaf nəticələrinin əldə olunmasını ləngidən problemlərin aradan qaldırılması üçün institusional potensialın daha da gücləndirilməsinə ehtiyac duyulub. Sözügedən maliyyə qurumunun qarşısında iki əsas amil – layihə və satınalmalar hazırlığına xüsusi diqqət yetirilməsi qarşıda mühüm vəzifə kimi qoyulub.

Qeyd edək ki, müstəqilliyinin ilk illərindən etibarən Azərbaycanın qarşısında duran əsas çağırışlardan biri iqtisadiyyatın tək məhsul ixracına əsaslanan strukturundan uzaqlaşmaq, şaxələndirməni gerçəkləşdirmək və uzunmüddətli dayanıqlı inkişafı diqqətdə saxlamaq olub. Bu baxımdan beynəlxalq maliyyə qurumlarının, xüsusilə, AİB-nin ölkəmizə verdiyi dəstək respublikamızda daim yüksək dəyərləndirilib. Ümumiyyətlə, AİB ilə Azərbaycanın əməkdaşlıq tarixi təkcə kredit və texniki yardım çərçivəsindəki layihələrlə məhdudlaşdırılmayıb, bu münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilib.

Azərbaycan neft və qaz sektorunda mühüm uğurlar qazansa da, bu gəlirlərin iqtisadiyyatın digər sahələrinə yönəldilməsi və qeyri-neft sektorunun inkişafı dövlət siyasətinin əsas hədəflərindən olub. AİB tərəfindən bu istiqamətdə ölkəmizin strategiyası daim dəstəklənib, qeyri-neft sektoruna yönəlmiş layihələrə texniki və maliyyə yardımı göstərilib. Xüsusilə, kənd təsərrüfatı, aqrar emal sənayesi, turizm və informasiya-kommunikasiya texnologiyaları sahəsində həyata keçirilən layihələrdə AİB-nin töhfəsi yüksək dəyərləndirilib. Bankın 2021–2025-ci illəri əhatə edən tərəfdaşlıq strategiyası da məhz bu xətt üzrə formalaşdırılıb. Sənəddə Azərbaycanın inklüziv və dayanıqlı iqtisadi artımına dəstək, regional bağlantıların gücləndirilməsi, rəqəmsallaşmanın təşviqi və dövlət idarəçiliyinin yaxşılaşdırılması əsas məqsədlər kimi müəyyənləşdirilib.

Qeyd edək ki, son illərdə Azərbaycan iqlim dəyişikliyi ilə mübarizədə və ekoloji sabitliyin təmin olunmasında ciddi irəliləyişlərə imza atıb. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair milli prioritetlər” sənədində də bərpa olunan enerji mənbələrinin inkişafı və ekoloji təmiz texnologiyaların tətbiqi mühüm yer tutub. Bu istiqamətdə AİB-in yanaşması ilə Azərbaycanın “yaşıl” inkişaf gündəliyi üst-üstə düşüb.

AİB digər regionlarında olduğu kimi, Azərbaycanda da “yaşıl” enerji sahəsində investisiya və texniki yardım imkanlarını genişləndirib. Bankın ölkəmizdə günəş, külək və hidroenerji layihələrinə marağı xüsusilə artıb. Eyni zamanda, əsasən, qeyri-neft sənayesinə aid müəssisələrdə enerji səmərəliliyinin artırılması, enerji idarəetməsi sistemlərinin qurulması və yeni texnologiyaların tətbiqinə xüsusi əhəmiyyət verilib.

Bank bütün bunlarla yanaşı, ölkəmizdə nəqliyyat və dəmir yolu infrastrukturunun qurulmasına, regional inteqrasiyanın təməlinin qoyulmasına da həssaslıqla yanaşıb. Bu məsələni Azərbaycanın coğrafi mövqeyi – Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən tranzit qovşaq kimi rolu şərtləndirib. AİB bu baxımdan Azərbaycanın regional tranzit potensialını artırmaq məqsədilə bir sıra irimiqyaslı layihələrə dəstək verib. Məsələn, maliyyə qurumu Bank Bakı – Yalama dəmir yolu xəttinin yenidən qurulması layihəsinin icrasına xüsusi diqqət yetirib. Layihə nəticəsində sərnişin və yük daşımalarının səmərəliliyi artıb, ətraf mühitə təsirlər minimuma enib..

AİB hazırda Azərbaycan hökuməti ilə birlikdə dəmir yolu şəbəkəsinin daha geniş və modern bir formada inkişaf etdirilməsi, yeni multimodal nəqliyyat dəhlizlərinin yaradılması, liman-logistika mərkəzləri ilə inteqrasiyanın gücləndirilməsi istiqamətində danışıqlar aparır.

Xatırladaq ki, beynəlxalq maliyyə qurumu inklyüziv artım və sosial rifah məsələlərinə də həssaslıqla yanaşıb. Çünki Azərbaycan dövləti hər zaman sosial rifahın artırılması, əhalinin həssas təbəqələrinin həyat səviyyəsinin yüksəldilməsi və regional bərabərsizliyin aradan qaldırılmasına iqtisadi siyasətin əsas prioritetlərindən biri kimi önəm verib. Bu istiqamətdə reallaşdırılan layihələr nəticəsində regionlarda su təchizatı, kanalizasiya, məktəb və səhiyyə infrastrukturu yaxşılaşıb.

Hazırda rəqəmsal iqtisadiyyatın inkişafı qlobal çağırışlar fonunda Azərbaycanın prioritetlərindən biridir. Bu çərçivədə AİB-in rəqəmsallaşma sahəsində təcrübəsi ölkəmiz üçün olduqca faydalıdır. Elektron hökumət sistemlərinin təkmilləşdirilməsi, rəqəmsal xidmətlərin genişləndirilməsi və informasiya təhlükəsizliyi sahəsində əməkdaşlıq genişlənməkdədir. Eyni zamanda, bank tərəfindən yerli kadr potensialının gücləndirilməsi və texnologiya transferi üzrə proqramlar təklif edilir.

Bu gün AİB və Azərbaycan hökuməti arasında bərpa olunan enerji, dəmir yolu bağlantıları, su təsərrüfatı və rəqəmsal xidmətlərin genişləndirilməsi üzrə yeni əməkdaşlıq paketləri müzakirə olunur. Bu isə maliyyə qurumunun ölkəmizə yüksək etimadından və Azərbaycanın regional liderlik mövqeyinin getdikcə gücləndiyindən xəbər verir.

Beləliklə, respublikamızın iqtisadi və sosial inkişafına töhfə verməkdə davam edən AİB yeni çağırışlar və imkanlar fonunda da ölkəmizin strateji tərəfdaşı olaraq qalır. Qarşıdakı illərdə bu əməkdaşlıq daha da dərinləşərək, Cənubi Qafqaz regionunda davamlı və inklüziv inkişafın əsas sütunlarından birinə çevriləcək.

# Azərbaycanda “təmiz” kreditlər artırılır

## *8 ayda 12 min 762 layihəyə 330,24 milyon manat ayrılıb*



**2024-cü il noyabrın 11-dən 2025-ci il iyunun 30-dək olan dövr ərzində Azərbaycanda, ümumilikdə, 12 min 762 “yaşıl” maliyyə krediti verilib. Həmin kreditlərin ümumi həcmi isə 330,24 milyon manat təşkil edib.**

8 aya yaxın müddətdə verilmiş “yaşıl” kreditlərin əlavə dəyər baxımından ən böyük hissəsi, yəni 134,01 milyon manatı “yaşıl” nəqliyyat sahəsinə yönəldilib. Bu istiqamətdə 287 kredit üzrə maliyyə dəstəyi göstərilib. İkinci yerdə dayanıqlı kənd təsərrüfatı, heyvandarlıq və akvakultura sahəsi qərarlaşıb. Bu sahədə verilmiş 12 min 285 kredit üzrə ayrılmış vəsaitin həcmi 91,05 təşkil edib. “Yaşıl” kreditlərlə bağlı siyahıda ilk üçlüyü enerji səmərəliliyi sahəsi tamamlayıb. Sözügedən sahə üzrə 89 kredit müqabilində 37,51 milyon manat ayrılıb. Bundan əlavə, bərpa olunan enerji üzrə verilmiş 5 kreditin ümumi həcmi 18,64 milyon manat olub.

Ölkə üzrə verilmiş “yaşıl” kreditlər üzrə diqqətçəkən sahələr arasında su resurslarının dayanıqlı idarə edilməsi (14,60 milyon manat), dairəvi iqtisadiyyat və tullantıların idarə olunması (14,70 milyon manat) və biomüxtəlifliyin mühafizəsi (1,25 milyon manat) də əhəmiyyətli yer alıb. Hesabata əsasən, ümumi kredit portfelində “yaşıl” olmayan, dayanıqlılıqla əlaqəli kreditlərin həcmi cəmi 0,09 milyon manat, ölkə daxilində “yaşıl” istiqrazlara və digər sahələrə isə 18,18 milyon manat yönəldilib.

# Sumqayıt Kimya Parkı genişlənir

## *İndiyədək kompleksə 6 milyard manat investisiya qoyulub*

**İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Sumqayıt Kimya Sənaye Parkında investisiya portfeli 6 milyard manatdan çox olan 39 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. Artıq həmin rezidentlərin 28-i istehsal fəaliyyəti ilə məşğuldur.**

Sahibkarlar tərəfindən indiyədək sənaye parkına 5,6 milyard manat investisiya yatırılıb. Bunun da hesabına Cənubi Qafqazın ən böyük sənaye parkında 6 min 300-dən artıq daimi iş yeri yaradılıb. Ötən müddətdə rezidentlər 14,4 milyard manatlıq məhsul satıblar ki, bunun da 5,2 milyard manatlıq hissəsi ixracın payına düşüb. Cari ilin ilk yarısında isə 1,1 milyard manatlıq məhsul satılıb. Bunun da 545 milyon manatlıq hissəsi ixrac edilib. Ötən ilin eyni dövrü ilə müqayisədə ixrac 20 faizə yaxın artıb.

Qeyd edək ki, parkda istehsal edilən tikinti kimyəvilərin, polad və polimer boruların, sürtkü yağlarının, polimerlərin, karbamidin, müxtəlif çeşiddə kabellərin, şüşə lövhələrin, keramik plitələrin və s. məhsulların ixracı istiqamətində uğurlar əldə edilib. Əsasən bu növ məhsullar dünyanın 70-dən artıq ölkəsinə “Made In Azerbaijan” brendi adı altında ixrac olunub.




Yeri gəlmişkən, Sumqayıt Kimya Sənaye Parkında sahibkarlıq fəaliyyətinin inkişafı üçün əlverişli investisiya mühiti yaradılıb. Belə ki, sahibkarlar burada dövlət vəsaiti hesabına hazır infrastrukturla təmin olunur. Eyni zamanda, parkın rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir vergilərindən, həmçinin istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından tam azad olunurlar. Parkın rezidentlərinə indiyə qədər 912 ədəd təsdiqedici sənəd verilib. Bunun da nəticəsində rezidentlər texnika və texnoloji avadanlıqların idxalı zamanı 400 milyon manatdan çox vəsaitə qənaət ediblər.

# “Avenue 8” paytaxta çağdaş sima gətirəcək

**Bakı şəhərinin memarlıq panoramasına yeni nəfəs gətirəcək “Port Baku Walk” və Zəfər Parkı ilə əhatələnən “Avenue 8” təkcə yaşayış məkanı deyil, həm də paytaxtın yeni urban simvolu kimi diqqət çəkir. Rəsmi maliyyə tərəfdaşı PAŞA Bank olan layihə “Avant Group” və “Moonwake Investment” tərəfindən həyata keçirilir.**



2010-cu ildən fəaliyyət göstərən şirkətin Direktorlar Şurasının sədri Əli Hüseynovun sözlərinə görə, “Avenue 8”, sadəcə, yaşayış binaları deyil, eyni zamanda, şəhərin ruhunu əks etdirən konseptual həyat fəlsəfəsidir. 144 metrlik bu memarlıq incisi Bakının gözəlliyini təcəssüm etdirir.

Layihənin fərqləndirici xüsusiyyətləri barədə danışan şirkətin biznes və marketinq direktoru Rüfət Abdullayev isə qeyd edib ki “Avenue 8-in mənzilləri 4,5 metrlik tavan hündürlüyünə malik olacaq, tam şüşəli fasadlar, zərif dizaynlı lobbilər və “co-working” zonaları müasir şəhər həyatına yeni standartlar gətirəcək. Binanın 30-cu mərtəbəsində “Sky Lounge” və “Rooftop Pool” zonaları, 25 metrlik qapalı hovuz, eləcə də spa, fitness və padel kortları rezidentlərə tam fərqli bir həyat tərzi yaşadacaq. Əlavə olaraq, layihənin qarşısında 5 min kvadratmetrlik yaşıllıq və ictimai park zonası salınacaq ki, bu da şəhərin mərkəzində təbiətə açılan nadir bir məkana çevriləcək.

# Özbəkistanda da “Sea Breeze” yaradılır

**2010-cu ildən fəaliyyət göstərən və indiyədək 1,1 milyon kvadratmetrdən artıq tikinti işləri görən “Avant Group”un son illərdə Özbəkistanda da fəallığı artıb. Bu ölkənin Nazirlər Kabinetinin 1 avqust tarixli qərarı ilə Daşkənd vilayətinin Bostanlıq rayonundakı Çarvak su anbarının sahilində “Sea Breeze Uzbekistan” bütün mövsümlük kurort kompleksinin yaradılması üzrə investisiya layihəsinin həyata keçirilməsi tədbirlərini təsdiqləməsi də deyilən fikrin bariz ifadəsidir.**

Sənədə əsasən, Özbəkistanın İnvestisiyaların cəlb edilməsi, sənayenin inkişafı və ticarətin tənzimlənməsi üzrə Hökumət Komissiyası “Agalarov Development” qurumunun iştirakı ilə təsis olunan “Sea Breeze Uzbekistan” şirkətini “Sea Breeze” Azərbaycan brendinin – 577 hektar sahədə gerçəkləşdiriləcək layihənin qalibi elan edib.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 228** **Bakı şəhəri, 1 avqust 2025-ci il**

***"Arbitraj haqqında" Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1077-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 77-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Arbitraj haqqında" Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1077-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 77-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 19 iyun tarixli 105 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 6, maddə 470 (Cild I) ilə təsdiq edilmiş "İcra xidməti icra məmurlarının xüsusi Fondu haqqında Əsasnamə"nin II hissəsinin 1-ci bəndində "məhkəmələrinin, beynəlxalq arbitrajların və münsiflər məhkəmələrinin, xarici dövlətlərin məhkəmələrinin və arbitrajlarının" sözləri "və xarici dövlətlərin məhkəmələrinin" sözləri ilə əvəz edilsin və həmin bəndə "işlər üzrə qərarlarının" sözlərindən sonra ", xarici və yerli arbitraj məhkəmələrinin qərarlarının" sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 6 sentyabr tarixli 143 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 9, maddə 573 (Cild I) ilə təsdiq edilmiş "Üzərinə həbs qoyulmuş əmlakın saxlanması Qaydası və şərtləri"nin preambulasında "məhkəmələrinin, beynəlxalq arbitrajların və münsiflər məhkəmələrinin, xarici dövlətlərin məhkəmələrinin və arbitrajlarının" sözləri "və xarici dövlətlərin məhkəmələrinin" sözləri ilə əvəz edilsin və həmin preambulaya "işlər üzrə qərarlarının" sözlərindən sonra ", xarici və yerli arbitraj məhkəmələrinin qərarlarının" sözləri əlavə edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 8 iyul tarixli 202 nömrəli, 15 iyul tarixli 210 və 212 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatı"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.4.2.2.1.2-ci yarımbəndə "ərizənin" sözündən sonra "və arbitraja münasibətdə yardım funksiyalarının yerinə yetirilməsi ilə bağlı ərizənin" sözləri əlavə edilsin;

3.2. 1.4.2.2.1.3-cü yarımbəndə üçüncü halda "ərizənin" sözündən sonra ", o cümlədən müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə arbitraj məhkəmələrinin qərarlarının tanınması və icrası ilə bağlı ərizənin, yerli arbitraj məhkəmələrinin qərarlarının məcburi icrasının təmin edilməsi ilə bağlı ərizənin və xarici arbitraj məhkəmələrinin qərarlarının tanınması və icrası ilə bağlı ərizənin" sözləri əlavə edilsin;

3.3. 1.4.2.2.1.8-ci yarımbəndə "şikayət verilməsinə" sözlərindən sonra "və arbitraj məhkəmələrinin qərarlarının ləğv edilməsi ilə bağlı ərizənin verilməsinə" sözləri əlavə edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 5 sentyabr tarixli 384 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1538 (Cild I) ilə təsdiq edilmiş "Mediatorların peşəkar etik davranış Qaydası"nın 3.10.2-ci yarımbəndində "və arbitraj (münsiflər məhkəməsi) proseslərində" sözləri "proseslərində və arbitraj icraatında" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 229** **Bakı şəhəri, 1 avqust 2025-ci il**

***"Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"nın təsdiq edilməsi haqqında***

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi haqqında Əsasnamə"nin 5.2-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 230** **Bakı şəhəri, 1 avqust 2025-ci il**

***"Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 118-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 30 yanvar tarixli 313 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə***

"Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 118-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 30 yanvar tarixli 313 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 25 dekabr tarixli 199 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 809 (Cild I) ilə təsdiq edilmiş "Elektrik enerjisindən istifadəyə görə birinci dərəcəli istehlakçıların (elektrik enerjisi təchizatının dayandırılmasına icazə verilməyən təşkilatların) Siyahısı"nın "Büdcədən maliyyələşdirilən istehlakçılar" bölməsinin on səkkizinci abzasında "qanunsuz miqrantların saxlanılması mərkəzlər" sözləri "müvəqqəti yerləşdirmə mərkəzləri" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 avqust tarixli 136 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 861 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddə 467, № 9, maddələr 1090, 1100) ilə təsdiq edilmiş "İnzibati orqanların Təsnifatı"nın II bölməsinin 38.1.2-ci yarımbəndində "Qanunsuz miqrantların saxlanılması" sözləri "Müvəqqəti yerləşdirmə" sözləri ilə əvəz edilsin.

**3.** "Qanunsuz miqrantların saxlanılması mərkəzlərinin daxili intizam Qaydaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 24 avqust tarixli 317 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1454 (Cild I); 2024, № 3, maddə 303, № 7, maddə 894, № 9, maddələr 1067, 1083, 1106) aşağıdakı dəyişikliklər edilsin:

3.1. Qərarın adında və birinci hissəsində "Qanunsuz miqrantların saxlanılması" sözləri "Müvəqqəti yerləşdirmə" sözləri ilə əvəz edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş "Qanunsuz miqrantların saxlanılması mərkəzlərinin daxili intizam Qaydaları" üzrə:

3.2.1. adında və 1.1-ci bənddə "Qanunsuz miqrantların saxlanılması" və "qanunsuz miqrantların saxlanılması" sözləri müvafiq olaraq "Müvəqqəti yerləşdirmə" və "müvəqqəti yerləşdirmə" sözləri ilə əvəz edilsin;

3.2.2. 1.7-ci bəndin ikinci cümləsində, 4.26-cı bəndin üçüncü cümləsində, 4.30-cu bənddə, 4.31-ci bəndin ikinci cümləsində, 4.38-ci bənddə, 5.30-cu bəndin ikinci cümləsində, 5.41-ci, 5.45-ci, 9.3-cü, 17.4-cü, 19.6-cı bəndlərdə, 19.34-cü bəndin birinci cümləsində, 19.36-cı bənddə və 20.4-cü bəndin ikinci cümləsində "Mərkəzin tabe olduğu dövlət orqanının" sözləri "Xidmətin" sözü ilə əvəz edilsin;

3.2.3. həmin Qaydalara 1–44 nömrəli əlavələrdə mətn üzrə "Qanunsuz miqrantların saxlanılması", "QANUNSUZ MİQRANTLARIN SAXLANILMASI" və "qanunsuz miqrantların saxlanılması" sözləri müvafiq olaraq "Müvəqqəti yerləşdirmə", "MÜVƏQQƏTİ YERLƏŞDİRMƏ" və "müvəqqəti yerləşdirmə" sözləri ilə əvəz edilsin;

3.2.4. həmin Qaydalara 18 nömrəli əlavənin "Qeydlər" hissəsinin 1-ci bəndində "Mərkəzin tabe olduğu dövlət orqanının" sözləri "Xidmətin" sözü ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 oktyabr tarixli 398 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 10, maddə 1286 (Cild I); 2024, № 3, maddə 330) ilə təsdiq edilmiş "Ödənişsiz psixoloji yardımın göstərilməsi Qaydası və Şərtləri"nin 4.13.1-ci yarımbəndində "qanunsuz miqrantların saxlanılması" sözləri "müvəqqəti yerləşdirmə" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 2 may tarixli 242 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 5 (II kitab), maddə 580) ilə təsdiq edilmiş "Elektrik gücü çatmadıqda, sistemin dayanıqlılığını təmin etmək üçün elektrik enerjisinin təminatına məhdudiyyətlər tətbiq edilməyən istehlakçıların Siyahısı"nın 21-ci hissəsində "qanunsuz miqrantların saxlanılması" sözləri "müvəqqəti yerləşdirmə" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 231** **Bakı şəhəri, 1 avqust 2025-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 6 fevral tarixli 73 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qarabağ Universitetinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qarabağ Universitetinin Klinikası" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 7 fevral tarixli 322 nömrəli Fərmanının 4-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 6 fevral tarixli 73 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 2, maddə 205) ilə təsdiq edilmiş "Qarabağ Universitetinin Nizamnaməsi"nin 4.11.6-cı yarımbəndinə "digər qurumların" sözlərindən sonra "("Qarabağ Universitetinin Klinikası" publik hüquqi şəxs istisna olmaqla)" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 232** **Bakı şəhəri, 1 avqust 2025-ci il**

***"Dövlət büdcəsinin gəlirlərinin, o cümlədən dövlət büdcəsinin qeyri-neft gəlirlərinin və dövlət büdcəsinin neft gəlirlərinin proqnozlaşdırılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 4 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Sosial sığorta haqqında" və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 8 oktyabr tarixli 44-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 8 noyabr tarixli 229 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dövlət büdcəsinin gəlirlərinin, o cümlədən dövlət büdcəsinin qeyri-neft gəlirlərinin və dövlət büdcəsinin neft gəlirlərinin proqnozlaşdırılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 4 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 62 (Cild I); 2024, № 4, maddə 473, № 5 (II kitab), maddə 583) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.".

**2.** Həmin Qərarla təsdiq edilmiş "Dövlət büdcəsinin gəlirlərinin, o cümlədən dövlət büdcəsinin qeyri-neft gəlirlərinin və dövlət büdcəsinin neft gəlirlərinin proqnozlaşdırılması Qaydası"nın 4.10.7-ci yarımbəndinin 1-ci abzasından "və yük" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 233** **Bakı şəhəri, 1 avqust 2025-ci il**

***"Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestrinin aparılması qaydaları"nın təsdiq edilməsi və Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "Dövlət informasiya ehtiyatlarının reyestrinin aparılması qaydaları haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2010-cu il 17 may tarixli 89 nömrəli və "Mərkəzi icra hakimiyyəti orqanları və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarlarının ləğv edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Ailə Məcəlləsində, "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1193-VIQD nömrəli Qanununun tətbiqi və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 iyun tarixli 729 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 16 iyul tarixli 149 nömrəli Fərmanının 2.1.2.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestrinin aparılması Qaydaları" təsdiq edilsin (əlavə olunur).

**2.** "Dövlət informasiya ehtiyatlarının reyestrinin aparılması qaydaları haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 17 may tarixli 89 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 5, maddə 468 (Cild I); 2024, № 9, maddə 1090) ləğv edilsin.

**3.** "Mərkəzi icra hakimiyyəti orqanları və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 11, maddə 1072 (Cild I), 2025, № 2, maddə 187; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 12 may tarixli 157 nömrəli Qərarı) ləğv edilsin.

**4.** Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi bu Qərarın 1-ci hissəsi nəzərə alınmaqla, Azərbaycan Respublikası Prezidentinin "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının və "Dövlət informasiya ehtiyatlarının və sistemlərinin Nümunəvi Əsasnaməsi"nin təsdiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" 2024-cü il 28 sentyabr tarixli 199 nömrəli Fərmanının 5.1-ci bəndinin tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 234** **Bakı şəhəri, 1 avqust 2025-ci il**

***"Ezamiyyə xərclərinin normaları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli 14 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli 14 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 1, maddə 44 (Cild I); 2024, № 4, maddə 453,; № 9, maddə 1085) ilə təsdiq edilmiş 2 nömrəli əlavə – "Ezamiyyə xərclərinin 1 günlük normasına əlavələr və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin kateqoriyası"nda "Qeydlər"in 1-ci hissəsinin 3-cü cümləsinə "mərkəzi icra hakimiyyəti orqanlarına bərabər tutulan orqanların rəhbərlərinin müavinlərinə," sözlərindən sonra "Azərbaycan Respublikası Baş prokurorunun müavinlərinə," sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.**

# Xalq yazıçısı Elçin Əfəndiyev son mənzilə yola salındı

## Müdriklik zirvəsi

**Sabir Rüstəmxanlı, Xalq şairi:**

**“Ölüm gözlə qaş arasındadır”, nahaq deməyiblər. Əvvəllər tez-tez zəngləşirdik. İstanbulda əməliyyat olunduğunu biləndən sonra daha çox mən zəng vurur, sağlamlıq durumunu soruşur, ürək-dirək verirdim. Rahatsızlığını gizlətmirdi. Sonuncu dəfə Milli Teatrda hazırlanan “ Baş” tamaşası haqqında danışdıq, “tezliklə görüşərik” – dedim. “ İstidir, dostların çoxu Bakıda deyil, tamaşanın təqdimat baxışını sentyabra saxladıq…” dedi. “Sentyabrda görüşərik!”- deyib vidalaşdıq. Görüşəcəyik, şübhəsiz, Elçinin yeni tamaşası və əziz, unudulmaz xatirəsi ilə… Elçin ədəbiyyatımızın, ictimai düşüncəmizin parlaq, təkrarsız simalarından biri kimi daim yaşayacaqdır. İki il öncə əziz dostum haqqında yazdığım bu yazını onu sevənlərə xatırladıram. Ruhu şad olsun.**



**Bu hüznlü gündə necə bir insan itirdiyimizi təsəvvür etmək üçün Elçin müəllimin 2 il əvvəl 80 illik yubileyi münasibətilə yazdığım məqaləni təqdim edirəm.**

*

“Görüşlərimizin birində Azərbaycan ədəbiyyatı tarixində ləyaqətli yer tutan Xalq yazıçısı Elçin “Ağlagəlməz işdir. Adam heç inana bilmir ki, tanıdığın cavan Anar gəlib 80-ə çatıb. Mən də 75-in qapısını döyürəm. Bu illər necə keçdi, anlamaq olmur”, – deyə zamanın amansızlığına heyrətini bildirdi.

Hamımızın yaşadığımız hisslərdir. Yaşla barışmaq çətindir. Di gəl, elə adamlar var ki, onlar aylarla, illərlə davam edən ağır yaradıcılıq zəhməti içində ömrün necə gəlib keçdiyini, doğrudan da, hiss edə bilmirlər. Onların zaman ölçüləri illər deyil, əsrlərdir.

Mənim 80 ilin 55 ilində Elçini Azərbaycan cəmiyyətinin daim üzdə olan şəxsiyyətlərindən biri kimi müşahidə etmək imkanım olub. Biz birinci kursa gələndə universiteti qurtarmağa hazırlaşan tələbə Elçindən – Azərbaycan Respublikasının Baş nazirinin müavini Elçinədək - keçdiyi və daim yüksəldiyi həyat yolu gözümün qabağındadır. Bu illər ərzində o, bir yazıçı kimi Azərbaycanda və ölkəmizin sərhədlərindən çox-çox uzaqlarda tanınıb, müxtəlif dünya dillərində onlarla kitabı nəşr edilib; Azərbaycan teatrları səhnəsində bir-birindən dəyərli və günümüzün aktual problemlərinə toxunan pyesləri tamaşaya qoyulub; ədəbiyyatşünaslıq sahəsində bənzərsiz mövqeyi ilə seçilən və cəsarətli elmi axtarışları ilə örnək sayıla bilən elmi əsərlərini yazıb; esseləri mətbuat səhifəsindən düşməyib; uşaq hekayələri və nağılları ilə uşaq ədəbiyyatımızın çox da qədim olmayan tarixini zənginləşdirməyə çalışıb. Bütün bunlarla yanaşı, o, ölkənin ictimai-siyasi həyatından kənarda qalmayıb. Hələ sovetlər dönəmində Elçinin başçılıq etdiyi “Vətən” Cəmiyyəti xaricdə yaşayan soydaşlarımızla əlaqələrimizin qurulması yolunda ilk mühüm addımlarını atdı və yurd həsrəti ilə yaşayan bir çox mühacir qardaşımızın, onların ailə üzvlərinin Azərbaycana gəlməsinə, tanınmasına şərait yaratdı. “Vətən” cəmiyyətinin orqanı olan “Vətən” qəzeti mətbuatın milli dəyərlərə və milli ideallara yaxınlaşmasında mühüm mərhələ oldu. Uzun illər Elçin bəy Nazirlər Kabinetində Baş nazirin müavini kimi səmərəli fəaliyyət göstərdi.

Kitabxanamda Elçinin aldığım və ya bağışladığı çox kitabı var.

Düzünü deyim ki, bəzən mənim oxu sürətim onun yazı sürətinə çatmır. Amma Elçinin şəxsiyyətinə və yaradıcılığına xüsusi rəğbətim məni, onun qələmindən çıxan bütün yazılara həssaslıqla yanaşmağa və bu yazıları izləməyə vadar edib. Kitab rəfimdə onun on cildliyini İlyas müəllimin çoxcildliyi ilə yanaşı qoymuşam. Bu, təkcə əlifba tələbindən və onların hər ikisinə olan xüsusi sayğımdan irəli gəlmir. Bu, həm də bir ailənin, yəni atayla oğulun Azərbaycan ədəbiyyatına nə boyda xidmət göstərdiklərini görmək və dəyərləndirmək baxımından maraqlı görüntüdür. Diqqəti çəkən başqa bir cəhət isə ata ilə oğulun yurdun taleyinə, tarixə, günümüzdə baş verən hadisələrin dramatik qatlarına münasibətdə bu qədər bənzər olduqları halda, üslubca fərqli və müxtəlif olmalarıdır. İlyas Əfəndiyevin lirik-psixoloji, romantik nəsrinin təsirindən çıxmaq o qədər də asan deyil. Amma Elçin bunu bacarmış və özünəməxsus nəsr üslubu yarada bilmişdir. O, şəhərdə boya-başa çatıb və bu mühitin təsiri ilə formalaşan, danışıq üslubuna yaxın, yarı realist, yarı yumorlu təhkiyə tərzi yaratmışdır. Buna görə də mətbuata çıxan gündən onun bəzi əsərləri Azərbaycan nəsrinin böyük nümunələri sırasında, qəhrəmanları da Mirzə Cəlilin və Haqverdiyevin qəhrəmanları ilə yanaşı yer qazanmışdır...

Ötən yüzilin 60-cıları haqqında çox yazılıb. Elçin özü də öz ədəbi nəslinin və onlardan ayırmadığı 70-ci illərin, yəni mənim ədəbi yaşıdlarımın yaradıcılığını dəfələrlə incələyib, həm ümumi mənzərə, həm də ayrı-ayrı müəlliflər və əsərlər haqqında çox yazıb.

Elçin ilk hekayələrini 3-4-cü siniflərdə oxuyarkən yazdığını qeyd edir. Deməli, bir ömrün 60 ili qələmə, sözə verilib. Nəticə, kobud şəkildə desək, "ədəbi məhsul" göz qabağındadır. O, cəmi yarım səhifəlik hekayələrdən - povestlərə və iri həcmli romanlaradək (“Mahmud və Məryəm”, “Ağ dəvə”, “Ölüm hökmü”, “Baş” və s.), kiçik pyeslərdən (“Qızıl”, “Ordenli yazıçıyla görüş” və s.) - milli teatrımızın səhnəsindən düşməyən pyeslərə qədər, ayrı-ayrı əsərlər haqqında rəylərdən, məqalələrdən - iri monoqrafiyalara qədər, yazıçılarla bağlı yumoristik əhvalatlardan İlyas Əfəndiyevin şəxsiyyət və yaradıcılığı haqqında sənədli romanacan, esselərdən ədəbi düşüncələrədək, uşaq nağıllarından dünya ölkələrinə səyahət notlarına kimi - nəsrin, dramaturgiyanın, ədəbi tənqidin və ədəbiyyatşünaslığın bütün növlərində, belə demək mümkünsə, bütün janrlarında yazmış, bununla yanaşı, Azərbaycan ədəbi prosesinin və ictimai gəlişmələrin heç bir hadisəsini gözdən qaçırmamışdır.

Eyni zamanda, dünya ədəbiyyatının mürəkkəb mənzərəsinin əsas şəxsiyyətləri və ciddi yaradıcılıq nümunələri də bu illərdə Elçinin diqqət mərkəzində olmuşdur, onları izləmiş və yetkin bir təfəkkürlə, dünyanın böyük qələm sahiblərindən zərrəcə geri qalmayan bir səviyyədə dəyərləndirmişdir.

Belə zəngin və çoxcəhətli yaradıcılıq yolunu gərəkincə izləmək və layiqincə qiymətləndirmək çox çətindir. Buna görə də Elçinin məndə olan kitablarını vərəqləyəndə, bu duyğunu özümdən uzaqlaşdıra bilmirəm: Mənə elə gəlir ki, haqqında nə qədər yazılsa da, onun istedadının və ədəbi-elmi yaradıcılığının qiyməti tam verilməmiş, onun ədəbi üslubunun nəsrimizin ümumi mənzərəsindəki yeri layiqincə göstərilməmişdir. Bu mənada ədəbi tənqid və biz qələm dostları hələ ona borcluyuq.

Yuxarıda yazdığım kimi, Elçinin demək olar ki, bütün əsərləri, əksəriyyəti də avtoqrafla, məndə var. O, həmişə diqqətli olub. Həm də yeni əsərlərini bağışlarkən dost ərkilə “hökmən oxu, fikrini de!” söyləməyi də unutmayıb. Bu həm də öz yeni əsərindən arxayınçılığın əlaməti kimi də səslənmişdir; yəni “bilirəm, bəyənəcəksən!”

Bu kitabları, eləcə də Elçinin XIX yüzil və sovet dövrü Azərbaycan ədəbiyyatı haqqında yüksək nəzəri ümumiləşdirmə ilə qələmə alınmış monoqrafiyalarını, aydın vətəndaş mövqeyi ilə yazılmış “Yazıçının dəftərindən” adlı pərakəndə, lakin vahid ədəbi-estetik ideala xidmət edən yazılarını, esselərini, məqalələrini nəsri və dramaturgiyası ilə yan-yana qoyanda onun bu janrların hansında daha güclü və böyük olduğunu müəyyənləşdirməkdə çətinlik çəkirsən. Çünki nasir, dramaturq, ədəbiyyatşünas, filosof Elçinlərin hər birinin öz özəlliyi və gözəlliyi var. Bu barədə düşünərkən qələm dostumuzun işgüzarlığı, yorulmadan çalışması, dünya ədəbiyyatını bu qədər yaxından izləməsi, fəlsəfi ümumiləşdirmə qabiliyyəti, müdrikliyi və bütün bunların arxasında dayanan işıqlı təfəkkürü, xeyirxahlığı, insan sevgisi ilə dolu olan yazıçı ruhu ilə qürur duyursan.

80-ci illərin sonlarına doğru İlyas Əfəndiyevlə ara-sıra görüşürdüm. Böyük yazıçımız məni sorğu-suala tutur, ədəbi və ictimai gedişata yanaşmamla maraqlanırdı. Bu söhbətdə onun incə bir şəkildə Elçinin yaradıcılığına, övladlarının ictimai həyatdakı yeri və xalqın buna münasibəti ilə maraqlandığını da sezirdim.

İlyas müəllim xalq adamı idi və həmişə haqqı, ədaləti, sosial bərabərliyi, el birliyini, Azərbaycanın milli idealları, bütövlüyü uğrunda mübarizəni tərənnüm etmişdi və xalq hərəkatının yanında idi. Elçinin vətəndaşlıq mövqeyi, ədəbi və ictimai proseslərə münasibəti haqqında dediklərimdən ustad yazıçımızın razı qaldığını hiss edirdim.

Bu gün İlyas Əfəndiyev ömrünün 80-ci baharını şöhrətin və oxucu sevgisinin zirvəsində qarşılayan, ədəbiyyatımızı öz yaradıcılığı ilə zənginləşdirən oğlunu görsə, qüruru yerə-göyə sığmazdı. Bir yazıçı, bir övlad üçün millətinə sədaqətlə xidmətdən və atalarımızın ruhunu sevindirməkdən böyük xoşbəxtlik yoxdur. Elçinin yazıçı və övlad kimi ən böyük qazanclarından biri budur.

80 illik bir ömrün bəzi səhifələrini xatırlarkən məni sevindirən və heyrətə salan cəhətlərdən biri də Elçinin bir insan olaraq bu illər ərzində sabit qalması, dəyişilməməsidir. Tələbə Elçin nə qədər səmimi, dürüst, sözünü hər kəsin üzünə deyən, yüksək intellekti ilə seçilən bir adam idisə, Baş nazirin müavini olarkən də eləydi, bu gün 80 yaşında da həmin xüsusiyyətlərini qoruyub-saxlamışdır.

Elçini yaxından tanıyan adamlar onun nə qədər gözəl insan olduğunu yaxşı bilirlər. O diqqətli, həssas, xeyirxah adamdır. İstedada qiymət verməyi bacarır. İmkan daxilində ədəbi gedişatın ən vacib saydığı meyil və axarlarına vaxtında müdaxilə etməyə və öz mövqeyini bildirməyə çalışır”.





**Avqustun 4-də Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrında görkəmli yazıçı, nasir, dramaturq, tənqidçi, ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Xalq yazıçısı, “İstiqlal” ordenli, dövlət və ictimai xadim Elçin Əfəndiyevlə vida mərasimi keçirilib.**

Vida mərasimində Baş nazir Əli Əsədov, dövlət və hökumət rəsmiləri iştirak ediblər.

Mərhumun cənazəsi Gənc Tamaşaçılar Teatrının matəmsayağı bəzədilmiş səhnəsində postament üzərinə qoyulub.

Postamentin ətrafına Azərbaycan Prezidenti İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyeva, dövlət və hökumət təşkilatları adından əklil düzülüb.

Xalq yazıçısı Elçin Əfəndiyevin həmkarları, dostları, tanınmış elm və mədəniyyət xadimləri, Milli Məclisin deputatları, mərhumun əsərlərinin çoxsaylı oxucuları teatrın binasına gələrək, unudulmaz nasirə son borclarını veriblər.

Vida mərasimində çıxış edən mədəniyyət nazirinin müavini Səadət Yusifova bildirib ki, Xalq yazıçısı, dövlət xadimi Elçin Əfəndiyevin vəfatı yalnız ailəsinin və yaxınlarının deyil, eyni zamanda, xalqımızın, ədəbi sözümüzün və ziyalı dünyamızın ağır itkisidir.

Elçin Əfəndiyevin özünəməxsus və zəngin yaradıcılığı ilə ədəbiyyatımızın inkişafında silinməz iz qoyduğunu söyləyən S.Yusifova deyib ki, onun ömür yolu böyük bir dövrün ədəbi və mədəni salnaməsidir – XX əsrin ikinci yarısından XXI əsrə qədər uzanan çoxşaxəli yaradıcılıq yoludur.

“Elçin müəllim yazıçı kimi həm klassik ənənəni qorudu, həm də müasir ədəbiyyata yeni nəfəs gətirdi. Onun əsərlərində biz tarixi hadisələri, insan talelərini, zamanın mənzərəsini və millətimizin mübarizə yolunu gördük. Bu əsərlər xalqın yaddaşını və mənəvi dəyərlərini yaşadan sənət nümunələridir. Təsadüfü deyil ki, bu gün görkəmli yazıçımızın “Mahmud və Məryəm”, “Ağ dəvə”, “Bayraqdarlar”, “Ölüm hökmü”, “Baş” kimi əsərləri, eləcə də çoxsaylı hekayələri, pyesləri, eləcə də elmi-nəzəri yazıları milli ədəbiyyatımızın qızıl fondunun incilərindən hesab olunur.

Görkəmli yazıçımızın və ictimai xadimimizin xidmətləri dövlətimiz tərəfindən hər zaman yüksək qiymətləndirilib. O, Xalq yazıçısı fəxri adına (1998), “İstiqlal” (2003), Şərəf (2013), “Şöhrət” (2018) ordenlərinə, Azərbaycan Respublikası Prezidentinin fəxri diplomuna (2023), eləcə də bir çox xarici ölkələrin mükafatlarına layiq görülüb.

Elçin Əfəndiyevin zəngin irsi əbədi olaraq yaşayacaq, ədəbiyyatımıza bəxş etdiyi əsərlər gələcək nəsillərə yol göstərəcək, onun xatirəsi xalqın yaddaşında daim uca tutulacaqdır”, – deyə mədəniyyət nazirinin müavini vurğulayıb.

Mərasimdə Xalq yazıçıları Anar, Kamal Abdulla və Çingiz Abdullayev, Azərbaycan Teatr Xadimləri İttifaqının İdarə Heyətinin sədri Xalq artisti Hacı İsmayılov çıxış edərək Elçin Əfəndiyevin vəfatını böyük kədər hissi ilə qarşıladıqlarını söyləyiblər.

Xalq yazıçısı Elçin Əfəndiyev bənzərsiz yaradıcılığından danışan natiqlər bildiriblər ki, o, yaradıcılığa ötən əsrin 60-cı illərində başlayıb və Azərbaycan ədəbiyyatında xüsusi yer tutan “60-cılar” ədəbi nəslinin ən aparıcı nümayəndələrindən biri olub. Yazıçı milli ədəbiyyata yeni ab-hava, yeni dəyərlər və bədii ifadə vasitələri gətirib, ədəbi mühitin inkişafında müstəsna rol oynayıb.

Onun nəsr əsərləri, hekayə və povestləri onlarla xarici ölkədə tərcümə edilərək nəşr olunub, Azərbaycan ədəbiyyatının beynəlxalq səviyyədə təbliğində mühüm rol oynayıb. Elçin Əfəndiyev milli ədəbiyyatımızı xaricdə layiqincə təmsil edən ən tanınmış simalardan biri olub.

Diqqətə çatdırılıb ki, Elçin Əfəndiyev yalnız yazıçı kimi deyil, həm də ictimai-siyasi xadim kimi Azərbaycan dövlətçiliyinin və mədəniyyətinin inkişafında böyük xidmətlər göstərib. O, 1993–2018-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin müavini vəzifəsində çalışaraq ölkənin ictimai-siyasi və mədəni həyatında mühüm rol oynayıb. Bununla yanaşı, ötən əsrin 80-ci illərinin sonlarında “Vətən” cəmiyyətinin sədri kimi xaricdə yaşayan azərbaycanlıların birliyinin və tarixi vətənlə əlaqələrinin möhkəmlənməsində, diaspor hərəkatının formalaşmasında əvəzsiz xidmətlər göstərib.

Xüsusi qeyd edilib ki, Elçin Əfəndiyevin xalqımızın tarixi, taleyi və bədii irsi ilə bağlı olan, uzaq və yaxın keçmişimizin mənzərəsini canlandıran əsərləri XX əsr Azərbaycan ədəbiyyatında özünəməxsus yer tutur. Yazıçının yaradıcılığı yalnız Azərbaycanda deyil, sərhədlərimizdən kənarda da elmi-tədqiqat obyektinə çevrilir. Yaradıcılığına metafizik realizm üslubunda hekayələrlə başlayan yazıçı Azərbaycan ədəbiyyatının qızıl fonduna tarixi romanları, absurd dramları, sürrealist və realist hekayə və povestləri ilə daxil olub. Onun işıqlı xatirəsi xalqımızın qəlbində daim yaşayacaq.

Milli Məclisin deputatı, Mədəniyyət komitəsinin sədr müavini Günay Əfəndiyeva ailələri adından atasının yaradıcılığına hər zaman böyük diqqətlə yanaşan Azərbaycan Prezidenti İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlığını bildirib.

Belə ağır gündə onları tək qoymadığına görə bütün iştirakçılara təşəkkürünü bildirən Günay Əfəndiyeva böyük yazıçı olmaqla yanaşı, xoşbəxt bir ailə modeli yaratdığına, hər zaman xeyirxahlığı, alicənablığı, yüksək insani keyfiyyətləri ilə könüllərdə özünə əbədi sevgi quran atasına borclu olduqlarını söyləyib.

Xalq yazıçısı Elçin Əfəndiyevin cənazəsi Gənc Tamaşaçılar Teatrının binasından qaldırılaraq Fəxri xiyabana gətirilib. Burada mərhumun ruhuna dualar oxunub. Əziz xatirəsi xalqımızın qəlbində yaşayacaq böyük yazıçı Elçin Əfəndiyevin cənazəsi torpağa tapşırılıb. Məzarı üzərinə əklillər, gül dəstələri düzülüb.

Allah rəhmət eləsin!

***XQ***

*Vida sözü*

## Azərbaycan ədəbiyyatının böyük itkisi

**Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar:** “Mənim üçün çox böyük itki, çox böyük ağrıdır. İndiyə qədər özümə gələ bilməmişəm. Bir yazı da yazmışam, “Ədəbiyyat qəzeti”ndə çıxacaq.

Mənim bir neçə yaxın dostum var, hamısı mənə əzizdir, onları heç vəchlə bir-birinə qarşı qoymaq istəməzdim. Amma atamın vəfatı günündə də, anamın keçindiyi gecədə də yadıma ilk düşən Elçin oldu...

Söz sənətimizi həm yazdığı bədii əsərlərlə zənginləşdirən, həm də başqa yazıçılarımızın, o sıradan gənc qələm sahiblərinin yazılarını mütəmadi izləməsilə, onları obyektiv və nüfuzlu dəyərləndirməsilə seçilən ədəbiyyat adamıdır. Müxtəlif işlərdə çalışmasına rəğmən vaxt və imkan tapıb mətbuatı bu qədər diqqətlə izləməsi, Azərbaycanda, Rusiyada, Türkiyədə çıxan kitabları mütaliə etməsi, dünya ədəbiyyatının həm klassik, həm də ən yeni örnəklərinə dəyişməz marağı – Elçinin qibtə ediləcək özəlliyi idi.

Böyük nasiri, dramaturqu, tənqidçini, ictimai xadimi, qayğıkeş ailə başçısını itirdik. Mən isə bizim nəsildən olan sonuncu yaxın dostumu itirdim”.

**Şeyxülislam Hacı Allahşükür Paşazadə:** “Elçin müəllim uzun illər siyasi və ədəbi fəaliyyətində dövlətimizə və xalqımıza xidmət edərək, hamının dərin məhəbbətini qazanmışdır. Bu böyük zəhmət tələb edən fəaliyyət nə qədər çətin olsa da, bir o qədər də şərəflidir. Belə zəngin fəaliyyət təkcə xalqın yaddaşına və tarixin səhifələrinə yazılmaqla bitmir, həm də milli mədəniyyətin inkişafına və ölkənin rifahının yüksəlməsinə xidmət etdiyi üçün savab əməl kimi Aləmlərin Rəbbi tərəfindən də yüksək dəyərləndirilir. “Onların yaxşılıq naminə etdikləri işlərdən heç biri inkar edilməz. Şübhəsiz ki, Allah müttəqi olanları tanıyır!” (Ali-İmran, 115)”.

**Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) Baş katibi Sultan Raev:** “Azərbaycan ədəbiyyatı və mədəniyyətinin görkəmli simalarından biri, tanınmış yazıçı və dövlət xadimi Elçin Əfəndiyevin vəfatı xəbərini dərin kədərlə qarşıladım. O, Azərbaycan və bütün Türk dünyasının ədəbi irsinə misilsiz töhfə verib. Elçin Əfəndiyevi Türk dünyasının ən tanınmış qələm ustalarından biri idi və onun yaradıcılığı xalqın yaddaşında dərin iz buraxmışdır. “Mahmud və Məryəm”, “Ağ dəvə” və “Ölüm hökmü” kimi əsərləri çox məşhur idi.

Elçin Əfəndiyev xalqına yalnız qələmi ilə deyil, həm də dövlət xidmətindəki vəzifə borcunu yerinə yetirməklə xidmət etmiş, Azərbaycanın mədəni inkişafında və Türk dünyasının birlik ruhunun möhkəmləndirilməsində mühüm rol oynamışdır. Yazıçının ailəsinə, yaxınlarına, Azərbaycan xalqına və bütün Türk dünyasına başsağlığı verirəm”.

**Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli:** “Elçin yaradıcılığı kimi özü də parlaq, səmimi bir insandır. Çoxlu dostları, tanışları var. Ev-eşiyi həmişə qonaq-qaralı olub. Ona görə “olub” deyirəm ki, ictimai, dövlət vəzifələri onu yaxınlarından, dostlarından, hətta yaradıcılığından belə qismən uzaq salıb. O, bir müddət Respublika Yazıçılar İttifaqının katibi olub, qələm sahiblərimizə yaxın sirdaşlıq, məsləhətçilik, yolgöstərənlik edib. Sonra “Vətən” cəmiyyətinin sədri kimi fəaliyyət göstərən Elçin müstəqil Azərbaycanımızın beynəlxalq aləmdə atdığı ilk addımlarda yaxından iştirak edib.Allah o dünyasını versin”.

**Xalq yazıçısı, akademik Kamal Abdulla:** “Elçin Azərbaycan ədəbiyyatını dünyada təmsil edən şəxsiyyətdir. O, çoxsaylı əsərləri ilə oxucuların qəlbini çoxdan fəth edib. Elçin yeni baxış bucağının yazıçısıdır. Onun hər hansı əsəri bəzən çox üst qatda yüksək intellektual potensialın bərqərar olduğu bir bədii məkandır. Elçin ədəbiyyatımızda görülməyən işləri görən səhmanlayıcıdır. Onun sözün əsl mənasında, titanik və yorulmaz fəaliyyəti çoxumuz üçün ibrətli və eyni zamanda, mənəvi-məntiqi boşluqları doldurmağa yönəlmiş işıqlı bir energiyaya qoşulub. Və nəhayət, Elçin sözünün arxasınca düşüb, haralara getmək mümkün imiş. Elçin ötürücüdür. Böyük dünya mədəniyyətinə, saflığa, işığa yönəldən dramaturqdur. Elçin Azərbaycan ədəbiyyatından Ədəbiyyata sıçrayış etməyi bacarmış bir sənətkardır. Adı artıq Azərbaycan ziyalılığının qızıl fonduna düşmüş bir sənətkardır”.

**Akademik Nizami Cəfərov:** “Məlum olduğu kimi, “Elçinin yaradıcılığı” anlayışı nə qədər genişmiqyaslıdırsa, o qədər də çoxşaxəlidir: Elçin yazıçı, ədəbiyyatşünas-alim, publisist, ictimai xadim (və dövlət xadimi) idi – bu sahələrin hər birində böyük nüfuz qazanmışdı. Ancaq özünün də dəfələrlə etiraf etdiyi kimi, ilk növbədə, yazıçı idi... Elçinin yazıçı üslubuna onun alimliyi, publisistliyi, ictimai (və dövlət) xadimliyi nə qədər təsir edirdisə, İnsan (Şəxsiyyət!) kimi son dərəcə səmimiliyi, ünsiyyətcilliyi, ədəbi istiqanlılığı da o qədər (bəlkə də, daha çox) təsir göstərirdi...

Elçinin ədəbi-tənqidi məqalələri ədəbi-bədii fakta analitik münasibət nümunəsidir, mən bunu bütün məsuliyyəti ilə deyərəm, bu məqalələrdə təhlilin sosial planı da var, zaman həssaslığı da; milli əyanilik də var, tipoloji istinad da; normativliyi nəzərə almaq da var, fərdi üslub faktına ehtiram da; nəhayət, müəllifin öz təbiri ilə desək, iddia da var, imkan da. Azərbaycan (və ümumən dünya) ədəbiyyatının klassik bir hadisə-fenomeni var: Elçinin yaradıcılığı!.. Və əsas bir də odur ki, bu yaradıcılığın diaxroniyası ilə sinxroniyası arasında çox güclü (və təbii!) əlaqə mövcuddur...”

**Ədəbiyyatşünas, filologiya elmləri doktoru Vaqif Yusifli:** “Böyük itki... Azərbaycan ədəbiyyatında doğrudan da böyük itki baş verdi. Nəinki ədəbiyyatımıza, bütün xalqımıza...

Onunla bağlı çoxlu xatirələrim var. 1979-cu ilin 26 oktyabrında mən Nizami adına Ədəbiyyat İnstitutunda filologiya elmlər namizədi alimlik dərəcəsini almaq üçün dissertasiya müdafiə edirdim. Elçin mənim opponentim oldu. Və həmin rəyini “Ədəbiyyat” qəzetində də dərc etdirdi. Sonralar biz tez-tez görüşürdük: Yazıçılar İttifaqında, ədəbi məclislərdə, “Vətən” cəmiyyətində, Nazirlər Kabinetində. Həmişə çalışırdı ki, mənə nədəsə kömək etsin, qayğı göstərsin. Ancaq bizim münasibətlərimiz bu qayğılardan, bu sevgilərdən qat-qat uca idi – bizi ədəbiyyata sonsuz məhəbbət birləşdirirdi. O, başdan ayağa söz adamı idi. 1999-cu ildə mən və qardaşım Cavanşir Yusifli Elçinin yaradıcılığı haqqında “Bu nə sehirdir belə” monoqrafiyasını çap etdirdik. Bir tənqidçi kimi mən Elçinin yaradıcılığı haqqında 10-a qədər məqalə yazmışam. Elçin də mənim tənqidçilik fəaliyyətim haqqında 2 məqalə qələmə alıb. Elçin bizim ədəbi nəslin sözün əsl mənasında hamisi idi.

*

Xalq yazıçısı Elçin bizim qəzetimizin də dostu idi. Keçən il Azərbaycan Yazıçılar Birliyinin 90 illiyi ərəfəsində ondan müsahibə almışdıq. Ona daha doğma olan bu məkan haqqında hələ uşaqlıq illərindən üzübəri xatirələrini bölüşmüşdü. İmran Qasımov, Mirzə İbrahimov, Balaş Azəroğlu, İsmayıl Şıxlı, Hüseyn Abbaszadə, Cabir Novruz, İshaq İbrahimov kimi unudulmaz həmkarlarımla birlikdə Yazıçılar İttifaqında katib işlədiyini xatırlamış, Əbülqasım Hüseynzadə, Qulam Məmmədli, Əli Səbri, bilavasitə təmasda olduğu Əli Vəliyev, Süleyman Rəhimov, Əbülhəsən, Süleyman Rüstəm, Rəsul Rza, Osman Sarıvəlli, Əhməd Cəmil, bir çox başqa yazıçı və şairlərlə təmaslarını yada salmışdı.

Ötən ayın 13-də isə qəzetimizdə Elçinlə “Deyəsən, dünya bəşəri dəliliyə gedir?!” adlı bir səhifəlik maraqlı müsahibə dərc olunmuşdu. “XQ” üçün silsilə məqalələr yazmağa da söz vermişdi, təəssüf...

Son vaxtlar bağda qalırdı. Telefon söhbətlərimizin birində ona dedim ki, qəzetimizin 105 illiyi ilə bağlı araşdırma yazısında atası, unudulmaz Xalq yazıçısı İlyas Əfəndiyevin vaxtilə “Kommunist”də çıxan yazılarını da adbaad xatırlamışıq. Elçin müəllim təşəkkür edərək: “Xahiş edirəm, o qəzetdən birini ayırın, – dedi. – Sürücümü göndərərəm, götürər. Atamın yenidən işlənən biblioqrafoyasına daxil edərəm”. Amma görünür, xəstəliklə mübarizəsi üzündən onun üçün ayırdığımız həmin qəzeti alıb oxuması mümkün olmadı...

Bu gün artıq işıqlı xatirəyə dönən Xalq yazıçısı Elçin ölməz əsərlərində, bir də onu tanıyanların yaddaşında yaşayacaq.

***Əli NƏCƏFXANLI***
***XQ***

**Akademik Mustafa Topçubaşov – 130**

# Azərbaycan təbabətinin əfsanəsi

**Azərbaycan tibb elminin qədim tarixi və görkəmli simaları olsa da, bu elm sahəsi əsasən XX əsrdə sistemli şəkildə formalaşmış, müstəqil və geniş bir istiqamətə çevrilmişdir. Son yüzillikdə Azərbaycanda tibb sahəsində elmi məktəblər yaranmış, dünya şöhrətli alim-həkimlər meydana çıxmışdır. Azərbaycan Oftalmologiya elminin banisi, akademik Zərifə Əliyeva, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvləri seçilmiş Cəlil Hüseynov (patoloji anatomiya), Cahangir Abdullayev (kardiologiya), Zülfüqar Məmmədov (cərrahiyyə), Mirzə Rza Nəsirov (parazitologiya), Abdulla Qarayev (fiziologiya), Rəhim Rəhimov (radiologiya), Əhliman Əmiraslanov (onkologiya), Mir Məhəmməd Cavadov (urologiya), Böyükkişi Ağayev (eksperimental cərrahiyyə), Adilə Namazova (uşaq xəstəlikləri), Fazil Qurbanov (daxili xəstəliklərin cərrahiyyəsi) kimi görkəmli alim-həkimlər tibb elminin müxtəlif sahələrində elmi məktəb yaratmışlar. Bu adlı-sanlı, parlaq alim-həkimlərin, akademiklərdən hər birinin elmin və təbabətin tarixində böyük yeri və mühüm xidmətləri vardır.**



Ölkəmizdə tibb elmləri sahəsində akademik Mustafa bəy Topçubaşov təbabətin ağsaqqalı səviyyəsində qəbul olunur. Məşhur həkim, görkəmli elm xadimi, böyük elm təşkilatçısı, Azərbaycan tibb elmi sahəsində praktik cərrahiyyə məktəbini yaratmış, akademik Mustafa Topçubaşov (1895-1981) təbabətin bütün sahələri üzrə ən nüfuzlu elmi məsləhətçi olmaqla bərabər, həm də respublikamızda görkəmli ictimai xadim və böyük ziyalı nüfuzu qazanmışdır.

Təsadüfi deyildir ki, sovet hökumətinin prinsiplərinə zidd olmasına baxmayaraq, ona cəmiyyətdə Mustafa bəy deyə müraciət etmişlər. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev akademik Mustafa Topçubaşovun xidmətlərinə yüksək qiymət vermişdir. Görkəmli dövlət xadimi Heydər Əliyev akademik Mustafa bəy Topçubaşovun anadan olmasının 100 illik yığıncağına həsr edilmiş təntənəli gecəsində onun çoxcəhətli fəaliyyətini və xidmətlərini yüksək dəyərləndirərək demişdir: "Mustafa bəy Topçubaşov nadir bir sima və nadir bir insan olmuşdur. Azərbaycan xalqının formalaşmasında, milli təfəkkürün inkişafında, xalqımızın ağır xəstəliklərdən qurtarmasında, elmimizin, təhsilimizin inkişafında böyük xidmətlər göstəribdir… O, böyük bir məktəb – cərrahlıq məktəbi, təbiblər məktəbi, alimlər məktəbi yaradıbdır… O, insanda mən həmişə nuranilik, alicənablıq, yüksək ziyalılıq gördüm. Bəzən mənə elə gəlirdi ki, Mustafa bəy Topçubaşov anadan ziyalı kimi doğulub…

Mustafa bəy Topçubaşovun həyatı, yaradıcılığı, qoyduğu irs böyük təcrübə mənbəyidir, böyük mənəviyyat məktəbidir… Onun adı Azərbaycanın gələcək nəsilləri üçün də örnək olaraq, daim yaşayacaqdır".

Görkəmli cərrah-alim ictimai və dövlət xadimi Mustafa bəy Ağabəy oğlu Topçubaşov 1895-ci ildə Qərbi Azərbaycanın Göygümbəd kəndində anadan olmuşdur. İrəvan şəhərində gimnaziyanı bitirdikdən sonra 1914-1919-cu illərdə Mustafa bəy Kiyevdə Tibb Universitetində təhsil alıb, ali təhsilli həkim ixtisasını qazanmışdır. O, bir müddət Naxçıvan və Bakı xəstəxanalarında cərrah kimi fəaliyyət göstərmişdir. Elmə böyük maraq göstərən Mustafa bəy Topçubaşov 1920-1923-cü illərdə Bakı Universitetinin Tibb fakültəsinin cərrahlıq klinikasında ordenator, 1923-1930-cu illərdə fakültə cərrahlığı klinikasında assistent işləmişdir. Mustafa bəy Topçubaşov 1930-cu ildə "Molyariya mənşəli splenomeqaliyanın klinikası, patologiyası və cərrahi müalicəsi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, az sonra professor elmi adını almışdır. Tibb Universitetinin cərrahiyyə kafedrasının müdiri seçilərək, müxtəlif sahələrdə çalışmasına baxmayaraq, ömrünün sonuna qədər həmin vəzifəni şərəflə yerinə yetirmişdir.

Mustafa bəy Topçubaşov 1937-ci ildə dünya anesteziologiya elmi tarixində ilk dəfə olaraq analgeziya adlanan orijinal keyitmə üsulunu kəşf etmişdir. Özünün sadəliyinə və tətbiq edilməsinin asanlığına, narkoz zamanı rast gəlinən bir sıra mənfi halların aradan qaldırılmasına imkan verdiyinə görə bu metod təbabətdə uğurla sınaqdan çıxarılmış və geniş tətbiq edilmişdir. SSRİ Xalq Səhiyyə Komissarlığı Elmi Tibbi Şurası Mustafa bəy Topçubaşovun ixtirasının "Analgezm" adı altında istehsal edilməsinə icazə vermişdir. Sovetlər İttifaqında geniş yayılmış, xüsusilə bu ixtiraya görə 1964-cü ildə akademik Mustafa bəy Topçubaşov A.V. Vişnevski adına xatirə medalı ilə təltif olunmuşdur.

Bundan başqa, Mustafa bəy Topçubaşovun Böyük Vətən Müharibəsi illərində cəbhədə yaralanmış əsgər və zabitlərin bədənində qalmış qəlpələrin rentgensiz müəyyən edilməsi üçün ixtira etdiyi tibbi cihaz hərbi səhra şəraitində müalicə işlərinin aparılmasında çox böyük fayda vermişdir. Mustafa bəy Topçubaşovun bu ixtirası beynəlxalq aləmdə maraqla qarşılanmış, Azərbaycan aliminə dünya şöhrəti qazandırmışdır. Bundan başqa, o, müharibə dövründə arxa cəbhə kimi Bakı şəhərinə göndərilmiş minlərlə yaralını cərrahiyyə əməliyyatından keçirərək həyata qaytarmışdır. Ona görə də Böyük Vətən müharibəsində əldə olunan qələbədəki xidmətləri nəzərə alınaraq akademik Mustafa bəy Topçubaşov "Qızıl ulduz" ordeni, "Qafqazın müdafiəsinə görə", "Almaniya üzərində qələbəyə görə", "1941-1945-ci illər Böyük Vətən Müharibəsində rəşadətlə əməyə görə" medalları ilə təltif olunmuşdur. Eyni zamanda, Mustafa bəy Topçubaşovun ixtiraları Beynəlxalq Nobel mükafatına təqdim edilmişdir. Görkəmli alimin adı 1945-ci ildə yaradılmış Azərbaycan Elmlər Akademiyası ilə üzvü surətdə bağlıdır. Mustafa bəy Topçubaşov 1945-ci ildə Akademiyaya seçilmiş 15 görkəmli alimdən biri olmuşdur. Akademik Mustafa bəy Topçubaşov 1951-ci ildə həyatının sonuna qədər Azərbaycan Elmlər Akademiyasında akademik-katib, vitse-prezident vəzifələrində çalışmış, özünün elmi məktəbini yaratmış elmin inkişafına böyük töhfələr vermiş, yeni elmi nəsillərin yetişməsində mühüm xidmətlər göstərmişdir. Akademik Mustafa bəy Topçubaşov 1949-cu ildə SSRİ Tibb Akademiyasının müxbir üzvü, 1960-cı ildə isə həqiqi üzvü seçilmişdir.

Çoxcəhətli elmi fəaliyyətə malik olan akademik Mustafa bəy Topçubaşov 200 elmi əsərin, 8 monoqrafiyanın, 5 cildlik cərrahlığa dair dərsliyin müəllifidir. Mustafa bəy Topçubaşovun "Tətbiqi cərrahlıq" dərsliyi bir neçə dəfə təkrar nəşr olunmuşdur. Həmin dərslikdən indi də Tibb Universitetində istifadə olunur. O, ardıcıl elmi və praktik fəaliyyətlə yanaşı tibb üzrə kadrların hazırlanması sahəsində də mühüm xidmətlər göstərmişdir. Görkəmli alimin elmi rəhbərliyi ilə 35 nəfər namizədlik və doktorluq dissertasiyası müdafiə etmişdir.

Akademik Mustafa bəy Topçubaşov 1951-ci ildə Bolqarıstan Elmlər Akademiyasının müxbir üzvü, 1954-cü ildə XI Lissabon Konqresində Ümumdünya Cərrahlar Assosiasiyasının üzvü seçilmişdir. O, həm də Ümumittifaq Cərrahlar Cəmiyyətinin üzvü, Vişnevski adına Cərrahlar Cəmiyyətinin fəxri üzvü, "Böyük Tibb Ensiklopediyası"nın redaktorlarından biri "Abdominal cərrahiyə" jurnalının direktoru kimi nüfuzlu qurumlarda Azərbaycanı yüksək ləyaqətlə təmsil etmişdir. Bundan başqa, Mustafa bəy Topçubaşovun Böyük Vətən Müharibəsi illərində cəbhədə yaralanmış əsgər və zabitlərin bədənində qalmış qəlpələrin rentgensiz müəyyən edilməsi üçün ixtira etdiyi tibbi cihaz hərbi səhra şəraitində müalicə işlərinin aparılmasında çox böyük fayda vermişdir. Mustafa bəy Topçubaşovun bu ixtirası beynəlxalq aləmdə maraqla qarşılanmış, Azərbaycan aliminə dünya şöhrəti qazandırmışdır. Bundan başqa, o, müharibə dövründə arxa cəbhə kimi Bakı şəhərinə göndərilmiş minlərlə yaralını cərrahiyə əməliyyatından keçirərək həyata qaytarmışdır. Ona görə də, Azərbaycanın XX əsr tarixinə akademik Mustafa bəy Topçubaşov həm də tanınmış və fəal ictimai xadim kimi daxil olmuşdur. O, uzun illər Azərbaycan Sülhü Müdafiə Komitəsinin sədri, Asiya, Afrika və Latın Amerikası ilə Dostluq Komitəsinin üzvü olmuş, bu sahədəki məhsuldar fəaliyyətinə görə 1959-cu ildə Ümumdünya Sülh Şurasının Gümüş medalına layiq görülmüşdür.

Görkəmli elm xadimi akademik Mustafa bəy Topçubaşov Azərbaycan SSR Ali Sovetinə deputat seçilmiş, iki çağırış Azərbaycan SSRİ Ali Sovetinə sədrlik etmişdir.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin Sovet Azərbaycanının rəhbəri kimi təqdimatı ilə akademik Mustafa bəy Topçubaşov 1975-ci ildən yüksək mükafata – Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür. Akademik Mustafa bəy Topçubaşov dörd dəfə Lenin ordeni, Qırmızı Əmək Bayrağı, "Şərəf nişanı" ordenləri, döyüş orden və medalları, Bolqarıstanın III dərəcəli "Kiril və Medofiy" ordeni ilə eyni zamanda, "SSRİ Sanitar Müdafiəsi" fəxri adı və SSRİ Sanitar Müdafiəsi Əlaçısı" döş nişanı ilə təltif olunmuşdur. O, 1940-cı ildə Azərbaycan Respublikasının Əməkdar Elm xadimi fəxri adına layiq görülmüş, 1943-cü ildə Stalin mükafatı almışdır.

Azərbaycanda tibb təhsili və səhiyyəsinin görkəmli təşkilatçısı, ölkə cərrahlıq elmi məktəbinin banilərindən biri, Sosialist Əməyi Qəhrəmanı, Azərbaycan SSR EA vitse-prezidenti Mustafa bəy Topçubaşov 1981-ci il noyabr ayının 20-də Bakı şəhərində vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

Akademik Mustafa bəy Topçubaşovun adı əbədiləşdirilmişdir. Görkəmli elm xadiminin anadan olmasının 100 illik yubileyi ölkəmizdə dövlət səviyyəsində qeyd olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 iyun 2025-ci il tarixdə "Akademik Mustafa bəy Topçubaşovun anadan olmasının 130 illiyi"nin qeyd olunması haqqında imzaladığı Sərəncam görkəmli elm xadiminin xidmətlərinə müstəqil dövlətimizin yüksək ehtiramının əməli ifadəsidir. Azərbaycan elminin və təbabətinin inkişafının böyük töhfələr vermiş akademik Mustafa bəy Topçubaşovun parlaq adı və xidmətləri yeni nəsillər üçün əsl örnəkdir.

Akademik Mustafa bəy Topçubaşov Azərbaycan təbabətinin əfsanəsidir.

***İsa HƏBİBBƏYLİ,***
***AMEA-nın prezidenti, akademik***

**Görkəmli şəxsiyyətlər gözəl nitqləri ilə deyil, şəxsi əməyi və onun nəticələri sayəsində formalaşırlar.**

**Albert Eynşteyn**



# Cərrahiyyənin filosofu və bəstəkarı

Hər bir tarixi dövr özünəməxsus, təkrarolunmaz ənənələri ilə elmin inkişafında, aparıcı elmi məktəblərin yaradılmasında, ixtisaslı kadrların hazırlanmasında və eyni zamanda cəmiyyətdə ictimai fikrin formalaşmasında göstərdiyi çoxsahəli məhsuldar fəaliyyəti ilə ümummilli şöhrət qazanmış mütərəqqi ideya tərənnümçüləri ilə yaddaşlarda qalır. Bu qəbildən olan insanlara milli cərrahiyyəmizin "patriarxı" hesab edilən və təbabətin digər sahələrinin inkişafında müstəsna rolu olmuş dünya şöhrətli alim – akademik Mustafa Topçubaşovu aid etmək olar.

Prezident İlham Əliyevin 10 iyun 2025-ci il tarixlu sərəncamı ilə akademik Mustafa Topçubaşovun anadan olmasının 130 illiyi ölkə səviyyəsində qeyd edilir. Görkəmli pedaqoq, fəal səhiyyə təşkilatçısı, milli elmi cərrahiyyə məktəbinin yaradılmasında və yüksək ixtisaslı kadrların hazırlanmasında xüsusi xidmətlər göstərmiş Əməkdar elm xadimi, müxtəlif vaxtlarda Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti olmuş, Stalin (1943) və SSRİ Dövlət mükafatları laureatı, SSRİ Tibb Elmləri Akademiyasının akademiki, Sosialist Əməyi Qəhrəmanı, professor Mustafa Ağabəy oğlu Topçubaşov 5 avqust 1895-ci ildə İrəvan qəzasının Göygümbət kəndində anadan olmuşdur. İrəvan gimnaziyasını bitirdikdən sonra Kiyev Universitetinin tibb fakültəsində oxumuşdur. Naxçıvan və Bakı xəstəxanalarında cərrah, sonrakı 10 il ərzində Bakı Dövlət Universitetinin fakültə cərrahiyyəsi klinikasında ordinator və assistent vəzifələrində işləmişdir.

Düz 95 il əvvəl – 1930-cu ildə "Malyariya mənşəli splenomeqaliyanın klinikası, patologiyası və cərrahi müalicəsi" mövzusunda doktorluq dissertasiyası müdafiə etdikdən sonra M.Topçubaşova professor elmi adı verilmiş və o, Azərbaycan Tibb İnstitutunun fakültə cərrahiyyəsi kafedrasının müdiri seçilmişdir. Ömrünün sonuna qədər həmin kafedraya uğurla rəhbərlik etmişdir.

1937-ci ildə M.Topçubaşov dünya anesteziologiyası tarixində analoqu olmayan orijinal keyləşdirmə-inyeksion efir yağ narkozu üsulunu işləyib hazırlamışdır. Sonralar bu ağrısızlaşdırma qarışığı "Analgezin" adı ilə populyarlıq qazanmışdır. Bu üsul narkozun orqanizmin özünütənzim reaksiyasının təzahür etməməsi ilə səciyyələnərək, əvvəllər anesteziologiyaya məlum olmayan bəzi psixonevroloji və neyrofizioloji mexanizmləri aşkar etməyə imkan vermişdir. Ümumi anesteziyanın orqanizmə mənfi təsirindən fərqli olaraq (dərin yuxu, anestetiklərin toksiki təsiri, oyanma dövrü və s.) zərərsizliyi və tətbiqinin texniki sadəliyi ilə əlaqədar "Efir-yağ qarışıqlı keyləşdirmə" üsulu ağrı və qıcolma sindromları ilə müşayiət olunan bəzi xəstəliklərin (öddaşı xəstəliyi, travmatik şok, doğuş prosesi, tetanus və s.) effektli ağrısızlaşdırma vasitəsi kimi istifadə olunmuşdur. Huşun saxlanması ilə müşayiət olunan analgeziya zamanı xəstədə psixo-motor oyanma baş vermir. Bu fazadan sonrakı amneziya dövründə keçirilmiş əməliyyat və onunla əlaqədar hallar yadda qalmasa da, xəstədə ciddi yaddaş pozğunluğu baş vermir. Uzadılmış təsir effektinə malik analgeziya üsulu 1938-ci ildə klinik təcrübədə tətbiq olunmağa başlamışdır. Məşhur Amerika anestezioloqu, "Efir analgeziyasının" müəllifi C.Artuzio M.Topçubaşovun kəşfini çox yüksək qiymətləndirmişdir. Böyük Vətən müharibəsi illərində yaralı döyüşçülərin müalicəsində efir-yağ analgeziyası geniş istifadə olunmuşdur.

Tibb elminin inkişafındakı müstəsna xidmətlərinə, o cümlədən efir-yağ inyeksion anesteziya üsulunun kəşfinə görə 1964-cü ildə SSRİ Elmlər Akademiyasının A.V.Vişnevski adına Ümumittifaq Cərrahiyyə İnstitutunun Elmi Şurasının qərarı ilə M.A.Topçubaşov A.V.Vişnevski adına mükafata layiq görülmüş və xatirə medalı ilə təltif edilmişdur.

1978-ci ildə İsveç akademiyası akademik M.Topçubaşovun və professor Q.Qəhrəmanovun "Uzunmüddətli analgeziya – təbabətin və fiziologiyanın problemidir" mövzusunda elmi işini Nobel mükafatına təqdim etmişdir. Təəssüf ki, qapalı sovet sisteminə xas olan "siyasi motivlərlə" əlaqədar nominasiyaya irəli çəkilmiş azərbaycanlı alimlərin namizədliyi geri götürülmüşdür (yeri gəlmişkən, həmin il fiziologiya və təbabət üzrə heç kim Nobel mükafatına təqdim olunmamışdır). Lakin Vətən alimlərinin namizədliyinin irəli sürülməsi faktı M. Topçubaşovun kəşfinin təbabətin inkişafındakı rolunu bir daha təsdiq edir.

İkinci Dünya müharibəsində qələbənin qazanılmasında M.Topçubaşovun xüsusi xidmətləri olmuşdur. Bu, ilk növbədə müharibə dövründə onun yüksək təşkilatçılıq bacarığının təzahürü ilə sübut olunmuşdur. Akademikin təşəbbüsü ilə hospitallarda tibb xidmətinin profilləşdirilməsi məqsədilə yaralıların və xəstələrin müalicəsinin fərqləndirici prinsiplərinə əsaslanan vahid sistem yaradılmışdır və bu sistem Təxliyə hospitalları idarəsi tərəfindən bəyənilmişdir. Müharibə illərində M.Topçubaşovun ixtira etdiyi "Yad cisimlərin xaric edilməsi üçün aparat" onun məhsuldar fəaliyyətinin digər nümunəsidir. Bu aparat nəinki müharibə dövründə yaralılarda yad cisimlərin lokalizasiyasının dəqiqləşdirilməsində və xaric olunmasında geniş imkanlar açmış, həmçinin sülh dövründə klinik təcrübədə uğurla istifadə olunmuşdur. Akademik M.Topçubaşov bu ixtiraya görə 1943-cü ildə Stalin mükafatına layiq görülmüşdür. O, dünyada ilk dəfə müharibə şəraitində massiv qanaxmalar zamanı dəniz suyunu effektli qanəvəzedici kimi istifadə etmişdir.

Müharibədən sonra (1945–1950) professor M.Topçubaşov Azərbaycan SSR Səhiyyə Nazirliyinin baş cərrahı olmuşdur. O, geniş diapazona malik cərrah idi. Plevra, qarın və kəllə boşluqlarında ən mürəkkəb əməliyyatları yüksək ustalıqla icra etmək bacarığına malik idi. 62 illik cərrahlıq fəaliyyəti ərzində akademik M.Topçubaşov 100 mindən çox müxtəlif həcmli əməliyyat icra etmişdir. Respublikamızda cərrahi qastroenterologiyanın, hepatopankreatobiliar cərrahiyyənin, urologiyanın, travmatologiyanın, neyrocərrahiyyənin inkişafında və bərpa cərrahiyyəsində M.Topçubaşovun müstəsna rolu olmuşdur. Periferik sinirlərin odlu silah zədələnmələrinin müalicəsi və diafraqmaaltı sahədə yerləşən orqanlar üzərində əməliyyat məqsədilə akademik səmərəli üsullar təklif etmişdir.

Mustafa Topçubaşov 300-dən çox elmi işin müəllifi və həmmüəllifidir. Onun klinik cərrahiyyənin müxtəlif sahələrinə həsr olunmuş 8 monoqrafiyası torakal, abdominal cərrahiyyənin, travmatologiyanın, rekonstruktiv bərpa cərrahiyyəsinin konseptual aspektlərinə həsr edilmişdir. 5 cildlik "Xüsusi cərrahlıq" dərsliyi isə tibb institutunun tələbələri və cərrahlar üçün ən faydalı elmi-praktik vəsait olmuşdur.

Tədris prosesinin əyaniliyini yüksəltmək məqsədilə 1954-cü ildə akademik M.Topçubaşov klinikada əməliyyat auditoriyası təşkil etmişdir. Bu auditoriya tələbələrin əməliyyat otağına daxil olmadan, bilavasitə otağın üstündə gümbəz formasında yaradılmış və divarları yalnız şüşədən ibarət olan auditoriyadan əməliyyatın müşahidəsini təmin edirdi.

Akademik M.Topçubaşovun rəhbərliyi və iştirakı ilə 12 doktorluq və 80 namizədlik dissertasiyası müdafiə edilmişdir. Hazırda onun tələbələri nəinki respublikamızda, həmçinin ölkəmizdən kənarda yüksək ixtisaslı cərrah kimi fəaliyyət göstərərək, öz müəlliminin etimadını layiqincə doğruldurlar.

Çoxsahəli və məhsuldar praktik, elmi-pedaqoji və ictimai fəaliyyətinə görə akademik M.Topçubaşov "Qızıl Ulduz," "Şərəf nişanı", "Oktyabr inqilabı", Bolqarıstanın III dərəcəli "Kirill və Mefodiy", 4 dəfə Lenin və Qırmızı Əmək Bayrağı ordenləri ilə, "Qafqazın müdafiəsi uğrunda", "Almaniya üzərində qələbə uğrunda" , "1941–1945-ci illər Böyük Vətən Müharibəsində şanlı əmək uğrunda" medalı ilə, "Ümumdünya Sülh Şurası" gümüş medalları ilə, "A.V.Vişnevski adına xatirə medalı" ilə, "SSRİ-nin Sanitar müdafiəsi əlaçısı" döş nişanı ilə təltif edilmişdir. O, Beynəlxalq Cərrahlar Akademiyasının üzvü və Bolqarıstan Xalq Respublikası Elmlər Akademiyasının müxbir üzvü olmuşdur.

Mustafa Topçubaşov respublika akademiyasının yaradılmasında mühüm rol oynamış və onun ilk üzvlərindən biri olmuşdur. Uzun müddət Azərbaycanda Dünya Müdafiə Komitəsinin sədri, Asiya, Afrika, Latın Amerikası Ölkələri ilə Dostluq Komitəsinin üzvü olmuş M.A.Topçubaşov bu sahədə məhsuldar fəaliyytətinə görə 1959-cü ildə Dünya Sülh Şurasının gümüş medalı ilə təltif edilmişdir.

Akademik M.Topçubaşovun təşəbbüsü və geniş təşkilatçılığı sayəsində 1946-cı ildə "Naftalan Elmi-Tədqiqat Problem Laboratoriyası" və "Elmi-Tədqiqat Eksperimental və Klinik Təbabət İnstitutu" (hazırda akad. M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi) təşkil edilmişdir. Bakı şəhərinin küçələrindən biri və Respublika Elmi Cərrahiyyə Mərkəzi onun adını daşıyır. 1995-ci ildə M.A.Topçubaşova həsr olunmuş poçt markası buraxılmışdır. Xəzər dənizinin sərnişin gəmilərindən biri onun adı ilə üzərək dalğalara sinə gərir.

MustafaTopçubaşovun müsiqiyə xüsusi marağı onu dahi bəstəkar Üzeyir Hacıbəyli ilə yaxın dost etmişdir. Üzeyir bəy onu "təbabətin filosofu və bəstəkarı" adlandırmışdır. Dünya şöhrətli alimin zəngin həyat salnaməsi görkəmli yunan filosofu və eruditi Aristotelin sitatını söyləməyə əsas verir: "Təfəkkür insanın ən fədakar fəaliyyəti olub xoşbəxtlik və həyat sevincindən yüksəkdir".

Kinorejissor, Xalq artisti Yalçın Əfəndiyev 2011-ci ildə "Mustafa Topçubaşov. Əsrin fonunda portret" adlı sənədli film çəkmişdir. Akad. M.Topçubaşov 20 noyabr 1981-ci ildə vəfat etmiş və Fəxri Xiyabanda dəfn olunmuşdur.

Bu gün Azərbaycan Milli Elmlər Akademiyasında, akademik M.A. Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzində və Azərbaycan Tibb Universitetində Mustafa Ağabəy oğlu Topçubaşovun anadan olmasının 130 illiyi təntənə ilə qeyd olunur.

***Saday ƏLİYEV,***
***Azərbaycan Tibb Universitetinin I cərrahi xəstəliklər kafedrasının professoru, tibb elmləri doktoru***

# “Yurdun yurdçusu, oğlum!”





**Budəfəki yazımın qəhrəmanı xalqımızın mərd, qeyrətli, dəyərli bir şəhid övladıdır. Söhbət Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin ilk şəhidi, qərargah rəisi, kapitan Fikrət Akif oğlu Məmmədovdan gedir. Fikrət 1982-ci il sentyabrın 12-də Bakı şəhərində anadan olub. Orta təhsilini paytaxtın Nəsimi rayonundakı 111 saylı tam orta məktəbdə alıb. 2001-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub, 2005-ci ildə buranı əla qiymətlərlə bitirib.**

Beləcə, Fikrət peşəkar zabit kimi Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin sıralarında xidmət etməyə başlayıb. Xidmət illərində nümunəvi zabit kimi etimad qazanıb. 2014-cü il mayın 28-də Füzuli istiqamətində erməni işğalçılarının təxribatının qarşısını alarkən qəhrəmancasına şəhid olub. II Fəxri xiyabanda dəfn olunub. Ölkə Prezidentinin sərəncamı ilə ölümündən sonra “İgidliyə görə” medalı ilə təltif olunub.

... Fikrətin Qarabağa döyüşə son dəfə yola düşdüyü hərbi şəhərcikdəki mənzilindəyəm. Həyat yoldaşı Xəyalə xanım ilə 32 yaşında haqqın dərgahına qovuşmuş qeyrətli Azərbaycan kişisi barəsində söhbət edirik.

Xəyalənin baxışları nədənsə pəncərəyə dikilib. Onunla bərabər mən də səmaya boylanıram. Günəş üfüqün arxasında qürub etməkdədir. Hər ikimiz susuruq.

Sükutu kövrək səsi ilə şəhidin ömür-gün yoldaşı pozur:

– Fikrət çox ailəcanlı idi. İşdən gələndə bir qayda olaraq çəkmələrini soyunmadan qapının yanında dizlərini yerə qoyub oturardı, övladlarını haraylayırdı, hər dizinin üstündə birini saxlayırdı, hardasa bir 10 dəqiqə onları əzizləyirdi, hətta məni də çağırırdı ki, sən də gəl, yanımızda otur.

Yenidən hər ikimiz susuruq. Xəyalə xanım isə kiçik pauzadan sonra söhbətini davam etdirir:

– Bizim həmin 10 dəqiqəmiz sanki bir sehirli dünya idi. O anlar gözümün önündən çəkilmir. Amma bu barədə düşüncələrimi övladlarımla bölüşmək istəmirəm. Kövrəlib ağlayacaqlarından qorxuram....

Xəyalə xanım sonra etiraf etdi: O bilirdi ki, Fikrət hər dəfə növbəti hərbi əməliyyata gedəndə döyüşdən sağ qayıtmaya da bilər. Bu barədə hər dəfə söz düşəndə Fikrət ona təskinlik verər, sakitləşdirməyə çaışardı.

Xəyalə üçün Fikrətlə ayrılığa dözmək çox çətindir?! Amma, dözür, dözməlidir, o, indi Fikrətlə bağlı xatirələrlə yaşayır, övladlarını böyüdür. Həm də Fikrət kimi, cəsur, qeyrətli bir kişinin həyat yoldaşı olmaq son dərəcə böyük şərəfdir axı!

Fikrət Məmmədov adi zabit deyildi, peşəkar idi. Qısa zamanda Xüsusi Təyinatlı Qüvvələrin qərargah rəisi vəzifəsinə yüksəlmişdi. Dəfələrlə cəbhədə erməni təxribatlarına qarşı cəsur qərarlar vermiş, hamıdan öndə düşmənə qarşı döyüşə şığımışdı.

... O xəbər gələndə Xəyalənin ilk sualı bu olub: “Fikrətin döyüşə apardığı əsgərlər sağdırmı?” Xəyalə deyir ki, o, Fikrəti yaxşı tanıyırdı, o, döyüşçü dostlarını özündən çox istəyirdi. Əsgərlər də onunla fəxr edirdilər. Belə komandir olub Fikrət! Heç vaxt özünü düşünməyib.

Fikrətin təhsil aldığı 111 saylı tam orta məktəbdəyəm. Şəhidlərin adına hazırlanmış guşədə fotolara, digər sənədlərə nəzər yetirirəm. Fikrətin sinif rəhbəri **Esmira Tayirova** da yanımdadır.

Esmira xanım titrək səsi ilə şagirdinin həyat hekayətindən belə danışdı:

– Fikrəti tanıyan gündən onun bütün problemləri ilə maraqlanırdım. Doğma övladım bilirdim onu. 5-ci sinifdən 11-ci sinifə qədər sinif rəhbəri olmuşam. Fikrət valideyn sevgisinə möhtac idi. Axı, uşaq yaşlarından anasını itirmiş, xalasının himayəsində böyümüşdü. Ona tapşırmışdım ki, nə sözün olsa məndən gizlətmə. Amma o, daha çox susurdu. Çəkdiyi iztirabları başqalarına büruzə vermək istəmirdi. Həssas baxışlarının dərinliyində uşaqlıq dünyasının ağrı-acısı kök salmışdı.

Esmira xanım sonra nəql etdi ki, məktəbdə hamı onu çox tərbiyəli, dərslərinə məsuliyyətlə yanaşan bir şagird kimi tanıyırdı. Fikrətin mehriban səsi bu gün də onun qulaqlarındadır.

Fikrət orta məktəbi bitirəndə Esmira müəllimə ürəyini açıb belə söylmişdi:

– Müəllimə, mən hərbçi olacağam. Torpaqlarımızı işğaldan azad etməliyik.

Fikrət barədə döyüş yoldaşları da fəxrlə söz açdılar. Vətən Müharibəsi Qəhrəmanı, xüsusi təyinatlı **Gündüz Səfərli** yaxın dostu haqqında düşüncələrini belə çatdırdı:

– Fikrət mənim yaxınım, sirdaşım idi. Mənə demişdi ki, hələ uşaqlıqdan düşməndən qisas almaq ilə bağlı qərarını verib. Heç vaxt ölümlə bağlı düşüncələrini bizimlə bölüşməzdi. Fikrət ölümün varlığını qəbul etmirdi. Fikrətin şəhid olması bizim döyüşkənlik ruhumuzu daha da gücləndirdi.

Vətən Müharibəsi Qəhrəmanı, xüsusi təyinatlı **Saleh Həsənov** isə Fikrət haqqında bunları dedi:

– Xüsusi Təyinatlı Qüvvələrin belə bir şüarı var: “Sədaqətim şərəfimdir!”. Onun şəhadəti ilə Xüsusi Təyinatlı Qüvvələr ilk şəhidini verdi. Fikrət şəxsi heyəti arxasınca aparan, ölümün belə fərqinə varmayan zabit idi. Həmin gün... başda komandanlıq olmaqla, bütün şəxsi heyət məğrur sıra duruşunu saxlaya bilsə də, acı göz yaşlarını saxlaya bilmədi...

Saleh sonra söylədi ki, onlar Fikrətlə Pakistanda xüsusi təyinatlılar kursunu ard-arda keçiblər. Fikrət həmin qardaş ölkədə yüksək hərbi təlim kursunu ilk keçən zabitimiz olub. Qeyd edək ki, bu, çətinliyinə görə dünyada ilk beşlikdə duran kurslardan sayılır. Pakistanlı hərbçilər Fikrətə böyük inam və etimad bəsləyirdilər. Hələ sağlığında Fikrətin İslamabad yaxınlığındakı Çerat qəsəbəsində yerləşən hərbi muzeydə nümunəvi zabit kimi adına xüsusi guşə yaradılmışdı.

Bu gün də Pakistan Ordusunda şəhid Fikrət Məmmədovun xatirəsi hörmətlə anılır. Bu günlərdə Pakistandan ürəkaçan xəbər aldıq. Pakistan dövləti şəhidimizin xatirəsinə dərin ehtiram əlaməti olaraq, tələbə zabitlərin yeməkxanasına kapitan Fikrət Məmmədovun adını vermişdir.

Pakistanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri **Bilal Haye** (bir müddət əvvəl xidməti vəzifəsini başa çatdırıb Vətənə qayıtmışdır) ilə görüşən zaman ondan Fikrət barədə öz fikirlərini bildirməsini xahiş etmişdim. Hörmətli elçi o zaman belə demişdi:

– Pakistan Hərb Məktəbində təhsil almış, Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin ilk şəhidi Kapitan Fikrət Məmmədovun haqqında çox eşitmişəm. O, çox cəsur bir insan və öz ömrünü ölkəsinə xidmət etməkdən şərəf duyan bir zabit olub. Bir hərbçinin xidməti işinin nə qədər çətin olduğunu yaxşı bilirik. Hamımız müxtəlif işlərdə çalışırıq, amma hərbçi işi bütün peşələrdən fərqlidir və işlərin ən çətinidir. Niyə? Çünki komandanlar tərəfindən əmr veriləndə onlar həyatlarından belə keçməyə hazırdırlar. Bax bu səbəbdən Vətənə xidmət edən hər bir zabitin, əsgərin işi ən çətin işdir. Bu insanlar lazım gələndə həyatlarını qurban verib şəhid olurlar.

Pakistanlı səfir sonda bunları söylədi:

– Şəhid Fikrət Məmmədovun ailəsinə salamlarımı çatdırın və dərin hörmətimi, ehtiramımı bildirin. Şəhidlər ölümsüzdür, onlar bizim ürəyimizdə əbədi yaşayırlar!

... Fikrətin yaşadığı mənzili tərk edəndə dönüb oğlu Rəsula tərəf baxdım. O, anasının mənzildə yaratdığı “Fikrət guşəsi”ndəki tablosu qarşısında fikrə getmişdi. Sanki atası səssizcə oğlunun qulağına bu sözləri pıçıldayırdı:

– Bilirəm, məndən nigaransınız. Yolumu gözləyirsiniz. Mən Vətən səmasında uca bir zirvədəyəm. Qəlbim rahatdır. Axı, arzularım həyata keçib, düşmən torpaqlarımızdan qovulub.

Oğlum Rəsul, sənin bu torpaqda başını dik tutub gəzməyə tam haqqın var. Sənin atan Vətən, torpaq namus uğrunda şəhid olub!

Yurdumun yurdçusu oğlum! Ruhum Sizinlədir!

*Kəmalə ABDİNOVA*
*XQ*

# Dünya neft bazarında yeni dövr çağırışı

**OPEK+ alyansına daxil olan 8 ölkə sentyabr ayı üçün gündəlik neft hasilatını 547 min barrel artırmaq barədə razılığa gəlib. Bu qərar, daha əvvəl qüvvədə olan 2,2 milyon barrel/sutka (b/s) həcmində könüllü hasilat azaldılması paketinin tam şəkildə ləğvi anlamına gəlir. Alyans bununla yanaşı, ilin sonuna qədər daha bir könüllü məhdudiyyətin mərhələli şəkildə aradan qaldırılmasını da nəzərdən keçirir.**

OPEK-in yaydığı rəsmi məlumata görə, Rusiya avqustda hasilatı 9,449 milyon b/s, Səudiyyə Ərəbistanı isə 9,976 milyon b/s səviyyəsinə qədər artıra biləcək. Alyansa, həmçinin İraq, BƏƏ, Küveyt, Qazaxıstan, Əlcəzair və Oman daxildir. Qərarın qəbuluna səbəb kimi bazarda neft ehtiyatlarının aşağı səviyyədə olması və iqtisadi artımın canlanması göstərilir.

Ekspertlər hesab edirlər ki, kartel bu addımı ilə strateji dönüş edir: artıq neftin qiymətini qorumaqdan çox, hasilatı artırmaqla bazar payını genişləndirmək məqsədi güdür. Apreldə atılan oxşar addımlar nəticəsində neftin qiymətində kəskin ucuzlaşma müşahidə olunmuşdu. Hazırda isə bazara təsir edən əsas amillərdən biri ABŞ Prezidenti Donald Trampın Rusiyanın enerji ixracatına qarşı sanksiya təhdidləridir.



ABŞ-ın artan təzyiqləri fonunda Hindistan neft idxalında diversifikasiya prosesini sürətləndirib. “Reuters”in məlumatına görə, Indian Oil Corporation (IOC) şirkəti artıq 4,5 milyon barrel ABŞ nefti, 500 min barrel Kanada mənşəli WCS markalı neft və 2 milyon barrel BƏƏ-nin Das markalı neftini alıb. Buna baxmayaraq, Rusiya nefti Hindistanın ümumi neft idxalının 30 faizdən çoxunu təşkil etməkdə davam edir.

Prezident Trampın sərt bəyanatlarına baxmayaraq, Hindistan rəsmiləri Rusiya ilə enerji sahəsində əməkdaşlığın davam etdiyini vurğulayırlar. Məlumatlara görə, Hindistan neft şirkətləri G7-nin tətbiq etdiyi 60 dollar həcmində qiymət limitinə əməl etməklə beynəlxalq tövsiyələri nəzərə alırlar.

Hazırda Hindistan Azərbaycan, Nigeriya və BƏƏ kimi ölkələrdən neft tədarükünü genişləndirmək üçün alternativ marşrutlar üzərində çalışır. Qərb mənbələrinin bildirdiyinə görə, ölkənin 4 iri neft emalı zavodu artıq Rusiya nefti əvəzinə Yaxın Şərq markalarına üstünlük verir.

OPEK+ ölkələrinin hasilatı artırmaq strategiyası və ABŞ-ın sanksiya siyasəti fonunda enerji bazarında yeni güc balansının formalaşdığı müşahidə olunur. Belə şəraitdə Hindistan və Çin kimi əsas istehlakçılar üçün enerji mənbələrinin diversifikasiyası yalnız ticarət deyil, həm də strateji sabitlik və enerji təhlükəsizliyi məsələsinə çevrilir.

Yaxın aylarda qlobal neft bazarında qiymət dəyişiklikləri və geosiyasi risklər fonunda alternativ mənbələrə çıxış imkanları və qərarvermədə çeviklik həlledici rol oynayacaq.

*Səbuhi MƏMMƏDOV*
*XQ*

# Yay ola, qarpız ola...

**Qarpız böyüklərin olduğu kimi, uşaqların da ən sevimli giləmeyvəsi, delikatesi hesab edilir. Yayın bürküsündə bizə sərinlik verən bu şirəli məhsulun əsil vaxtıdır. Tərkibinin 92 faizi su olan qarpızı yalnız xoş dadına, susuzluğu aradan qaldırmasına, sərinlik gətirməsinə görə sevmirlər. Onun həm də sağlamlığa xeyli faydası var.**



“Su sudur, bunun nə faydası var?”– deyə bilərsiniz. Lakin suya ehtiyacın artdığı isti yay aylarında nəmləndirmə üçün ideal seçim yalnız qarpızdır.

Fitoterapevtlərin fikrincə, qarpız orqanizmin hüceyrələrini sərbəst radikalların zərərindən qoruyan antioksidant likopenlə zəngindir. Likopen ürək xəstəliklərinin və bəzi xərçəng növlərinin, o cümlədən prostat xərçənginin qarşısının alınmasında faydalıdır.

Qarpız stressi azaldır, əhəmiyyətli vitamin və minerallar mənbəyidir. Tərkibi tiamin (B1), riboflavin (B2) və niasin (B3) kimi B qrup vitaminlərlə zəngindir. Onlar qidamızı enerjiyə çevirmək, sağlam dəri, saç və dırnaqların möhkəmliyi üçün vacibdir. Qarpızda həm də əzələlərin və sinirlərin düzgün işləməsi üçün lazım olan maqnezium boldur.

Tərkibindəki yüksək C vitamini sayəsində qarpız immuniteti gücləndirir, orqanizmin infeksiya və xəstəliklərlə mübarizə aparmasına kömək edir. Eyni zamanda, dərinin vəziyyətini yaxşılaşdırır. Tərkibindəki A və E vitaminləri dərini nəmləndirir və gəncləşdirir, onu yumşaq və hamar edir.

Qarpız həzmə müsbət təsir göstərir. Yüksək lif tərkibi mədə-bağırsaq traktının fəaliyyətini yaxşılaşdırır, qəbizliyin qarşısını alır və bağırsaqların normal işləməsini təmin edir. Tərkibindəki kalium qan təzyiqini tənzimləyir, hipertoniya və onunla bağlı fəsadların inkişaf riskini azaldır.

Şirin dadına baxmayaraq, qarpızın kalorisi azdır (100 qram məhsulda təxminən 30 kalori var), bu da xarici görünüşünə diqqət edənlər üçün vacib hesab edilir. Ümumiyyətlə, biz qarpız yeyib xeyli problemi həll edirik: arıqlayır, gözəlləşir, cavanlaşır, stressə qalib gəlir və həyatdan zövq alırıq!

Tezliklə qarpızın mövsümü bitəcək, ona görə, bol-bol istifadə edək. Doğrudur, onu qışa da saxlayanlar var. Amma hər məhsul öz mövsümündə dadlıdır.

Onu da deyək ki, bütün qida məhsulları kimi, qarpızı da normadan artıq qəbul etmək olmaz. Çünki qarpız həm də ishala və həzmlə bağlı digər problemlərə səbəb ola bilər, qanda qlükozanı artırar. Qarpızın tərkibindəki bol kalium sümükləri və əzələləri möhkəmlətsə də, həddən artıq kalium ürəkdə aritmiya yaradar və nəbzin zəifləməsinə səbəb olar.

*Zərifə HÜSEYNLİ*
*XQ*

# Eynşteynin xəbərdarlığı və Manhetten layihəsi

## *Əfsanəfi “Domokl” qılıncı necə gerçəkləşdirildi?*

**1939-cu il avqustun 2-də Ruzveltin ofisinə bir neçə nəsil alimlər üçün əsl qorxu yaradacaq bir məktub daxil oldu. Məktub məşhur alim Eynşteyndən gəlmişdi, o, müharibəni və tarixin özünü dəyişdirə biləcək yeni bir güc barədə xəbərdarlıq edirdi. Bu, əslində, adi bir məktub deyildi, dünyanı əbədi olaraq dəyişdirəcək bir siqnal idi.**



Dünyaca məşhur fizik olan Albert Eynşteynin ABŞ prezidenti Franklin Delano Ruzveltə ünvanladığı məktub tezliklə XX əsrin ən mühüm sənədlərindən birinə çevriləcəkdi. Məktubun mətnini Eynşteynin özü deyil, nüvə fizikasında kəşflərin misli görünməmiş gücə malik silahlara çevrilə biləcəyini anlayan ilk alimlərdən biri olan macar fiziki Leo Szilard yazmışdı. Sadəcə, Eynşteynin dəstəyi sayəsində məktub diqqət cəlb etmişdi.

Alimlər təşviş içində idilər. Nasistlər hakimiyyətə gəldikdən sonra Eynşteynin qaçdığı Almaniyada nüvənin parçalanması ilə bağlı araşdırmalar sürətlə gedirdi. Szilard və onun həmkarları nasistlərin müttəfiqlərdən əvvəl atom bombası hazırlaya biləcəyindən qorxurdular. Məhz bu qorxu onları ABŞ prezidentinə müraciət etməyə vadar etmişdi.

Məktubda prezident Ruzveltə “yeni növ son dərəcə güclü bomba” yaradılması ehtimalı barədə xəbərdarlıq edilir və hökumətlə fiziklər arasında əməkdaşlıq təklif olunurdu. Alimlər texniki təfərrüatları və hesablamaları ehtiva etməsələr də, əsas təhlükəni və təcili tədbirlər görülməsinin vacibliyini qeyd edirdilər.

Ruzvelt məktubla tanışlıqdan sonra xüsusi komitə yaratdı. Bu addım bir neçə il sonra Manhetten layihəsinə çevriləcək işin başlanğıcı oldu. Proqram görkəmli alimləri, böyük resursları bir araya gətirdi və hərbi nizam-intizam yaratdı. Nəticə 1945-ci ilin yayında Nyu-Meksiko səhralarında sınaqdan keçirilmiş ilk atom bombaları oldu.

Eynşteyn sonradan həmin məktubu imzaladığına görə peşman olmuşdu. O, layihədə iştirakçı olmayıb və adının kütləvi qırğın silahları ilə bağlı çəkilməsini istəmirdi. Ona görə də sonralar etiraf etmişdi ki, Almaniyanın atom bombasını hamıdan əvvəl hazırlaya bilməyəcəyini bilsəydi, heç vaxt o məktubu dəstəkləməzdi.

Bununla belə, məktub elmi xəbərdarlığın siyasi qərarları və dünyanın taleyini necə dəyişdirə biləcəyinin simvolu oldu. Eynşteyn ömrünün sonuna qədər nüvə silahlarına nəzarət edilməsinin və elmin dinc məqsədlərlə istifadəsinin vacibliyi fikrini müdafiə etdi. Onun Ruzveltə yazdığı məktub indi tarixi sənəd kimi arxivdə saxlansa da, dərsləri hələ də aktualdır. Axı hər bir yeni texnologiya – istər nüvə enerjisi, istərsə də süni intellekt olsun, həm tərəqqi vasitəsinə, həm də təhlükə mənbəyinə çevrilə bilir.

*XQ*

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

tabeliyindəki idarələrə tələb olunan tibbi çantaların satın alınması məqsədilə

AÇIQ TENDER ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər.

Müraciət üçün son müddət 2025-ci il avqustun 11-i saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində,2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1132.

Ünvan- Bakı, Mikayıl Useynov küçəsi 2.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 161 (30855) 5 avqust 2025-ci il, çərşənbə axşamı

İDMAN

## 4 cüdoçumuz fəxri kürsüdə



**Azərbaycanın 4 cüdoçusu Şimali Makedoniyanın paytaxtı Skopyedə gənclər arasında keçirilən Avropa Kubokunun ilk yarış günündə fəxri kürsüyə qalxıblar.**

Cüdo Federasiyasının mətbuat xidməti xəbər verir ki, Nihad Məmişov (60 kq) və Əbil Yusubov ( 73 kq) bütün rəqiblərinə qalib gələrək qızıl medal qazanıblar.

Fərid Qarayev (60 kq) gümüş, Məhəmməd Musayev (66 kq) isə bürünc medala sahib olublar. 2 qızıl, 1 gümüş və 1 bürünc medala malik Azərbaycan ümumi komanda hesabında ikinci pillədə qərarlaşıb. Qeyd edək ki, turnirə 26 ölkədən 226 idmançı qatılıb.

## Güləş millimizin U-17-də uğuru



**Azərbaycanın güləş millisi Yunanıstanın paytaxtı Afinada keçirilən U-17 dünya çempionatını 1 qızıl, 3 bürünc medalla başa vurub.**

Son yarış günündə 4 çəkidə güləşçilərimiz medallar uğrunda mübarizə aparıblar. Onlardan ikisi fəxri kürsünün üçüncü pilləsinə yüksəlib. Həsən Həsənov (60 kq) təsəlliverici görüşlərdə yunanıstanlı Pavlos Ntiantiadislə qırğızıstanlı Ulukman Jekşenkulov (7:2) üzərində inamlı qələbə qazanıb.

Səid Paşayev (92 kq) bürünc medal uğrunda qarşılaşmada isə qazaxıstanlı Beibaris Yerqaliyə 5:3 hesabıyla qalib gələrək dünya üçüncüsü olub.

Ötən gün Hüseyn İsmayılov (65 kq) dünya çempionu olmuş, Hakim Tağıyev (110 kq) isə üçüncü yeri tutmuşdu.

Qeyd edək ki, Azərbaycan 90 xalla komanda hesabında 4-cü pillədə qərarlaşıb və ilk “3-lüy”ü qapayan Qazaxıstandan cəmi 1 xal geri qalıb.

## Sumqayıt şəhər birinciliyi



**Sumqayıt Olimpiya İdman Kompleksində təşkil olunan birincilikdə kiçiklər (2019-2018-ci il təvəllüdlülər), balacalar (2017-2015-ci il təvəllüdlülər), yeniyetmələr (2014-2013, 2012-ci il təvəllüdlülər) və gənclər (2011-2010-cu il təvəllüdlülər) mübarizə aparırlar.**

Yarışa dünən yekun vurulub. Qaliblər mükafatlandırılıb.

*M.HACIXANLI*
*XQ*

“CONSTRUCTİON ENGİNEERİNG” Qapalı Səhmdar Cəmiyyətinin (VÖEN: 1202199501) yenidən təşkili qaydasında təşkilati - hüquqi formasının dəyişdirilərək Qapalı Səhmdar Cəmiyyətindən Məhdud Məsuliyyətli Cəmiyyətə çevrilməsi ilə əlaqədar dövriyyədə olan 152.000 (bir yüz əlli iki min) manata bərabər tutulan 10 (on) ədəd hər birinin nominal dəyəri 15200 (on beş min iki yüz) manat olan adi ,adlı ,sənədsiz səhmləri dövriyyədən çıxarılır.

✓ *2021-ci il iyunun 11-də Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi məktəbi tərəfindən Turqut Mais oğlu Cəfərlinin adına verilmiş ali təhsil haqqında C seriyalı, 092033 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.*

*Avrokuboklar meydanı*

# “Azərbaycan üçlüyü” yoluna Skopye, Sofiya və Mərdəkanda davam edəcək







**Qarşıdakı 3 gün avrokuboklar meydanında yenə həyəcan dolu hadisələrlə zəngin olacaq. Kimi azarkeşlərinə xoş sürpriz ərməğan edəcək, kimi də məğlubiyyətə üzüləcək. “Azərbaycan üçlüyü” Çempionlar Liqası və Konfrans Liqasının 3-cü təsnifat mərhələlərinin 1-ci raundunda müvafiq surətdə “Qarabağ”, “Sabah” və “Araz Naxçıvan” ilə yoluna davam edəcək. Təmsilçilərimizin 2-ci mərhələdə əzmkar, məhsuldar oyunları və buna uyğun nəticələri futbol ictimaiyyətimizi bir qədər də ürəkləndirib. İndi yeni uğurları daha inamla gözləyirik.**

Hazırki mərhələdə ilk addımı Çempionlar Liqasında Ağdam komandasının Şimali Makedoniyanın paytaxtı Skopye şəhərində yerli “Şkedinya” klubuna qarşı görüşündə atacağıq. Bu günə təyin edilmiş oyunda topa ilk zərbə Bakı vaxtı ilə saat 22-də endiriləcək. UEFA matçın hakimliyini Slovakiya Futbol Federasiyasının nümayəndələrinə həvalə edib. Baş hakim funksiyasını İvan Kruzliak yerinə yetirəcəkdir.

Hər iki rəqibin 3-cü mərhələnin qapısını taybatay, 2 qələbə ilə açması onların əyani görüşlərinə marağı ikiqat artırır. Azərbaycan çempionu İrlandiyanın “Şelburn” komandasının qapısına Dublin və Bakıda üst-üstə dörd cavabsız top vurub, “Şkedinya” da öz növbəsində FCSB (Ruminiya) klubundan hər iki oyunda üstün olub – 1:0 və 2:1. Deməli, rəqiblər bir-birinə layiqdirlər.

Cavab görüşü isə avqustun 12-də Tofiq Bəhramov adına Respublika stadionunda baş tutacaq. Həmin axşam iki oyunun yekununda cütün qalibi sevincdən, bəlkə də, səhərədək yatmayacaq.

Skopye sınağından 2 gün sonra isə nəzərlərimiz Sofiya və Mərdəkana yönələcək. Avqustun 7-də “Sabah” Konfrans Liqasının 3-cü təsnifat mərhələsinin ilk oyunları çərçivəsində Bolqarıstan paytaxtında məşhur “Levski” klubunun qonağı olacaq. Bu komanda yaxşı tarixə malik kifayət qədər iddialı rəqibdir. Söz yox ki, sofiyalılar Bakıya səfər ərəfəsində “doğma divarlar” arasındakı oyundan maksimum dərəcədə “qazanc” götürmək istəyəcəklər. Amma “Sabah”ın da avrokuboklar meydanında özünü mübariz komanda kimi göstərdiyini, iki oyunda “Petrokub”un (Moldova) qapısına 6 top vurduğunu da nəzərə alsaq, tribunalarda və teleekran qarşısında görüşü izləməyə hazırlaşan tamaşaçılar darıxmalı olmayacaqlar.

İki oyunun yekununda mərhələni hansı xoşbəxt komandanın adlayacağını isə avqustun 14-də Bakıda cavab görüşündən sonra biləcəyik.

Şübhəsiz, azarkeşlərimiz “Araz Naxçıvan”–“Omoniya” (Kipr) qarşılaşmasını da böyük maraqla gözləyirlər. Rəsmi beynəlxalq meydanın qapısını yenicə açmağa başlayan Naxçıvan futbolçuları “Aris”i Yunanıstana Bakıdan məğlubiyyətlə yola saldıqdan bir həftə sonra səfərdə də daha bir şücaət göstərib, özlərini tam qane edən əsl qrossmeyster heç-heçəsinə (2:2) nail oldular.

Avqustun 7-də rəqib daha bir təcrübəli komanda olacaq. Mərdəkanda “Omoniya” klubu ilə oyuna iki gün qalır. Çexiyalı hakimin idarə edəcəyi görüşün start işarəsi saat 20-də səslənəcək.

Artıq hamıya bəllidir ki, “Araz Naxçıvan” komandası “konfransda”, sadəcə, iştirakçı yox, möhkəm, döyüşkən xarakteri ilə ən fəal iştirakçılardan biri kimi təsir bağışlayıb. Kollektiv məzmunlu, cəsarətli oyunu ilə ümidləri doğruldur. İndi ilk müvəffəqiyyəti iki gündən sonra keçiriləcək oyunda bir qədər də inkişaf etdirmək, Kiprə cavab görüşünə yaxşı əhvalla getmək, orada da Avropanı bir daha təəccübləndirmək lap yerinə düşər. Konfrans Liqasının 3-cü mərhələsində uğur artıq qrup mərhələsinin astanasına aparır. Döyüşməyə dəyər!

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

## Şirvanda ustad dərsi

**Şirvan Tarix-Diyarşünaslıq Muzeyində “Zəka, sənət, hərəkət – asudə vaxtın rəngləri” mövzusunda ustad dərsi keçirilib. Məlumatı Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin əməkdaşı verib.**



Xəbərdə deyilir ki, 10–15 yaş aralığında uşaqların iştirak etdiyi tədbirdə ustad dərsi çərçivəsində rəssam Aynur Məmmədzadə iştirakçılara düyünlü batika texnikası üzrə təlim keçib. Təlim zamanı uşaqlar batika texnikasından istifadə edərək müxtəlif əl işləri hazırlayıblar.

*XQ*

## Gələcəyin jurnalistləri qabiliyyət imtahanı veriblər

**Dövlət İmtahan Mərkəzi (DİM) avqustun 4-də ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinin jurnalistika ixtisasına qəbul olmaq istəyən abituriyentlər üçün qabiliyyət imtahanı keçirib.**



Bu mərhələdə III ixtisas qrupu üzrə test imtahanı verərək müsabiqə şərtini ödəyən və jurnalistika ixtisasına qəbul olmaq üçün internet vasitəsilə anket dolduraraq qeydiyyatdan keçən abituriyentlər iştirak ediblər.

İmtahan Bakı şəhərində DİM-in elektron imtahanlar korpusunda və DİM-in regional bölmələrinin yerləşdiyi Naxçıvan, Gəncə, Lənkəran, Şəki, Bərdə, Göyçay, Şirvan və Xaçmaz şəhərlərində təşkil olunub. İmtahanda mindən çox abituriyent iştirak edib.

DİM-in əməkdaşları, Milli Məclisin deputatı Vüqar Rəhimzadə, Mətbuat Şurası və media nümayəndələrinin iştirakı ilə təklif olunan 250-dən çox mövzudan 3-ü seçilib və videobağlantı vasitəsilə imtahan mərkəzlərinə çatdırılıb.

Abituriyentlər təqdim olunmuş mövzulardan birini seçərək inşa (esse) yazıblar. Məqbul qiymət alan abituriyentlər seçim zamanı jurnalistika ixtisasını ərizələrində qeyd edə biləcəklər.

*XQ*

Hava

## Ölkəmizdə qızmar yay günləri...



**Bu gün Bakıda və Abşeron yarımadasında havanın günəşli keçəcəyi gözlənilir. Şimal-qərb küləyi səhər cənub-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 24-29, gündüz 35-39, bəzi yerlərdə 40 dərəcəyə yaxın isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 758 mm civə sütunu, nisbi rütubət isə gecə 70-80 faiz, gündüz 40-45 faiz təşkil edəcək.**

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 21-27, gündüz 35-40, bəzi yerlərdə 41 dərəcəyədək isti, dağlarda gecə 18-23, gündüz 29-34 dərəcə isti olacaq.

*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev Xalq yazıçısı

**ELÇİN ƏFƏNDİYEVİN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Hidayət və ailə üzvləri Xalq yazıçısı

**ELÇİN ƏFƏNDİYEVİN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru Məryəm Əlizadə görkəmli dövlət xadimi, ictimai xadim, Xalq yazıçısı

**ELÇİN ƏFƏNDİYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Teatr Xadimləri İttifaqının kollektivi görkəmli dövlət xadimi, Xalq yazıçısı

**ELÇİN ƏFƏNDİYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Ağsu Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov və aparatın kollektivi görkəmli sənətkar, Xalq artisti

**ARİF BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Naxçıvan şəhərindən Hüseyn Əliyev ailəsi ilə birlikdə “ARKOZ Holdinq Naxçıvan Kərpic Zavodu” MMC-nin istehsalat rəhbəri İlkin Quluyevə dayısı

**ƏLİ BƏYLƏR OĞLUNUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3390
SİFARİŞ 1515
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00